Səməd Sərdariniya

# ARAZIN HƏR İKİ TAYINDA MÜSƏLMANLARIN SOYQIRIMI

*AMEA Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

Bakı - Elm - 2006

Elmi redaktor: *Əkrəm RƏHİMLİ*

Fars dilindən tərcümə edəni: *Atilla MARALANLI*

Səməd Sərdariniya. **"Arazın hər iki tayında müsəlmanların soyqırımı"** - Bakı, «**Elm**» nəşriyyatı, 2006, 120 səh.

**İSBN 5-8066-1340-2**

Görkəmli tarixçi-alim Səməd Sərdariniyanın "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabında erməni və assuri (cilov) quldur dəstələrinin rus və ingilis hərbi qüvvələrinin köməyinə arxalanaraq Türkiyə, İran və Azərbaycan ərazilərində çoxsaylı cinayət törətmələri, müsəlman kənd və şəhərlərini xarabazara çevirmələri, yüz minlərlə günahsız insanların qətliamını təşkil etmələri tutarlı sənədlər və mənbələr əsasında açılıb göstərilir. Erməni şovinistlərinin ifşa edilməsi baxımından bu əsərin aktuallığını nəzərə alıb onu cüzi ixtisarla oxuculara təqdim edirik.

0503020907
655(07)-2006

© «**Elm**» nəşriyyatı, 2006.

## ERMƏNİ CİNAYƏTLƏRİNDƏN DANIŞAN KİTAB

Biz türklərin qonaqpərvərliyi, humanizmi, kimsəsizə əl tutmaq, yurdsuz-yuvasıza sığınacaq verməsi ulu keçmişimizdən genlərimizə hopmuş və günümüzə qədər davam edən əzəli və əbədi keyfiyyətimizdəndir. Bu insani keyfiyyətlərə həmişə sadiq qalmış Azərbaycan türkləri öz ata-baba ərazisinin bir çox bölgələrində nankor ermənilərə də sığınacaq vermişdi. "Özümə yer eyləyim, gör sənə neyləyim" xislətində olan bu millət ona mərhəmət göstərmiş xalqa qarşı zaman-zaman əl qaldırmış, onu öz doğma torpağından qovub çıxarmağa cəhd etmişdir.

Son 100-150 ildə azərbaycanlılarla ermənilərin münasibətlərində bu cür olaylar dəfələrlə təkrarlanmışdır. Təəssüfləndirici cəhət odur ki, ermənilərin Azərbaycan xalqının başına gətirdiyi qanlı faciələr, saysız-hesabsız cinayətlər son illərə qədər Azərbaycanın nə quzeyində, nə də güneyində yetərincə qələmə alınmamış və millətə çatdırılmamışdı. Bunun obyektiv səbəbi hər şeydən əvvəl Azərbaycanın hər iki tayında mövcud olmuş siyasi rejimlərlə bağlı olmuşdur. O taylı - bu taylı Azərbaycan ərazisində ermənilərin vaxtaşırı törətdikləri kütləvi qırğınlar və qanlı cinayətlər kölgədə saxlanıldığı və xalqdan gizlədildiyi bir şəraitdə ermənilərə özlərini dünya ictimaiyyətinə "məzlum", "haqqı tapdalanmış", "dənizdən dənizə torpağı türklər tərəfindən qəsb olunmuş" bir xalq kimi tanıdılmağına imkan vermişdi. Bu münasib fürsətdən yetərincə yararlanan ermənilər "soyqırım" sözünü ortaya atmış və onunla bağlı indiyədək 28 min adda kitab, kitabça çap etdirib dünya ölkələrinə yaymağa müvəffəq olmuşlar.

Belə bir şəraitdə tarixi həqiqətləri, faktları və olayları ortaya gətirmək, keçmişdəki və hazırki qanlı hadisələrin əsl səbəbini və törədənini açıb bəyan etmək, dünya ictimaiyyətinə tanıtdırmaq hər iki sahildəki tarixçilərimizin və tədqiqatçılarımızın üzərinə düşən mühüm vəzifədir.

Qeyd etmək lazımdır ki, Arazın bu tayında ermənilərə həmişə hamilik etmiş sovet rejiminin mövcudluğu, İranda isə türklərə qarşı erməni qədər qəddar və amansız olan Pəhləvi diktaturası erməni müəlliflərinə və siyasət adamlarına geniş meydan verdikləri halda, hər iki sahildə türklərin həqiqəti söyləmək istəyən səsini amansızlıqla susdurmuşlar.

Məhz onun nəticəsində son 150 ildə Azərbaycan-erməni münasibətlərindəki olaylar bir qayda olaraq qərəzli və birtərəfli işıqlandırılmışdır.

Keçən yüz illiyin sonunda baş vermiş hadisələr - Şimalda sovet rejiminin çökməsi, Cənubda şahlıq üsul-idarəsinin yerlə yeksan edilməsi tariximizin qaranlıq qalmış bir sıra məsələlərinə, o cümlədən Azərbaycan torpaqlarında ermənilərin vaxtaşırı törətdikləri qırğınlara və cinayətlərə dair həqiqətləri yazmağa, təkzibolunmaz faktları və sənədləri ortaya çıxarmağa imkan yaratdı. Bu sahədə tarixşünaslığımızdakı sükut buzu sındırıldı, bu mövzuya aid az zaman kəsiyində bir sıra dəyərli kitablar yazıldı, sənədli filmlər çəkildi, elmi araşdırmaların nəticələri oxucuların ixtiyarına verildi. Təqdirə layiq cəhətdir ki, bu vacib və son dərəcə zəruri iş hazırda uğurla davam etdirilir.

Lakin təəssüflə qeyd etməliyik ki, bu sahədə Güney Azərbaycan tarixşünaslığında hiss olunacaq qədər boşluq vardır (vaxtı ilə yazılmış 3-4 kitab istisna olunmaqla).

Güneyli alim Səməd Sərdariniyanın son illər öz yaradıcılığında bu mövzuya yer verməsi və bir-birinin ardınca üç dəyərli kitabı ("İrəvan müsəlman sakinli şəhər olmuşdur", "Arazın hər iki tayında müsəlmanların soyqırımı" və "Qarabağ tarixin gedişatında" oxuculara təqdim etməsi dəyərli addım

kimi qiymətləndirilməlidir. "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabında müəllifin qələmə aldığı məsələ - Güney Azərbaycanın Qərb bölgəsində (Urmiya, Xoy, Salmas, Maku, Şərəfxana və s.) erməni daşnaklarının 1918-ci ildə (Bakıdakı mart soyqırımı ilə yanaşı) törətdikləri kütləvi qırğın və olmazın zorakılıqlar haqqında indiyə qədər qapalı saxlanılmış məlumatlar açıqlanır. Oxucu kitabın səhifələrini vərəqlədikcə elə qanlı səhnələrlə üzləşir ki, bu qanlı və unudulmaz olaylar üzdəniraq "məzlum" ermənilərin iblis və qatil xislətinin iç üzünü açıb göstərir. Kitabda Arazın hər iki tayında türklərin soyqırıma məruz qalmasından bəhs olunsa da əsas yer Güney Azərbaycanın qərb bölgələrindəki olaylara verilmişdi.Bu bir cəhətdən önəmlidir ona görə ki, ermənilərin Arazın o tayında törətdikləri qırğın və cinayətlər haqqında oxucularda məlumatlar yetərincə deyildi. Kitabda "erməni" əvəzinə çox yerdə "assuri-cilovlar" işlədilməsi bizcə İrandakı erməni mafiyasının və onlara tərəf saxlayanların kitabın işıq üzü görməsinə yarada biləcəkləri maneə və əngəllərlə bağlıdır.

Oxuculara təqdim olunan kitab haqqında geniş söhbət açmağa ehtiyac yoxdur. Bizim dediklərimiz kitabda yazılanların müqabilində dolğun ola bilməz, ona görə də əsər haqqında mülahizəni oxucunun ixtiyarına vermək daha yaxşı və səmərəli olar.

Məlum olduğu kimi Azərbaycan Respublikasında ermənilərin zaman-zaman törətdikləri qırğın, talan və cinayətlər haqqında bir çox kitab və yazılar çap edilib, oxuculara təqdim edilmişdir. Yazılanların təkrarına yol verməmək xatirinə müəllifin razılığı ilə kitabın Azərbaycan dilində nəşrində bəzi kiçik ixtisarlar aparılmışdır.

"Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabı keçən əsrin əvvəllərində Arazın o tayındakı soydaşlarımıza qarşı erməni daşnakların əli ilə törədilmiş kütləvi qırğınlar, qarətlər və zorakılıqlarla tanış olmaq, bu olayları bu günkü və

gələcək nəsillərin qan yaddaşına hopdurmaq baxımından olduqca dəyərli və önəmlidir.

Biz əminik ki, mövzunun aktuallığını, bu günümüz və sabahımız üçün əhəmiyyətini nəzərə alan Güneydəki tarixçilərimiz və yazarlarımız bu sahədəki axtarışların və yazıların miqyasını daha da genişləndirəcəklər. Bu, "Böyük Ermənistan" xülyasına düşən və "dənizdən dənizə" itmiş "vətən"ini axtaran erməni daşnaklarına tutarlı cavablardan olardı.


**Əkrəm RƏHİMLİ**

*Milli Elmlər Akademiyası*

*Ziya Bünyadov adına*

*Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi*

# ÖN SÖZ

Şah Sultan Hüseyn Səfəvi ilə eyni vaxtda hökmranlıq etmiş Rusiya çarı I Pyotr (1672-1725) hakimiyyətə gəldikdən sonra öz yarım vəhşi rəiyyətlərini Qərb sivilizasiyasına doğru yönəltməyi qərara almışdı. Elə buna görə də o, bütün gücü ilə İsveç, Polşa və Osmanlı dövlətlərinin Rusiya ilə Qərb arasında çəkdikləri divarı dağıtmağa və Qərbə doğru bir pəncərə açmağa çalışırdı.

Rusiya çarı özünün bu məqsədinə nail olmaq üçün Osmanlı və İsveç dövlətləri ilə müharibəyə girib onları məğlub etdi. O, ictimai durumun və rus millətinin köhnə əxlaq normalarının dəyişdirilməsi uğrunda təcili addımlar atmağa başladı. Beləliklə də, həmin tədbirlər sayəsində I Pyotr səltənətinin sonunda Rusiya artıq böyük Avropa dövlətlərinin birinə çevrildi.

O öz siyasətini həyata keçirmək üçün tamah gözünü İran torpaqlarına dikmişdi. Belə ki, I Pyotra mənsub edilən vəsiyyətnamədə deyilir: "Elə tədbirlər görmək lazımdır ki, İran ölkəsi günü-gündən yoxsullaşıb, ticarəti tənəzzülə uğrasın. Ümumiyyətlə elə etmək lazımdır ki, İran həmişə viranlığa və məhvə doğru getsin. Daha doğrusu, onu elə ölümcül vəziyyətdə saxlamaq gərəkdir ki, Rusiya dövləti istədiyi bir vaxt, kiçik bir təzyiqlə onu asanlıqla aradan qaldıra bilsin. Lakin Osmanlı dövlətinin qəti ölümündən öncə İranın bir yolluq nəfəsini almaq məsləhətə uyğun deyildir. Gürcüstan və bütün Qafqaz ərazisi İranın həssas damarı sayılır. Rusiya istilasının neştərinin ucu ona çatan kimi İranın ürəyindən zəiflik qanı fışqırmağa başlayacaq və elə gücsüz olacaq ki, heç bir təcrübəli həkim də onu sağalda bilməyəcəkdir. Bundan sonra Osmanlı dövləti noxtalanmış bir dəvə kimi Rusiya padşahla-

rının əlində olacaq və elə günə düşəcək ki, ancaq zəruri hallarda yük daşımalı olsun. Sonra isə buna da qadir olmayanda artıq başını bədənindən ayırma vaxtı gəlib çatacaq. Ruslar vaxtı itirmədən Gürcüstanı və bütün Qafqaz ərazilərini ələ keçirib, İran padşahını öz əlaltı adamınıza çevirməlisiniz. Bütün bunlardan sonra Hindistana doğru irəliləmək lazımdır..."[1]

Beləliklə də, I Pyotrun hökmranlığı dövründən başlayaraq, rusların diqqəti İrana yönəlir. Pyotr İrana, xüsusilə də Qafqaz ərazisinə əl uzatmaq istəyən birinci Rusiya hökmdarı idi. O, Azərbaycanı Orta Şərqin qapısı sayırdı. O, artıq yaxşı başa düşmüşdü ki, bu bölgəyə nüfuz etməyin ən uyğun yolu ermənilərlə əlbir olmaq və onlardan öz əlaltıları kimi istifadə etməkdir. ABŞ-da yaşayan erməni tarixçisi Herand Pasdermaciyan bu barədə yazır: "I Pyotr Orta Şərq ərazilərinə daxil olmaq üçün Zaqafqaziyaya bir açar kimi baxırdı. O, habelə Osmanlı imperiyasının Xəzər dənizinə yaxınlaşmasının qarşısını almaq üçün planlar hazırlayır və belə qərara gəlmişdi ki, Gürcüstan ilə Ermənistanı öz himayəsi altına alsın. Elə həmin məqsədlə də o, Qarabağ erməniləri ilə əlaqə yaradıb, onların "Evri" adlı nümayəndəsini öz hüzurunda qəbul etdi. Beləliklə də, I Pyotrun bu təşəbbüsü İranla birinci müharibənin başlanmasına gətirib çıxardı. Ruslar Dərbəndə, hətta Bakıya qədər də irəlilədilər. Əslində isə I Pyotrun məqsədi ermənilərin gəlib bu bölgədə məskunlaşmasından ibarət idi. Lakin onun planı baş tutmadı. Çünki böyük imperatorun ölümündən sonra ruslar ələ keçirdikləri əraziləri boşaldıb, geri çəkildilər".[2]

Bu təcavüzkar siyasət II Yekaterinanın çarlığı dövründə də ermənilərin yardımı ilə müxtəlif formalarda davam etmişdi. Pasdermaciyan bu barədə yazır: "Hətta bir dəfə II Yekaterina Rusiyanın himayəsi altında bir Ermənistan ölkəsinin yaran-

---

[1] Səid Nəfisi "İranın ictimai-siyasi tarixi", I cild, səh. 266 (fars dilində).

[2] Herand Pasdermaciyan "Ermənistan tarixi", çevirəni: Məhəmməd Qazi, səh. 362 (fars dilində).

ması üçün plan da hazırlamışdı. Bu plan ciddi şəkildə Yekaterina kraliçası ilə onun bu işin icrası üçün nəzərdə tutduğu Putemkin arasında müzakirə edilmiş və hətta qərara alınmışdı ki, planı həyata keçirdikdən sonra Putemkinin özü həmin ölkənin hökmdarı olsun. Bu iş üçün geniş hazırlıq da gördürmüşdü. Lakin bildiyimiz kimi 1797-ci ildə Rusiyanın müdaxiləsi Gürcüstan sərhədlərində dayandırıldığı üçün bu planın icrası davam etdirilməmişdi”.[1]

Bütün bunlara baxmayaraq, II Yekaterinanın canişinlərinin hakimiyyəti dövründə məşhur Rusiya-İran müharibələri nəticəsində nəhayət, Rusiya çarizmi özünün çoxdankı məqsədinə nail olur və ermənilərin ruslarla əməkdaşlığı sayəsində Qafqaz bölgəsi həmişəlik İrandan ayrılıb, Rusiya imperiyası ərazilərinə birləşdirilir.

Fransız tarixçisi Jan Mari Karzo özünün “Ermənistan 1915” adlı kitabının hər yerində ermənilərlə həmrəyliyini büruzə verməsinə baxmayaraq, həmin kitabın 39-cu səhifəsində belə yazır: “İran və Türkiyə erməniləri Rusiya-İran müharibələri gedişində könüllü hərbi qruplar təşkil edərək, Rusiyaya dəyərli xidmətlər və yardımlar göstərib, bu ölkənin müharibədən qalib çıxmasını asanlaşdırdılar. Çünki onların fikrincə bu məntəqənin müsəlman dövlətindən ayrılması erməni millətinin azadlığının və tam müstəqilliyə qovuşmasının birinci addımı kimi qiymətləndirilirdi. Diqqəti çəkən önəmli bir məqam ondan ibarətdir ki, bu sövdələşmə özü özlüyündə ermənilərin Ermənistana qayıtmasına səbəb oldu. İlk növbədə İrandan başlanan bu qayıdış tezliklə Osmanlıya da sirayət etdi və beləliklə də, bu ölkədə yaşayan ermənilərin böyük bir qismini Rusiyanın erməni ocağına qaytardı”.[2]

Səid Nəfisi də özünün “İranın ictimai-siyasi tarixi” əsərində yazır: “Müharibə başlanan kimi ermənilər rusların tərəfinə keçib onlarla əməkdaşlıq etməyə başlayırlar. Cavad-

---

[1] Yenə orada.

[2] Jan Mari Karzo “Ermənistan 1915”, səh. 39, farsca tərcümə edəni: Fəriborz Bərzigər.

xanın və Gəncə əhalisinin ruslar qarşısında müqavimət göstərdiyi bir vaxtda Gəncə qalası ermənilərin xəyanəti nəticəsində süqut edir".[1]

Beləliklə, rusların İranla apardıqları müharibənin bütün mərhələlərində ermənilərin ruslarla əməkdaşlığı davam etmiş və bu əməkdaşlıq İran qüvvələrinə ağır zərbələrin endirilməsi ilə nəticələnmişdir. Ermənilərin ruslarla İrana qarşı qızğın əməkdaşlıq etməsi elə bir şəraitdə baş verirdi ki, onlar həmişə İranda digər iranlılarla yanaşı dinc şəraitdə yaşamış və həmişə hörmətlə qarşılanmışdılar. Mövcud olan çoxlu tarixi sənədlər buna sübutdur.

Rusiya-İran müharibələrinin başa çatmasından sonra ermənilər İrandan və Osmanlıdan artıq rusların əlində olan Arazın o tayına köçməyə başlayırlar. Ruslar əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Qafqaz məntəqəsini işğal etdikdən sonra yerli müsəlman əhaliyə etimad edə bilmədikləri üçün Qafqaz əhalisinin etnik tərkibini müsəlmanların ziyanına olaraq dəyişdirmək məqsədilə tədbirlər görürdülər. Onlar Türkmənçay müqaviləsinə bir bənd əlavə edərək, müharibə dövründə çar Rusiyası qoşunları ilə hərtərəfli əməkdaşlıq etmiş ermənilərin bu torpaqlara gəlmələrinə zəmin yaratdılar. Bununla da, çarizm özünün Qafqazdakı ayaq yerini möhkəmləndirməyə və Şərqə doğru köhnə siyasətini yeritdirmək üçün bu məntəqəni özünün güvənc yerinə çevirməyə çalışırdı.

Çarizmin yalnış və kobud siyasəti Qafqazda üsyanların baş qaldırmasına gətirib çıxarır. Bu üsyanlar müsəlmanların sıx yaşadığı bir neçə nöqtədən başlanır. Lakin bunların ən önəmlisi və ən geniş yayılmışı dağıstanlı Şeyx Şamilin başçılıq etdiyi üsyan idi. Şeyx Şamil güclü çar ordusu qarşısında 26 il müqavimət göstərib, onları ruhdan salmağı bacardı. Lakin 1859-cu ildə Şeyx Şamil hərəkatı məğlub olduqdan sonra bütün Qafqazdakı digər üsyanlar da zorakılıqla yatızdırıldı

---

[1] Səid Nəfisi "İranın ictimai-siyasi tarixi" I cild, səh. 241 (farsca).

və bu bölgə tamamilə Rusiya imperiyasının hegemonluğu altına salındı.

Bütün bunlara baxmayaraq, rus çarizminin ayrı-seçkiliyə söykənən ədalətsiz siyasətinin davam etdirilməsi Azərbaycan müsəlmanlarının qəti və kütləvi narazılığına gətirib çıxartmış oldu. 1870-1880-ci illərdə müxtəlif formalarda çar zülmünə qarşı silahlı mübarizəyə başlanılır. Bu mübarizə silahlanmış kiçik partizan qrupları tərəfindən idarə olunurdu. Bu silahlı mübariz dəstələrə xalq arasında "Qaçaqlar" adı verilmişdi.

Qafqazdakı durum belə davam etdiyi bir vaxtda - 1890-cı ildə Tiflis şəhərində üç ekstremist erməni bir araya gələrək, "Böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün "Daşnaksütyun" adlı bir partiyanın yaranmasının təməlini qoydular. Onların şüarı dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaqdan ibarət idi. Onların hesablamalarına görə Aralıq dənizi ilə Xəzər dənizi arasındakı bütün ərazilərdə "Böyük Ermənistan" dövləti yaranmalıydı. Aydın məsələdir ki, belə bir xülyanı gerçəkləşdirmək üçün ilk növbədə geniş ərazilərdə yaşayan müsəlmanları yer üzündən silmək və onlara qarşı soyqırım cinayətini törətmək zərurəti ortaya çıxmışdı.

Qafqazın Rusiya imperiyasına birləşdirilməsindən sonra rus hökmdarları bu bölgənin müsəlman əhalisinə etimad göstərmədiklərinə görə həmişə onlara qarşı ayrı-seçkilik siyasətindən istifadə etmişlər. Məhz həmin illər ərzində müsəlman əhalini məcburi surətdə xristianlaşdırmaq siyasəti davam edilmişdi. Müsəlmanlara qarşı zorakılıq siyasəti yeridildiyi bir vaxtda ermənilər imperiyanın bu bölgdə həssas və mühüm vəzifələrinə təyin edilir, baş nazir vəzifəsinə qədər də yüksələ bilirdilər. Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda yeridilən xristianlaşdırma siyasəti müsəlmanların məhvi və əzilməsi bahasına başa gəlirdi. Rusiya başçıları Qafqazda bu köhnə siyasəti davam etdirirdilər. Belə ki, keçmiş Sovet İttifaqının dağılması ərəfəsində bu birliyi təşkil

edən on beş respublikanın öz müstəqilliyini elan etdiyi bir şəraitdə yalnız Azərbaycan Respublikası məşhur aşkarlıq və yenidənqurma düşüncəsinin nəzəriyyəçisi Qorbaçovun qəzəbinə tuş gəldi və onun əmri ilə 1990-cı ildə qara 20 Yanvar faciəsi törədildi. Nəticədə isə müsəlman azərbaycanlılar Bakı şəhərinin küçələrində öz qanlarına bələşdilər.

Vaxtilə Oktyabr inqilabının rəhbəri Lenin Rusiyanı xalqların məhbəsi adlandırmış və Azərbaycan musiqisinin dahisi böyük Üzeyir Hacıbəyov buna bənzər bir fikir söyləmişdi: - **"Rusiya məmləkətində müsavatdan əsər-əlamət yoxdur. Hamıya bir gözlə baxılmır. Birisinə hörmətlə yanaşır, başqasına isə məhəl qoymurlar. Birisi qula çevrilir, başqası da həmin qulun başının sahibinə. Bu arada biz müsəlmanların durumu hamıdan artıq acınacaqlıdır".**

# MÜSƏLMANLARIN SOYQIRIMI

Öz məqsədlərini dəhşət və qorxu hissini yaymaqla həyata keçirən Daşnak partiyasının baniləri XIX əsrin sonlarında Osmanlı ölkəsində hədəflərinə nail ola bilmədikləri üçün bütün qüvvələrini səfərbər edərək, Qafqazda hərc-mərclik yaratmaq yolu ilə burada öz proqramlarının bir hissəsini həyata keçirməyə başladılar. Həmişə fürsət dalınca qaçan daşnaklar, Rusiya-Yaponiya müharibəsinin baş verməsi, çar ordusunun yaponlara məğlub olunması və nəhayət 1905-ci il rus inqilabı dövründə aranı qızışdırdılar. Onlar 2 fevral 1905-ci ildə Bakının Quba meydanında Ağarza adlı bir müsəlmanı öldürməklə azərbaycanlıları fəlakətli bir müharibəyə cəlb etdilər. 1906-cı ilə qədər davam edən bu müharibə Şimali Azərbaycanın bir çox şəhərlərində saysız-hesabsız günahsız əhalinin öldürülməsinə gətirib çıxardı.

1918-ci il Arazın hər iki tayında yaşayan müsəlman azərbaycanlılar üçün daha dəhşətli və daha acınacaqlı bir il idi. Məhz həmin ildə Azərbaycan şəhərlərinin əksər müsəlman əhalisi qəddarcasına ermənilərin hücumuna məruz qalıb, kütləvi qırğınlar nəticəsində qətlə yetirildi. Bu dəhşətli faciələrdə yüz minlərlə müsəlman azərbaycanlı qətlə yetirildi, bir çoxları da öz ev-eşiyindən didərgin düşdülər.

Məsələ belədir ki, I Dünya müharibəsinin üçüncü ilində (1917-də) Rusiyada baş verən bir sıra inqilabların ardınca çar hakimiyyəti devrildi. Romanovlar sülaləsinin süqutu daşnaklara, "Böyük Ermənistan"ın yaranması uğrundakı məqsədlərini həyata keçirmək üçün imkan yaratdı. Ermənilər 1918-ci ilin yanvar ayında müsəlman şəhəri olan İrəvana və onun ətrafındakı 211 müsəlman kəndinə basqın edərək, burada yaşayan üç yüz min müsəlmanı (azərbaycanlını - A.M.) qırıb, minlərlə

soydaşımızı yurd-yuvasından didərgin saldılar. İrəvanın bu tarixi müsəlman şəhərini bir erməni şəhərinə çevirdilər. Təcavüzkar ermənilər elə həmin ilin mart ayında Bakıda, Şamaxıda və digər Azərbaycan şəhərlərində yenidən öz cinayətlərini təkrar etdilər. Onlar təkcə Bakıda iyirmi min əhalini qırsalar da, Osmanlı ordusunun gəlməsindən sonra bu şəhərlərdə soyqırım faciəsini tamamilə həyata keçirə bilmədilər.

Güney Azərbaycanda isə bu dəhşətli faciələr başqa formada törədildi. "Cilov" adlandırılan Osmanlı assuriləri I Dünya müharibəsində Osmanlı dövlətinə qarşı savaşda Rusiya dövlətini himayə etdikləri üçün məğlub oldular və İrana qaçdılar, Qərbi Azərbaycanın şəhər və kəndlərində, o cümlədən Urmiya və Salmasda sakin oldular. Cənubi Azərbaycan əhalisi bu çağırılmamış qonaqları mehribancasına qəbul etdi. Lakin çox keçmədən ingilislər bu assuri qaçqınlarını Qafqazdan qaçıb gəlmiş ermənilərlə (yerli erməni və assuriləri də onlara qoşaraq) birgə silahlandırıb, Cənubi Azərbaycanın Qərb hissəsində bir xristian hökuməti yaratmaq istədilər. Belə bir dövlətin yaranması da bu əyalətdə yaşayan müsəlmanların soyqırımı bahasına başa gəlməli idi. Beləliklə də, erməni-assurilərdən ibarət silahlanmış xristian ordusu qısa zamanda Urmiya, Salmas və Köhnəşəhərdə 130 mindən artıq yerli müsəlman əhalini son dərəcə acınacaqlı və faciəvi şəkildə qırıb tökdü. Həmin kütləvi qırğınlar nəticəsində bu cinayətkarların iyrənc məqsədi az qala gerçəkləşəcəkdi, lakin Osmanlı ordusunun gəlməsindən sonra onların bütün çirkin və iyrənc planları puça çıxdı.

1918-ci ilin fevral və mart aylarında Urmiyada müsəlmanlar (azərbaycanlılar - A.M.) iki dəfə xristianlar (ermənilər və assurilər) tərəfindən törədilən kütləvi qırğınlara məruz qaldılar. Bu faciəvi qırğınlar həmin ilin mart ayında Salmasda da təkrar edildi.

Həmin ərəfədə "general" Andranik başda olmaqla səkkiz min silahlı erməni Arazın o tayından (Şimalından) Xoy şəhərinə hücum edərək, daha böyük qırğınlar törətdilər.

1918-ci ilin yanvar ayında İrəvan müsəlmanlarının soyqırımından və həmin ilin 28 mayında İrəvan müsəlman şəhidlərinin torpağa tökülmüş qanları üzərində Ermənistan Respublikasının təşkil olunmasından sonra daşnaklar, "Böyük Ermənistan"ın yaranması istiqamətindəki cəhdlərində Van, İrəvan və Naxçıvan torpaqlarını birləşdirmək və öz qüvvələrini bir-biri ilə əlaqələndirmək qərarına gəlirlər. Elə həmin vəziyyətlə də onlar nəyin bahasına olursa olsun Xoyu ələ keçirməyi öz qarşılarına məqsəd qoyurlar.

1919-cu ildə iyun ayının 23-də sübh çağı silahlı erməni birləşmələri Xoy şəhərinin yaxınlığında görünməyə başlayırlar. Lakin onlar şəhər əhalisinin güclü müqaviməti ilə rastlaşırlar.

Xoy əhalisinin "general" Andranik Zoriyan qüvvələri qarşısındakı güclü müqaviməti müasir Azərbaycan tarixinin ən parlaq və şanlı qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Belə ki, düşmən qarşısında göstərilən müqavimət Xoy əhalisini ermənilərin qırğınından qurtardı. Həm də bu şəhər öz tarixini qəhrəmanlıq istiqamətinə dəyişdi. Əgər o taleyüklü günlərdə qeyrətli Xoy əhalisi fədakarlıq və qəhrəmanlıq göstərməsəydi, bəlli deyil ki, bu şəhərin taleyi necə olacaq idi.

1918-ci ildə Arazın hər iki tayında baş vermiş hadisələrin şərhinin zəruriyyəti nəzərə alınaraq, kitabın əsas materialları bu qanlı olayların şərhinə həsr edilmişdir.

Qeyd etmək lazımdır ki, bu faciələr nəinki 1918-ci ildə bitmir, hətta sonrakı illərdə də daha kəskin şəkildə davam etmişdir. Belə ki, 1988-ci ildən bəri nəinki Azərbaycan Respublikası şəhərlərinin (xüsusilə də Xocalı, Kəlbəcər və s.) əhalisi dəfələrlə daşnakların rəhimsiz kütləvi qırğınlarına məruz qalmışdır, hətta Azərbaycan Respublikası ərazisinin iyirmi faizini təşkil edən Dağlıq Qarabağ və ətraf rayon və şəhərlər ermənilər tərəfindən işğal edilmiş, nəticədə isə bu ərazilərin şəhər və kəndlərində yaşayan bir milyondan artıq insan öz yurd-yuvasından məhrum edilərək, qaçqın və didərgin vəziyyətinə düşmüşdür.

# GÜNEYDƏ VƏ QƏRBİ AZƏRBAYCANDA ERMƏNİLƏR VƏ ASSURİLƏR (CİLOVLAR) TƏRƏFİNDƏN MÜSƏLMANLARIN KÜTLƏVİ QIRĞINI

1914-cü ildən 1918-ci ilə qədər davam edən I Dünya müharibəsi dünyada bir çox dəyişikliklərin baş verməsinə səbəb oldu. Bu dəyişikliklərdən biri 1917-ci il Rusiyada Oktyabr inqilabının baş verməsi və çar hakimiyyətinin süqutundan ibarət idi. Bu tarixi hadisə bizim ölkəyə də dərin təsir buraxdı. 29 aprel 1909-cu ildən etibarən doqquz il müddətinə Azərbaycanı öz işğalı altında saxlayan çar ordusu, yerli əhaliyə qarşı heç bir zülm və cinayəti əsirgəmədi. Bu işğalçı ordu, iranlıların istiqlal və azadlığını əlindən aldığı halda, daha dəhşətli faciələrə də yol açdı. Həmin faciələrdən biri də Azərbaycan Məşrutə inqilabının nailiyyətlərini məhv etmək məqsədilə Səmədxan Şücaid dövləni dəstəklənməsi və onun xalqa təhmil edilməsi idi.

Romanovlar sülaləsinin sonuncu imperatoru II Nikolayın devrilməsindən sonra işğalçı rus ordusu Cənubi Azərbaycanı tərk edib, öz vətənlərinə qayıdırlar. Onlar geri qayıtdıqdan sonra daşnaklarla birgə 1918-ci ildə Bakıda qanlı Mart faciəsini törətdilər. Qeyd etmək lazımdır ki, işğalçı rus ordusunun tədricən geri çəkilməsi uzun müddət İranın siyasi həyatına dərin izlər buraxdı. Onlar geri çəkilərkən, Azərbaycanın bir çox şəhərlərində soyğunçuluqla bərabər, böyük qırğınlar da törədirdilər. Onlar öz ailələri üçün sovqat aparmaq üçün Urmiya bazarını iki dəfə qarət edib yandırdılar. Abbas Nəbii yazır: "Geri çəkilərkən rus ordusunda elə intizamsızlıq yaranmışdı ki, mövcud hərbi sursatı və ağır silahları Rusiyaya



Urmiya şəhərində Etimadidövlənin evində rus zabitləri üçün qonaqlıq mərasimi

qaytarmaq mümkün deyildi. Rus ordusunun komandiri yerli hakimiyyət başçılarına müraciət edərək, tələb etdi ki, hərbi sursatı rəsmi və yazılı sənəd müqabilində İran dövlətinə təhvil versin. Lakin yerli hökumət bu təklif müqabilində bildirdi ki, onlar bunun üçün öncə Tehranın rəyini öyrənməlidirlər. Lakin geri qayıtmaq üçün tələsən rus komandiri ən böyük hərbi sursat anbarı olan Urmiya və Heydərabad limanındakı sursatı cilovlara təhvil verdi. Onlar həmçinin Şərəfxana, Təbriz və sair yerlərdəki sursat anbarlarını da heç bir yazılı sənəd almadan buraxıb, Rusiyaya qayıtdılar. Ancaq bu hərbi sursat cilovların, ermənilərin və qismən də kürdlərin əlinə keçdi. Bu isə sonralar böyük problemlərin yaranmasına gətirib çıxardı".[1]

Ruslar Azərbaycanda ikən burada yaşayan xristianlar onların himayəsinə söykənərək, vaxtaşırı yerli əhaliyə divan tuturdular. Kəsrəvi yazır: "Ruslar yerli əhali ilə kobud davranırdılar, ermənilər ilə assurilər də rusların himayəsinə arxalanaraq, əhaliyə qarşı zorakılıq edirdilər. Xristianların zorakılığına qarşı çıxan olmadığı üçün də onlar günü-gündən təzyiqi artırır, nəticədə isə elə bir həftə olmurdu ki, neçə-neçə insan öldürülməsin, yaxud da acınacaqlı bir hadisə baş verməsin.

Xristianlar şəhərlərdəki cinayətlərindən başqa şəhərdən kənar yerlərdə də müsəlmanlara qarşı heç bir cinayətdən vaz keçmir, istədiklərini edirdilər. Qafqazdan qaçıb buraya gəlmiş bir qrup erməni cilovlarla birgə burada yolkəsənlik və quldurluq edirdilər və onların bu əməlinə qarşı çıxanları isə yerindəcə öldürürdülər. Bu arada yerli hökumətə qulluq edən bir qrup iranlı əsgər sözü gedən quldurların qarşısını almağa getdilər, lakin baş verən qanlı qarşıdurma nəticəsində əsgərlərin komandiri Abdulla ağa yaralandı və onu şəhərə gətirən kimi aldığı yara nəticəsində həlak oldu.

Osmanlı sərhədində yerləşən Merqur kəndində isə iki rus əsgərinin cəsədinin tapılması nəticəsində ruslar həmin kəndə və ətrafdakı digər kəndlərə hücum edib, hər yeri yandırıb viran qoydular, kişilərin bir çoxunu öldürüb, qalanları isə qadınlar və

[1] Təsuc tarixdə. səh. 341.



Assurilərin silahlı dəstəsi

uşaqlarla birgə yaxalayıb şəhərə gətirdilər və burada onları evsiz-eşiksiz, didərgin halda küçələrdə öz halına buraxdılar.

Ruslar Şalo kəndini isə burada bir rus əsgərinin cəsədini tapdıqları üçün tamamilə yandırıb, əhalisini isə qırıb tökdülər. İrana pənah gətirmiş cilovlar (iranlılar rəhm edib dinc yaşaya bilsinlər deyə onları öz kəndlərində yerləşdirmələrinə baxmayaraq) isə yaşadıqları kəndlərdə bir araya gəlib, kəndin bütün işlərini ələ keçirib, əhali ilə istədikləri kimi davranırdılar".[1]

Britaniya və himayədarları soldatların (rusların - A.M) müharibədən geri çəkilmələri nəticəsində müttəfiqlərin Şərq cəbhəsinin dağılmasını görüncə onların İrandakı boş yerini doldurmaq üçün rus əsgərlərinin silahlarını ucuz qiymətə satın alıb erməniləri və əsasən Osmanlı torpağından qaçıb Azərbaycanın qərb hissəsinə gəlmiş dağ assurilərini silahlandıraraq, Azərbaycanda xristian dövlətinin yaranması vədini verdilər.

Dr.Məhəmməd Əmin Riyahi yazır: "Rusların getməsindən sonra xalqın azadlıq və asayişə qovuşması barədəki ümidi o qədər də əbəs deyildi. Lakin İngiltərə ilə Fransanın siyasəti insanların bu ümidini puça çıxardı. Çünki müttəfiqlərin hərbi maraq və məsləhəti səbəb oldu ki, Azərbaycan dörd-beş il daha düşmənçilik və hərc-mərclik içində yanıb yaxılsın. Müharibənin sona çatması ilə dünya əhalisi rahat nəfəs aldığı günlərdə burada qan və od-alov hələ də hökmranlıq edirdi".[2]

Azərbaycanın o dövrki polis rəisi Abdulla Bəhrami öz xatirələrində yazır: "Bütün bu baş verənlərdən daha dəhşətlisi və daha təhlükəlisi assurilərin hücum məsələsi idi. Ruslar Urmiya ilə Salması və ətrafdakı əraziləri boşaldıb öz ölkələrinə qayıtdıqdan sonra ingilislər həmin ərazilərin müdafiəsini müharibə vaxtı İrana sığınmış assurilərə tapşırdı. İngilislər habelə bir çox yeni silahı və rusların Urmiya gölü ətrafında yığılıb qalmış hərbi sursatı da assurilərə verdilər. Bununla da, qaniçən və vəhşi bir etnik sayılan assurilər yaranmış fürsətdən

---

[1] Ə.Kəsrəvi "Azərbaycanın on səkkiz illik tarixi" (farsca), səh. 710.

[2] M.Ə.Riyahi "Xoy tarixi" (farsca), səh. 495.

istifadə edərək, Cənubi Azərbaycanın qərb ərazilərində özləri üçün kiçik bir dövlət yaratmaq həvəsinə düşdülər. Onlar Urmiyada mərkəzdən gəlmə bütün məmurları işdən qovub, şəhərin idarəsini birbaşa öz əllərinə keçirdilər. Assurilərin dini rəhbəri Marşimon öz atlıları ilə Salmas şəhərinə hücum edərək, oranı da öz nəzarətləri altında olan ərazilərə daxil etmək istəyirdilər".[1,2]

Beləliklə də, İngiltərə və Fransa Azərbaycanın qərb əyalətində xristianlardan ibarət bir qoşunu asanlıqla rus silahlı qüvvələrinin əvəzi olaraq meydana çıxartdılar. Kəsrəvi yazır: "Bu zaman Urmiyanın taleyi başqa cür təyin edilməyə başladı. Belə ki, Almaniyaya qarşı müharibədə hamıdan artıq israrlı olan İngiltərə ilə Fransa, Almaniya və müttəfiqlərinin diz çökməsinə qədər müharibəni davam etdirmək istəyirdilər. Bunlar rusların pərişanlığını görərək bildirdilər ki, ruslar gec-tez geri çəkiləcək, nəticədə isə İranda Osmanlılar qarşısında müharibə meydanının bir hissəsi boş qalacaqdır.

Məhz buna görə də belə bir qərara gəlmişdilər ki, İran və Osmanlı erməni və assurilərindən, həmçinin Qafqazdan gəlmiş ermənilərdən ibarət bir ordu yaradıb, onlardan ingilis və fransızların əlaltıları kimi istifadə etsinlər. Həmin məqsədlə də onlar erməni və assurilərin başçıları, xüsusilə də assurilərin dini rəhbəri Marşimonla danışıqlar aparmış və lazım olan şəraiti ona və ermənilərə yaratmışdılar. Həmin ərəfədə İngiltərə ilə Fransanın nümayəndələri Culfa yolu ilə İran torpağına daxil olub, Urmiyaya gedib orada fəaliyyətə başladılar. Bu işdə amerikalılar da onlarla əməkdaşlıq edirdilər. Uzun illərdən bəri burada yaşamış amerikalı missionerlər özləri üçün məktəblər, xəstəxanalar və digər qurumlar yaratmışlar. Hər şeylə yaxından tanış olduqları üçün assuri və ermənilərlə həmrəy olduqlarını nümayiş etdirirdilər.

Urmiyanın özündə İslalülmülk həmin ölkələrin konsulluqlarına məktublar yazaraq onların bu hərəkətindən narahat oldu-

[1] Dr.Məhəmməd Əmin Riyahi "Xoy tarixi" (farsca), səh. 495.
[2] "Abdulla Bəhraminin xatirələri" (farsca), səh. 550.

ğunu bildirmiş, ancaq bu etirazların bir nəticəsi olmamışdı. Həmin dövlətlər burada öz bildiyi işlərlə məşğul idilər. Bu arada Urmiya xristianları uzun müddət ruslara arxalanaraq dövlətə qarşı çıxıb, öz qonşuları ilə son dərəcə qəddarlıqla davrandıqları üçün rusların geri çəkilməsi ilə vahiməyə düşmüşdülər.

Həmin qorxuya görə də onlar yenidən kimləfəsə sığınmaq istəyirdilər. Elə buna görə də həmin dövlətlərin məlum planını sevinclə qarşılayıb, müsəlmanlardan intiqam almaq məqsədi ilə möhkəm dayaq tapdıqları üçün sevinirdilər. Bununla da, onlar yeni bir həvəsə düşmüşdülər. Bu isə Urmiya və ətrafdakı əraziləri ələ keçirməklə assuri və erməni xristian dövləti yaratmaq arzusundan ibarət idi. Marşimon və digər xristian başçıları hökmranlıq həvəsinə düşmüşdülər. Əslində bunlarda irançılıq və ya osmançılıq meylləri olmadığından yabancı qüvvələrin əlində oyuncağa çevrilmişdilər”.[1]

Erməni-assuri xristianlarından ibarət təcavüzkar ordunun yaranmasında əsas rol oynayan ingilislərin isə başlıca məqsədi daha çox Almaniya ilə osmanlıların Britaniyanın mühüm müstəmləkəsi sayılan Hindistana qarşı hücumunun qarşısını almaq idi. İngilis zabiti ser Persi Sayks yazır: “Bu zaman Van ermənilərindən, Urmiya assurilərindən və bu məntəqədə dağlıq bölgələri öz nəzarəti altında saxlayan Şəkkak qəbiləsinin rəisindən yardım istəmək fikrinə düşdük. Həmin ərəfədə ermənilərlə gürcülər öz müstəqilliklərini tələb etmək qərarına gəldilər. Paytaxtı Bakı təyin edilən üçüncü bir əyalət də Azərbaycan Respublikası adı altında vücuda gəldi”.[2]

O, daha sonra bu barədə görülən tədbirləri belə şərh edir: “Hər halda bu qonaqlar (cilovlar) Ermənistan və İran erməniləri ilə, habelə Urmiyada yaşayan assurilərlə birləşərək Yəhudi ölkəsini təşkil edən Fələstin yəhudiləri kimi böyük və müstəqil Ermənistan yaratmaq istədilər. İrana qaçıb gələn cilovlar Osmanlı dövlətinin Sarıqamışdakı məğlubiyyətindən

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 712.
[2] Ser Persi Sayks “İran tarixi” (farsca), səh. 616-746.

istifadə edərək, Osmanlı torpağına hücuma keçdilər. Onların şüarı belə idi:

**"Dağlarda savaş üçün qəzəblə irəliləyirik;**

**Bütün ürəklərimiz verimli Neynəva torpaqlarını görmək arzusundadır,**

**Neynəva şəhəri öz oğullarını yardıma tələb edir,**

**Böyük Marşimonun adı ilə döyüş üçün irəliləyirik"**[1]

Ermənilərlə assurilərin müsəlmanlara qarşı təhrik olunmasında yabancı dövlətlər, xüsusilə də İngiltərə böyük rol oynayırdı. "İran tarixi"nin həm də müəllifi olan ingilis zabiti (ser Persi Sayks) yazdığı bu kitabda utanıb çəkinmədən ingilislərin buradakı təxribat xarakterli əməllərini etiraf edir.

Müttəfiqlər Almaniya və Osmanlı dövlətlərinə qarşı Cənubi Azərbaycanın qərbində yaradılmasını nəzərdə tutduqları xristian dövlətinin Qafqaz regionuna yol tapmaq baxımından da çox önəmli strateji əhəmiyyətə malik olacağını başa düşürdülər. Paris Sorbon universitetinin müəllimi Florans Olobliye bu barədə yazır: "Türk-rus münaqişəsində, həmçinin müttəhid və müttəfiq dövlətlər arasındakı münaqişədə Urmiya bölgəsi böyük əhəmiyyətə malik idi. Müharibədən öncə türk və rus strategistləri bunu çox gözəl bilirdilər ki, Qafqazı əhatə etmək üçün çəkişmələrdə son qələbə yalnız Urmiyanı öz nəzarəti altına götürən tərəflərə nəsib olacaqdır..."[2]

---

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 616-746.

[2] İran və 1-ci Dünya müharibəsi (seminardakı məqalələr toplusu) Urmiya gölünün qərbində 1-ci Dünya müharibəsi (farsca), səh. 430.

# XRİSTİAN ORDUSU VƏ ONU HİMAYƏ EDƏNLƏR

Xristian dövlətinin təsisi məqsədilə yaradılan xristian ordusunun əsas qüvvəsini ermənilər və Qərbi Azərbaycanda sığınacaq tapmış assurilər təşkil edirdi. Bunlar uzun illər burada müsəlmanlarla (azərbaycanlılarla - A.M.) bərabər dinc şəraitdə yaşamış, lakin çar Rusiyasının Azərbaycanı işğalından sonra işğalçılarla əməkdaşlıq edərək, yerli müsəlman əhaliyə qarşı fəaliyyətə başlamışdılar. Ə.Kəsrəvi bu barədə yazır: "Görəsən müsəlmanlardan fərqli din və məsləkə malik olmalarına baxmayaraq, yerlilər tərəfindən hər cür mehribanlıq görmüş xristianlar bu ölkədə yerli əhali ilə dinc şəraitdə yaşadıqları halda, niyə bu qədər nankor çıxdılar? Görəsən bunlara nə oldu ki, yabancıların ayağı ölkəyə açılan kimi dərhal onlara qovuşub, onların əmri ilə ələ silah götürərək, günahsız insanların qanını töküb və öz həmvətənləri ilə qarşı-qarşıya durdular?

Bu insanlar ağır cəzaya layiqdirlər. Bu, assurilərlə bağlıdır. Ermənilər isə bu münaqişədə İngiltərə ilə Fransa tərəfinə keçib Daşnaksütyun komitəsi isə gizlində onlarla birləşərək, bir sıra razılaşmalar əldə etmişdilər. Bizim buna iradımız yoxdur. Bizim əsas sözümüz bunların (ermənilərin -A.M.) iranlılara qarşı düşmənçiliyi haqqındadır. Daha doğrusu, söhbət yüzilliklər boyu İranda sülh içində yaşadıqları halda, yabancılarla birlikdə öz həmvətənlərinə qarşı düşmən mövqeyində duranlardan (ermənilərdən - A.M.) gedir![1]

Xristian ordusunun qüvvələrinin bir hissəsini isə Osmanlı torpağından qaçıb Azərbaycanın Qərb əyalətinə köçən assurilər təşkil edirdilər. Əli Dehqan həmin barədə yazır: "I Dünya

---

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 605 və 621.



I sıra sağdan: 1. Hacı Mehdi xan; Ağa Petros.
I sıra sağdan: Soltan Əhməd Qaragözlü; Xan Baba xan;
Qaçaq Oolpaşın; Amerikalı Canəli; Sərdarın qatilini dara çəkən

müharibəsində assuri etniklər əsasən Van və Urmiya gölləri ətrafında yaşayırdılar. Yazılı mənbələrə görə bunların sayı iki yüz min nəfərdən ibarət idi. Bunlardan əlli min nəfəri İran torpağında, qalanları isə Osmanlı hüdudları içərisində yaşayırdılar. Cilov adı ilə tanınan Osmanlı assuriləri Van gölünün cənubunda yaşayır və Soryani kilsəsinə tabe idilər. Bu assurilərin dini rəhbəri Marşimon idi. Marşimon Quçanes kəndində yaşayırdı. Dini rəhbər isə həmişə bir ailədən seçilirdi.

I Dünya müharibəsi başlayandan sonra assurilər də xristian olduqları üçün rus dövlətinin tərəfini himayə edirdilər.

Osmanlı dövləti birinci dəfə kürd döyüşçülərindən ibarət bir dəstəni assurilərlə savaşa göndərdi. Lakin assurilər yaşadıqları ərazilərin möhkəm coğrafi şəraitinə görə kürdlər qarşısında güclü müqavimət göstərdilər. Bunun ardınca osmanlılar öz münəzzəm ordu hissələrini assurilər üzərinə yeritmək məcburiyyətində qaldılar. Nəticədə isə assurilərin bir çoxu kürdlər və Osmanlı əsgərləri tərəfindən öldürülüb, qalanları isə öz arvad-uşaqları ilə birlikdə İran sərhədinə doğru qaçmağa başladılar. Assurilər İrana doğru hərəkət edərkən, özlərinin dini rəhbəri Benyamin Marşimonu da ailəsi ilə bərabər mövcud təhlükədən qurtarıb, Salmas sərhəd məntəqəsi yolu ilə İran torpağına daxil oldular. Assurilərin iyirmi beş min nəfərdən ibarət olan ilk qrupu 1915-ci ilin sentyabr (günəş ili 1294-cü ilin şəhrivər ayında) ayında Salmasa daxil oldular. Bu zaman Qərbi Azərbaycan (Güney Azərbaycanın qərb əyaləti - A.M.) rusların işğalında olduğu üçün ruslar cilovların buraya gəlişini məmnunluqla qarşıladılar. Bu arada iranlılar da cilovların buraya pənah gətirməsinə qarşı çıxmadılar.

Beləliklə də, cilovların bir hissəsi assurilərin toplu halda yaşadıqları Urmiya şəhərinə doğru hərəkət edib, burada və ətrafdakı bəzi assuri kəndlərində məskunlaşdılar.

Həmin vaxtda iranlılar (Güney azərbaycanlılar - A.M.) özləri ən çətin şəraitdə yaşadıqları halda yenicə yoldan çatmış ac-yalavac cilovları qonaqpərvərliklə qarşılayıb, onlara




Qaçaq ermənilərin "Giri" adı ilə
tanınan başçılarından biri - Arşak

yemək və çoxlu geyim verdilər. Hətta Urmiya kargüzarlığının raportuna görə İran dövləti ilə Xarici İşlər Nazirliyi 1917-ci ilini qışında cilovlara yardım məqsədilə Tehranda Tumanyans ticarətxanasında bir yardım komitəsi də yaradıb, əhaliyə müraciət də etdilər ki, onlara qışın soyuğundan qorunmaları üçün kömək etsinlər, lakin bütün bunlara baxmayaraq, onların bu işdən əsl məqsədi başqa imiş”.[1]

Kəsrəvi də həmin barədə yazır: “Beləliklə də, böyük sayda xristian əhalisi Salmas və Urmiyada bir araya gəldilər. İrəlidə bunların xristian dövlətlərinin və Amerika ilə Fransanın bədxah missionerlərinin əlində necə bir oyuncağa çevrilməsini və necə cinayətlərə qol qoyduqlarının şahidi olacağıq”.[2]

Osmanlı torpağından İrana mühacirət etmiş cilovlardan başqa bir qrup mühacir də Rusiya imperiyasından keçərək, Güney Azərbaycanın qərb torpaqlarına gəlmişdilər. Bunlar isə “qaçaq erməni” adı ilə tanınırdılar. Ə.Kavyanpur yazır: “Xristianların burada (Cənubi Azərbaycanın qərbində - A.M.) hakim mövqedə olması xəbərini eşidən Qafqaz xristianları, var-dövlət əldə etmək üçün Rusiyadan qaçıb Urmiyadakı xristian mühacirlərə qoşuldular. Qafqazdan buraya gəlmiş erməni quldur dəstələrinin başında Artuş, Yequrt, Hambarsun, Dayçuk, Petros, Bağdasar, Sumbat və digər quldur başçılar dururdu. Bu quldur dəstələrinin işi gecələr bəzi varlı kəndlilərin evlərinə basqın etmək, tapançanı ev yiyəsinin başına dirəyib pul, qızıl, at və silah tələb etməkdən ibarət idi. Bunlar basqın zamanı deyirdilər ki, müsəlmanların evində möhürü, təsbehi və səccadəsi olsa onlara (müsəlmanlara) kifayət edər. Qalan əşyalar isə artıqdır və bizə təhvil verməlisiniz”.[3]

Həmin dövrlərdə özü şəxsən Urmiya olaylarının şahidi olan Əli Dehqan yazır: “Qeyd etdiyimiz kimi, I Dünya müharibəsinin ortalarında qırx min cilov osmanlı torpağından,

---

[1] Əli Dehqan “Zərdüşt diyarı Urmiya” (farsca), səh. 471.
[2] Əhməd Kavyanpur “Urmiya tarixi” (farsca), səh. 121.
[3] Yenə orada, səh. 121.



آثوریها و مشوّقین آنها

"Təcəddüd" qəzetinin birinci səhifəsində
assurilərlə bağlı bir yazı

"qaçaq erməni" adlandırılan bir qrup erməni isə Qafqazdan Qərbi Azərbaycana, xüsusilə də Urmiya şəhərinə gəlmişdilər. Şəhərin yerli xristianlarını müsəlmanlara qarşı müharibəyə təşviq edən də elə həmin çağrılmamış qonaqlar idi.

Bunların özünü isə amerikan və fransız missionerləri, habelə ingilis və rus zabitləri yetişdirir, ruslardan qalma silahları onların arasında bölüşdürürdülər. Elə buna görə də müsəlmanlarla müqayisədə xristianlar silahlanaraq hazır vəziyyətə gətirilmişdilər. Xarici zabitlər öz dövlətlərinin himayəsini xristianlara nümayiş etdirir, onlardakı əhval-ruhiyyəni qaldırırdılar.

Xristian başçılarından birinci növbədə assurilərin (cilovların) dini rəhbəri Marşimonun adını çəkmək lazımdır. Bu şəxs dini rəhbər olmaqla yanaşı, assuri döyüşçülərinə də başçılıq edirdi. Belə ki, bütün assurilər onun əmrinə itaət edirdilər.

Urmiyada fəaliyyət göstərən xaricilərdən biri də rus konsulu Nikitin idi. Bu şəxs şəhərin bütün xristian təbəqələri içində nüfuza malik idi və demək olar ki, Urmiyada baş verən bütün olayların ipinin ucu onun əlində idi. Silahlı xristianları təşkilatlandıran, Qərbi Azərbaycan xristianlarını silahlandıran və rus zabitləri vasitəsilə onlara hərbi təlim keçirən də elə həmin şəxs idi.

Xarici missionerlərdən də ilk növbədə mister Şeddin adını çəkmək lazımdır. Bu şəxs Amerikanın Urmiyada fəaliyyət göstərən missionerlərinin başçısı idi. Mister Şedd bununla bərabər Amerika konsulluğundakı cari işlərlə də məşğul olurdu. Şedd xristianları hərbi sursatla təmin edən və onları müsəlmanlarla üz-üzə qoyan xristian başçılarından biri idi.

Amerikan missionerləri içərisində öz insani keyfiyyətlərinə görə hörmətlə anılan Dr. Pakard adlı birisi də var idi. O, həmişə xristian, yaxud müsəlman olmasından asılı olmayaraq, hər hansı bir qırğının qarşısını almağa çalışırdı. O, Urmiyada amerikan xəstəxanasının müdiri idi. O, həm də xəstələrin müalicə olunmasına və yoluxucu xəstəliklərin yayılmasının qarşısını almağa cəhd göstərir, böyük əmək sərf edirdi.




Qərb polisinin təşəbbüskar agentlərindən birinin məktubu

Roma Papasının Urmiyadakı nümayəndəsi alicənab Emil Sentak idi. Bu şəxs də xristianlarla müsəlmanlar arasında baş verən qırğınların qarşısını almaq üçün cəhd göstərir və xristianların çirkin əməllərinə qarşı çıxırdı.

Müsəlmanların qırılmasında birbaşa rolu olan xristian başçılarından biri də Petros ağa adlı bir şəxs idi. Rus konsulu Nikitinin yazdığına görə Rusiyanın Urmiyadakı konsulluğunun attaşesi olan və əslən nəsturi (xristianlığın bir qolu, təbii məzhəb - A.M.) məzhəb olan Petros ağa həmişə hərbi geyimdə olar, başına isə Rusiya xarici işlər nazirliyinin kasketini qoyardı. O, aktivist xristian başçılarından biri idi. Müsəlmanların məğlubiyyətindən sonra Urmiya şəhərinin idarəsi həmin şəxsin əlinə keçdi.

Petros ağadan əlavə Məlik Xuşabə və Mirzə ağa adlı iki assuri başçısı da müsəlmanlara qarşı hərbi əməliyyatların həyata keçirilməsində böyük rol oynayırdılar.

Bunlardan başqa fransız missionerlərinin də mərkəzi Minarə məscidinin böyründə və Haşımovlar evinin yanında yerləşirdi. Bunlar da xristianlara yardım göstərirdilər. Fransızlar müharibənin sonlarında Urmiyada bir xəstəxana tikdilər və rus konsulu Nikitinin yazdığına görə bu şəhərə bir ambulans da göndərdilər. Həmin xəstəxananın rəisi müsyö Kojel idi. Bunlar da 1918-ci ilin axırlarına qədər Urmiyada fəaliyyət göstərirdilər, lakin osmanlıların gəlişindən öncə bu şəhəri tərk etdilər".

"Silahlı xristian ordusunun dini-siyasi rəhbəri Benyamin Marşimon idi. Xristian ordusunun komandanı isə macəraçı və şübhəli bir şəxs kimi tanınan Petros ağa idi. O olmayanda isə həyat yoldaşı Zərifə xanım (Marşimonun bacısı) onun vəzifəsini yerinə yetirirdi".[1]

Ə.Kəsrəvi xristian qüvvələrinin sayı və hərbi sursatı haqqında yazır: "Osmanlı torpağından Marşimonla bərabər 12 min cilov ailəsi gəlmişdi. Urmiya, Salmas və Sulduzun

---

[1] Dr. Məhəmməd Əmin Riyahi "Xoy tarixi" (farsca), səh. 499.

özündə isə 20 min erməni və assuri ailəsi yaşayırdı. Bunlar da onlara (cilovlara - A.M.) qoşulmuşdular.

Bunlardan əlavə 5-6 min erməni də İrəvan, Van və Naxçıvandan qaçaraq gəlib bunlara qoşulmuşdular. Bu böyük rəqəmi təşkil edən xristian erməni və assuri birləşərək, müəyyən məqsədlə bir-biri ilə əməkdaşlıq edirdilər. Bunların 20 min nəfəri hərbi təlim görmüş peşəkar hərbçilər idi. Rus hərbçilərindən isə 800 nəfər Rusiyaya qayıtmadan, burada qalıb 72 fransız hərbçisi ilə onlara dəstək verirdilər. Silahları isə 25 topdan və 160 mərmidən ibarət idi. Bunların arxasında isə rus konsulu Nikitin, amerikan konsulu Şedd və fransız xəstəxanasının rəisi Kojel durur və yol göstərirdilər. Marşimonun ölümündən sonra Petros ağa hərblə bağlı işlərə başçılıq edir, Məlik Xuşabə isə digər mühüm işlərlə məşğul olurdu. Belə böyük qüvvənin qarşısında görəsən nə etmək olardı?".[1]

---

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 735.

# URMİYADA SOYQIRIMIN BAŞLANMASI

Xristian ordusunun təşkilindən sonra ermənilərlə assurilər öz mövqelərini möhkəmləndirmək üçün müxtəlif bəhanələrlə müsəlmanlarla qarşıdurmaya və müsəlman qırğınının başlanmasına cəhd göstərirdilər. Ə.Dehqan yazır: "1916-cı ilin fevralında xristianlar öz təşkilatlanma işlərini təkmilləşdirdikdən sonra onların yerli müsəlman əhaliyə qarşı zorakılığı da artmağa başladı. Onlar hər gün kənd və qəsəbələri qarət edir, əhalini qırır, Xoy şəhərində isə əhalinin mal və namusuna təcavüz edirdilər.

Belə ki, həmin ərəfədə cilovlardan bir nəfər iki müsəlman və yəhudini bazarda öldürür və bunun ardınca cilovlar yenə quduzlaşaraq, fevralın 17-də küçədə və bazarda günahsız insanların yolunu kəsir, onları soyaraq pul və silah tələb edirlər. Cilovların bu vəhşi əməllərindən boğaza yığılan mülki vətəndaşlar üsyana başlayırlar. Lakin şəhər hakimi İclalülmülk üsyanın qarşısını alaraq insanları sakit olmağa çağırır.

Fevralın 20-də şəhər polis məmurları ilə cilovlar və digər assuri quldurlar arasında qarşıdurma yaranır. Nəticədə cilovlardan bir nəfər öldürülür, qalan quldurlar isə döyüş səhnəsindən qaçaraq, dörd günahsız insanı qətlə yetirirlər.

1916-cı il aprelin 21-də İclalülmülk xristian başçılarını yerli hökumət idarəsinə dəvət edir. Fransızların xəstəxanasının rəisi müsyö Kojel ilə Roma Papasının nümayəndəsi Monsniyuz Suntaq da həmin iclasda iştirak edib, baş verən olayları müzakirə edirlər. İclas gedərkən bir qrup kəndli hökumət idarəsinin qarşısında toplaşaraq, cilovların vəhşiliyindən şikayət edir, şəhər ətrafındakı kəndlərdə onların kəndlilərə



Doktor Şedd və bir qrup köçkün. 1918-ci il

qarşı soyğunçuluğundan və günahsız insanları qətlə yetirmələrindən gileylənirdilər.

Yerli hökumət iclasında iştirak edən şəxslər baş vermiş hadisələrdən narahat olduqlarını bildirib, qərara aldılar ki, bir qrup qaradağlı və assuri atlısı şəhərin həndəvərinə gedib quldurların qarşısını alsınlar. Həmin gün şəhərdən kənar məntəqələrdə 100-ə yaxın müsəlman cilovların əli ilə qətlə yetirilirlər. Cəsədlər yerdə qaldığı üçün xristianlardan tələb olunur ki, ölənlərin meyitini yerdən götürüb, dəfn etmək üçün müsəlmanlara bir qrup köməkçi göndərsinlər. Lakin bütün bu müraciətlər nəticəsiz qalır.

1918-ci il fevralın 22-də Urmiyadan olan iki igid insan - Qardaş və Dadaş belə qərara gəlirlər ki, özləri gedib ölənlərin meyitlərini şəhərə gətirsinlər. Lakin bu iki şəxs axşam günbatanda şəhərdən çıxarkən, Hezaran darvazasının yaxınlığında cilovların bir qrupuna rast gəlirlər. Qarşıdurma əmələ gəlir. Cilovlardan bir nəfər bir güllə atan kimi şəhərdəki xristianlar da harada olmalarına baxmayaraq, atəş açmağa başlayırlar.

Bəlli olur ki, onlar qabaqcadan bu iyrənc planı cızmış və öz aralarında belə qərara gəlmişdilər ki, atəş açılan kimi müharibəni başlasınlar.

Həmin günün axşamı müharibə başlandı. Müharibəyə başlandığı andan xristianların yaşadığı məhəllələrin sakinləri öz ev-eşiyini tərk edib, başqa məhəllələrdəki qohum-əqrəbalarının evlərinə pənah apardılar. Beləliklə də, şəhərin bütün məntəqələrində qarşı tərəflər arasında amansız müharibə başlandı.

Xristianlar yaxşı təlim görmüş komandirlərə malik idilər. Lakin müsəlmanların nə kifayət qədər silahı vardı, nə də ki, ağıllı bir rəhbəri. Elə buna görə də silahı olan hər bir şəxs vahid bir plan olmadığından yalnız özünü müdafiə etmək üçün kor-koranə şəkildə hara gəldi atəş açırdı.

Bunun sabahısı gün gecə vaxtı döyüşlərin səngiməsinə baxmayaraq, cilovlarla qaçaq ermənilər birlikdə şəhərin yüzlərlə müdafiəsiz evinə basqın edərək, evlərdəki əşyaları qarət



Urmiyada əhalinin kütləvi qətlindən sonra insan cəsədləri 3 gün küçələrdə və evlərdə qaldı. Sonra onları Hacıxan Məscidi qəbirsanlığında ümumi məzarda dəfn etdilər. Fotoşəkildə dəfn şəraiti əks olunub

etməklə yanaşı, qarşılarına çıxan hər bir kəsi qətlə yetirdilər. Cinayətkar erməni-assuri qruplaşmaları tərəfindən həyata keçirilən bu hücumlar nəticəsində bir çox ev yandırıldı. Məhz həmin qarət və qırğınlardan sonra müsəlmanlar başa düşdülər ki, bu cinayətkar soyğunçular qarşısında öz güc və qüvvələrini səfərbər etməli və var gücləri ilə onlara qarşı mübarizə aparmalıdılar.

Mart ayının iyirmi dördü şənbə günü səhərdən müharibə yenidən başlandı. Müsəlmanlar var qüvvələri ilə özlərini müdafiə edir, öz namuslarını qorumağa çalışırdılar. Lakin şəhərin xristianlar tərəfindən topa tutulması müsəlmanlar üçün gözlənilməz olduğuna görə onların əhval-ruhiyyəsini zəiflədir. Müsəlmanlar xristianların topa malik olmasından xəbərsiz idilər. Beləliklə də, ətraf dağlardan şəhərin müsəlman məhəllələrinin topa tutulması müsəlman əhalisində ruh düşkünlüyü yaratdı.

Döyüşlərin başlanğıcında müsəlmanlar çox hazırlıqlı müdafiəyə başlamışdılar. Silahı olan hər bir kəs öz evinin damında səngər düzəldərək, qaçaq ermənilərlə cilovların müsəlman məhəllələrinə girib evlərin talamasının qarşısını almağa çalışırdılar. Müharibənin başlanmasından bir gün yarım keçirdi. Lakin hər şey birdən-birə dəyişilməyə başladı. Şəhərin ermənilər tərəfindən topa tutulması ilə qaradağlı atlılarının qaçması, qarnizonun ləğvi, əsgərlərin öldürülməsi və nəhayət hərbi sursatın ermənilərin əlinə keçməsi müsəlmanların əhval-ruhiyyəsinə böyük zərbə vurdu...

Müharibənin ikinci günü günortadan sonra şəhərin bir qrup ruhanisi ilə bəzi ağsaqqalları hərbi komissiya yaradıb, döyüşçüləri səfərbər etmək əvəzinə savaşa son qoymaq qərarına gəldilər. Onlar kollektiv şəkildə assurilərin dini rəhbəri Marşimonun (müsəlmanlara qarşı müharibəni qızışdıranlardan biri elə həmin şəxsin idi) qaldığı yerə gedərək onunla müzakirə edib, qanlı döyüşlərə xitam verilməsini tələb etdilər.

Həmin görüşdə Marşimon müsəlmanların zəif mövqeyinə və onların ruh düşgünlüyünə bir daha əmin olur. Düşünür ki,



İsmayıl ağa Simitqo və çar Rusiyasının konsulu (Nikitin) Urmiyada

son qələbə xristianlarındır. Elə buna görə də müharibənin qurtarması ilə bağlı heç bir müsbət tədbir görmədən görüşə gələnləri boş və yalan vədlərlə aldadıb yola salır. Bunlar isə sadəlövhcəsinə gəlib başqalarına deyirlər ki, döyüşməyin, sülh və barışıq üçün zəmin yaranmışdır və bununla bağlı iş gedir.

Ertəsi günü səhər müharibə yenidən başlandı. Halbuki hər şeydən xəbərsiz olan qarabəxt müsəlmanlar sadəlövhcəsinə sülh və barışıq olacağını düşünürdülər. Müsəlmanlar bu boş arzu ilə könüllərini xoş elədiyi bir halda, ermənilərlə cilovlar insanları qırır, ev-eşikləri yağmalayırdılar. Həmin günün qırğınında 10 minə yaxın günahsız arvad-uşaq həlak oldu. Xristianlar sübh tezdən müsəlman əhalini qətliama başlamış və qıra-qıra gedirdilər.

Lakin axşamçağı mister Şeddin əmri ilə əhalinin qırğını dayandırılsa da, evlərin və mağazaların qarət edilməsi hələ də davam edir, buna qarşı çıxanlar isə yerindəcə öldürülürdü...

Urmiyada qırılanların əksəriyyətini günahsız arvad-uşaq və hətta südəmər körpələr təşkil edirdi. Ölənlərin meyiti uzun müddət yerdə qalmışdı və onları yerdən götürüb dəfn etməyə kimsə cəsarət etmirdi. Urmiyada az ailə tapmaq olardı ki, onun bir-iki üzvü həmin gün cilovların əli ilə öldürülməsin".[1]

Bu ağır və çətin günlərdə Urmiya əhalisinə nə Tehrandan bir kömək gəldi, nə də ki, Təbrizdə oturan Azərbaycan hakimi və vəliəhd Məhəmməd Həsən Mirzədən. Həmin dövrdə Cənubi Azərbaycanın polis rəisi vəzifəsində işləyən Abdulla Bəhrami yazır:"O zaman demək olar ki, bu kimi problemlərə fikir verən hökumət yox idi. Vəliəhd Məhəmməd Həsən Mirzə gənc və təcrübəsiz idi. O, yalnız əyyaşlıqla məşğul olurdu, əmisi Əzdülsəltənə isə qoşun başçısı ola-ola evdə oturub vaxtını öz dostları ilə kart oynamaqla keçirirdi" [2].

Həmin ildə Təbriz əhalisi böyük qıtlığa düçar olduğu halda bu faciənin xəbərini eşidən kimi dərindən sarsıldı.

---

[1] Ə.Dehqan "Zərdüşt diyarı Urmiya" (farsca), səh. 499.
[2] A.Bəhrami "Xatirələr" (farsca), səh. 551.



آثوریها و جلوها

“Assurilər və cilovlar” adlı məqalə

Kəsrəvi yazır: "Xristianlar Urmiyada hərəkətə keçib üç günlük müharibələrə başladıqları vaxtda Təbriz ilə Urmiya arasındakı telefon və teleqraf simləri tamamilə kəsilmişdi (bunun xristianlar tərəfindən kəsildiyi güman edilir), elə buna görə də hadisələrlə bağlı xəbərlər vaxtında Təbrizə gəlib çatmadı. Lakin yalnız neçə gündən sonra Urmiyadan qaçıb Təbrizə gəlmiş bir neçə adamın olayları danışmasından sonra əhali orada baş verənlərdən xəbərdar olur, Təbrizdən isə bu xəbər Tehrana çatdırılır.

Lakin qeyd etdiyimiz kimi Təbrizdə qıtlıq və aclıq ucbatından əhalinin başı öz problemlərinə qarışmışdı. Ancaq bütün bunlara baxmayaraq xəbər yayılan kimi "Təcəddüd" və "Təlie-yi səadət" qəzetləri Urmiya hadisələri ilə bağlı yazılar dərc etdikdən sonra əhali silkələnib çarə axtarmağa başladı. Əvvəl vali və Məhəmməd Həsən Mirzəyə üz tutub kömək istədilər. Lakin onlardan laqeydlikdən başqa bir şey görmədilər.

Bu arada Urmiya əhalisi də böyük qruplarda valinin sarayına gedib bu işə bir çarə tapılmasını tələb edirdilər. Amma onların da bu təşəbbüsü nəticə vermirdi. Bunlardan başqa Şərəfxana macərası da nigarançılıq doğuran problemlərdən biri idi. Assurilərin oraya gəlib hərbi sursatı və Şərəfxana limanını öz əllərinə keçirmələri barədəki gümanlar böyük xof və qorxuya səbəb olmuşdu. Məhz bütün bunları nəzərə alaraq demokratlar özləri işə qarışıb bir qrup silahlı atlını könüllülərlə birlikdə oraya göndərdilər. Onlar böyük zəhmət və fədakarlıq sayəsində səfərbər etdikləri neçə yüz nəfərin sayəsində həm Şərəfxananı qoruyub saxlaya bildilər, həm buradakı silah və hərbi sursatı Təbrizə göndərdilər, həm də Çöhrəqana qədər irəliləyib assurilər qarşısında səngər yarada bildilər.

Onların bu işi çox faydalı idi. Çünki vali də əhalinin təzyiqi nəticəsində bəzi cəhdlərdə bulundu. Belə ki, Şüca Nizam və Haci Musa xanın başçılığı ilə bir qrup atlını Mərənddən Salmasa göndərdi ki, onlar da o tərəfdən assurilərin qarşısında

dayansınlar. Bunlar isə Dilməqan şəhərində, ayrı-ayrı kənd və qəsəbələrdə səngər bağladılar"[1].

Kəsrəvinin qeyd etdiyi kimi, Şeyx Məhəmməd Xiyabaninin orqanı sayılan "Təcəddüd" qəzeti o qəmli günlərin faciələri barədə bir sıra yazı dərc etmişdir. Həmin qəzetin 17 fevral - 2 mart 1918-ci tarixli nömrələrində dərc olunmuş "Assurilər və cilovlar" adlı məqalədə Urmiyada baş vermiş üç günlük qanlı münaqişələrdən 6 gün sonra yazırdılar: **"Oxucularımıza söz vermişdik ki, Urmiyadakı qanlı faciələr barədə tədqiqat aparıb ictimaiyyətə çatdıraq. Böyük təəssüflə bildirməliyik ki, əldə etdiyimiz məlumatlara görə (istər məktub vasitəsilə, istər rəsmi və qeyri-rəsmi raportlara əsasən, istərsə də Urmiyadan gələn müsafirlərin dediyinə görə) Urmiya və ətrafındakı kənd və qəsəbələrdə çox böyük və acınacaqlı faciələr baş vermişdir... Alınan xəbərlərə görə silahlı assurilər müxtəlif bəhanələrlə Urmiya bazarında dinc vətəndaşların üzərinə atəş açıb, qarşıdurmalara səbəb olmuşlar.**

**Polis məmurları qarşıdurmaya son qoymaq istəsələr də assurilər silahdan atəş açaraq, iki mülki vətəndaşı öldürüblər. Bir neçə əsgər assurilərin qarşısını almaq istərkən assurilər bunları da öldürüblər. Həmişə bu qarşıdurmaya bəhanə axtaran assurilər daha sonra əhalinin yaşadığı evləri, habelə karvansaraları hədəf alaraq atəşə tutublar. Nəticədə isə bir çox günahsız dinc vətəndaş həlak olmuşdur...**

**Urmiyadan gələn bir müsafir deyir ki, o, yolda üç yüzdən artıq vətəndaşın (azərbaycanlının - A.M.) meyitini öz gözü ilə görmüşdür. Zənn etmirik ki, oxucularımızın heç birində bu cinayətləri soyuqqanlılıqla oturub müşahidə etməyə və eşitməyə səbir və dözüm qalmış ola. Hamının səbir kasası daşmışdır. Təsəvvürə gəlməyən bu təcavüzlərə son qoymaq lazımdır. Çünki heç bir qeyrətli**

[1] Ə.Kəsrəvi "Azərbaycanın on səkkiz illik tarixi", səh. 734.

**iranlı qiyamət gününə qədər oturub, öz qardaşlarının qətliamının şahidi ola bilməz...**

**İran məmləkətinin qəti ölümdən qurtarıb, onlara öz qoynunda yer verdiyi bir ovuc xristian qruplaşması olan assurilər, yaxud da ki, cilovlar ərsəni bu torpağın övladlarına daraltmamalı, onlara qarşı öz ürəklərində xəyanətkar arzular bəsləməməlidirlər. Onlar öz həddini aşmamalıdırlar. Onlar vicdansız İngiltərə ilə Fransanın hiylələrinə alət olmamalıdırlar. Bir ovuc bədbəxt və avara assuri və ya cilovun qanı, İngiltərə ilə Fransanın siyasi vicdanının qanlı səhifəsində o qədər də qiymətli sayılmayacaqdır.**

**Əgər İngiltərə ilə Fransa bilsə ki, yüz min assurini qurban verməklə yüz min dinar qazanc əldə edəcəklər, şübhə etməyin ki, həmin yolu seçəcək və bir qrup şüursuz nəsrani, assuri və ya cilovu öz mənafeləri uğrunda qurban verəcəklər.**

**Assurilər ayıq olmalı və özlərini qaniçən ingilis siyasətinin oyuncağına çevirməməlidirlər. Assurilər keçmişdən ibrət dərsi almalı və bu qədər ağır təcrübələrdən sonra bilməlidilər ki, xaricilərin təşviqatı ilə oyuna girmək və onların sözü ilə oturub durmaq, onları (assuriləri) məhvə və uçuruma doğru aparıb çıxaracaqdır. Lakin nə etmək olar? Əfsus ki, assurilər cahildirlər...".**[1]

Ə.Dehqan Urmiyadakı üç günlük qırğından sonra şəhərin durumunu belə təsvir edir: "Şəhər hakimiyyəti xristianların əlinə keçdiyi gündən sonra ötən bir ay ərzində çox acınacaqlı olaylar baş verdi. Müsəlman kəndləri qarət olunaraq, əhalidən boşaldıldı. Sanki buralarda heç vaxt həyat izləri olmamış kimi qəbiristanlıq sükutu hər yerə hakim oldu. Kənd qaçqınlarının sığındığı əsas yerlər şəhərdəki küçələr və məscidlər idi.

Cilovlar çeşidli bəhanələrlə müsəlmanların (azərbaycanlıların - A.M.) evlərinə basqın edir, istədikləri ev əşyasını özləri ilə aparırdılar. Onların bu əməlinə etiraz edən və

[1] "Təcəddüd" qəzeti, 17 fevral - 2 mart, 1918.

müqavimət göstərən ev yiyəsini isə yerindəcə öldürürdülər. İnsanları ölümə sürükləyən faciələrdən biri də hər yerdə hökm sürən qıtlıq və aclıq idi.

Bu iyirmi neçə gündə gecələr doğrudan da, qiyamət məhşərinə çevrilirdi. Qaranlıq düşən kimi şəhərin bir çox məhəllələrindən nalə səsləri eşidilməyə başlayırdı. Evləri cilovların hücumuna məruz qalmış insanlar, evlərinin damına çıxaraq uca səslə qışqırır, əhalidən yardım tələb edirdilər. Lakin heç kəs öz evindən çölə çıxmağa cəsarət etmirdi. Qulaqları isə xalqın nalə və əfqanına öyrəşmiş dövlət məmurları adamların ürəkyandırıcı fəryadı qarşısında laqeydlik göstərirdilər. Soyğunçu cilovlar tam sərbəst şəkildə istədikləri evə girir, insanları öldürür, lazım olan əşyaları götürür, evi isə yandırırdılar.

İki dəfə ruslar tərəfindən yağmalanıb yandırılan bazar isə hələ öz normal vəziyyətinə qayıtmadan yenidən cilovlar tərəfindən qarət edildi.[1]

[1] Ə.Dehqan "Zərdüşt diyarı Urmiya" (farsca), səh. 508.

# SİMİTQONUN ƏLİ İLƏ MARŞİMONUN ÖLDÜRÜLMƏSİ

Güney Azərbaycanın qərbi hissəsində məskunlaşmış kürdlərdən olan İsmayıl ağa Simitqo, qardaşı Azərbaycan valisi Nizamüssəltənin əmri ilə Təbrizdə qətlə yetirildikdən sonra özünün Şəkkak adlanan tayfası ilə gah dövlət ilə əməkdaşlıq edir, gah da dövlətə qarşı çıxırdı. O, ruslar Azərbaycanda ikən onlara yaxınlaşırdı. O, daha sonra osmanlılara qoşuldu. Ruslar gedərkən, xeyli miqdarda silah və hərbi sursat əldə edərək, öz qüvvələrini gücləndirməyə çalışdı.

Xristianlar öz silahlı ordusunu yaradıb Urmiyanı ələ keçirib saysız-hesabsız qırğınlar törətdikdən sonra burada öz xristian dövlətlərini yaratmaq qərarına gəlmişdilər. Bu məqsəd uğrunda birgə fəaliyyət aparan erməni-assuri cinayətkar birləşmələri özlərinin sayca az olduqlarını nəzərə alaraq, kürdləri də öz sıralarına qatmağı qərara aldılar. Bunun üçün də onlar İsmayıl ağa Simitqo ilə danışıqlara başladılar.

Xristianlar iki-üç gün kütləvi qırğın nəticəsində Urmiya kimi böyük bir şəhəri ələ keçirdikdən sonra Marşimon bir qrup cilovla Salmasa doğru yola düşdü. Xristian ruhanisi üzdə belə göstərmək istəyirdi ki, guya o, bu qırğınlardan narazı olduğu üçün özünü kənara çəkmək istəyir. Lakin batində isə onun bu səfərdən məqsədi Salması ələ keçirmək, Simitqo ilə görüşüb danışmaq və onu öz tərəfinə çəkmək idi.

O, Xosrovabad adlı assuri kəndinə gəlib çatdıqdan sonra Simitqo ilə belə razılaşırlar ki, ikisi də 1918-ci il mart ayının 15-də axşam çağı Köhnəşəhərdə bir-biri ilə görüşüb danışsınlar. Marşimon özünün 140 nəfər silahlı atlısı ilə təyin



Xristian rühanilərinin rəhbəri və
Simitqonun əli ilə öldürülmüş Marşimon

edilmiş görüş yerinə gəlib çıxır. Simitqo isə özünün bir neçə seçilmiş atlısı ilə müşayiət olunaraq gəlir. Lakin o, Marşimonun həyatına qəsd etmək niyyətində olduğu üçün həm də öz döyüşçülərinə tapşırır ki, bir qrup silahlı atlı da onun ardınca gəlib, onun Marşimonla oturub müzakirə etdikləri evi mühasirəyə alsınlar.

"Deyildiyinə görə İsmayıl ağa ilə Marşimon qonaq otağında ikən Marşimonun qardaşı Davud onu otaqdan çölə çağırıb bildirir ki, İsmayıl ağanın adamları evi mühasirəyə alıblar. Lakin Marşimon buna əhəmiyyət vermir, Davud isə iki barmağı ilə ona eyham vuraraq "səni görüm kor olasan" deyib, özü isə Köhnəşəhəri tərk edir.[1]

Kəsvəri isə bu barədə yazır: "İki rəhbər oturduqdan sonra Marşimon söhbətə başlayır. Biz əlbəttə, onların bütün danışıqlarını bilmirik. Yalnız Simitqonun öz dilindən çıxanları burada veririk. Marşimon ona deyib ki, bu gün Kürdüstan adlandırılan torpaqlar vaxtilə bizim hamımızın vətəni olub. Lakin dini ayrılıq bizi bir-birimizdən ayırmış və bu günə salmışdır. İndi biz yenidən birləşib, bu əraziləri öz əlimizə almalı və birlikdə yaşamalıyıq. Biz ordu yaratmışıq, lakin atlılarımızın sayı azdır. Əgər siz də bizə qoşulsanız silahlı qüvvələrimizin sayı artar, onda gedib Təbrizi də ələ keçirə bilərik".

Bu arada otaqda danışıqlar gedərkən, Şəkkak atlıları gəlib damlarda öz mövqelərini bərkitmişdilər. Marşimon öz sözünü qurtarır. Simitqo isə onunla əməkdaşlıq edəcəyi barədə söz verir. Marşimon durub getmək istəyir. Simitqo onu gülərüzlə yola salmaq üçün ayağa qalxır. Onların oturub danışdıqları otağın pəncərəsi həyət qapısı ilə üzbəüz olduğuna görə qapıda Marşimon üçün saxlanılan faytonu görmək mümkün imiş.

Marşimon qapıdan çıxıb faytona minmək istərkən, birdən-birə Simitqonun tüfənginin səsi sükutu pozur. Güllə arxadan Marşimona dəyən kimi o, yerə sərilir. Simitqonun

---

[1] Tohid Məlikzadə Dilməqani "Azərbaycan tarix və mədəniyyətinin gəlişməsində Salmas" (farsca), səh. 186.



İsmayıl ağa Simitqo. qəməri təqvimi ilə
1331-ci il, Çəhriq qəsrində

tüfənginin səsini eşidən kimi şəkkaklar da damlardan atəş açmağa başlayıb, öz atları yanında sıra ilə duran assuriləri birbəbir yerə sərirlər. Deyilənlərə görə yalnız bir-iki nəfər qaçmağa müvəffəq olur. Simitqonun gülləsi ilə yerə düşən Marşimon can üstəymiş. Simitqonun qardaşı Əli ağa yaxınlaşıb, daha bir güllə ilə onun həyatına son qoyur.

Simitqonun özü bu macəranı danışarkən demişdir: "Marşimon məni görüşə dəvət etdikdən sonra mən onu öldürmək niyyəti ilə görüşə getdim. Amma niyyətimi qardaşım Əli ağadan başqa heç kimə demədim. Marşimon məndən şübhələnməsin deyə yalnız bir neçə nəfəri öz yanımda apardım. Qalan adamlarıma isə əmr etdim ki, yavaş-yavaş dalımca gəlib, hərəsi bir yerdə pusquda dursunlar və yalnız mənim tüfəngimin səsini eşitdikdən sonra onlar da atəş açsınlar. - Simitqo daha sonra deyirmiş ki, mən dəfələrlə Tiflisdə teatra və kinoya gedib çoxlu tamaşalara baxmışam. Lakin onların heç biri mənim atəşimin işarəsi ilə 140 nəfər assuri atlısının torpağa sərilməsi qədər mənə ləzzət verməmişdi."

İsmayıl ağa Simitqo həmişə dönə-dönə bu macəranı danışır və ondan gileylənirmiş ki, iranlılar onun bu işinə lazımi qiyməti verməmişlər. Ancaq Simitqonun bu əməli əslində düşünülməmiş bir hərəkət idi. Çünki Marşimonun qətlə yetirilməsi on mindən artıq insanın, xüsusilə də günahsız qadınların qətlə yetirilməsi ilə nəticələndi.

Həmin günün axşamı İsmayıl ağa Çehriqdəki öz evinə qayıdır. Digər tərəfdən öz dini rəhbərlərinin ölüm xəbərini eşidən assurilər ona könüldən bağlı olduqları üçün son dərəcədə qəzəbləndilər. Assurilər həmin gecə Köhnəşəhər ermənilərinin birinin bələdçiliyi ilə şəhərə gəlib Marşimonun meyitini tapıb özləri ilə aparırlar. Onlar şəhərdən çıxarkən, çoxlu dinc əhalini öldürüb, hər tərəfdə yanğın törədib gedirlər.[1]

Marşimonun qətlə yetirilməsinin sabahısı günü assurilər Köhnəşəhərə hücum edərək, onu ələ keçirməyə çalışırlar.

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 727.



Sağ tərəfdən Əli ağa, Simitqonun qumbara ilə öldürülmüş qardaşı



Petros ağa

Lakin əhalinin möhkəm müqaviməti ilə qarşılanırlar. Assurilərin hücumları bir neçə dəfə təkrar olsa da, onlar şəhərə girə bilmirlər.

Bu arada köhnəşəhərlilərin silah və sursat ehtiyatı tükənməyə başlarkən gərgin vəziyyət yaranmağa başlayır. Elə buna görə də belə qərara gəlinir ki, köhnəşəhərli gənclər gecələr gedib assuri hərbi birləşmələrindən qənimət kimi silah və sursat alsınlar. Bu iş, ardıcıl olaraq neçə gecə həyata keçirilir. Müəyyən qədər silah və sursat köhnəşəhərlilərin əlinə keçir. Bundan başqa Xoydan yardım məqsədilə 300 nəfərlik bir döyüşçü dəstəsi Köhnəşəhərə gəlib, ön cəbhədəki mövqeləri möhkəmləndirirlər.

Köhnəşəhər altı gün mühasirədə qalıb müqavimət göstərdikdən sonra hərbi sursat və qida məhsulları tükəndiyi üçün əhali şəhərdən köçmək qərarına gəlir. Arvad-uşaqlar Köhnəşəhəri boşaltdıqdan sonra silahlı şəxslər də şəhəri tərk edirlər. Məhz şəhər yerli əhalidən boşaldıqdan sonra yaraqlı cilovlar şəhərə daxil olub hələ də şəhərdə qalan bəzi insanları qırıb, soyğunçuluğa başlayırlar.

Bu arada **Dilməqan** assurilər tərəfindən mühasirəyə alındığına görə hər cürə əzab-əziyyət görmüş köhnəşəhərli didərgin arvad-uşaq, onları müşayiət edən öz silahlı kişiləri ilə Xoya doğru istiqamət götürdülər. Lakin yolda bir dəstə assuri və rusa rast gəlib, giriftar oldular. Amma bütün bunlara baxmayaraq, bir qrupu özünü Xoya çatdırıb, Şəhanəqdə yerləşdirildilər. Bu vaxt Salmasın kargüzarı Marşimonun bacısı Sürmə xanımın yanına gedib, öz dövləti tərəfindən ona başsağlığı verir.

Bu dəhşətli hadisədə min nəfərə yaxın köhnəşəhərli həlak olub, minlərlə adam da yaralanır.

Dilməqanda, Xoyda və Salmas kəndlərində köhnəşəhərlilərin ölənlərinin sayı mini ötüb keçir.[1]

---

[1] Yenə orada, səh. 187.

# URMİYADA DAHA BİR QIRĞIN

1918-ci ilin 17 martında Marşimonun qətlə yetirilməsi ilə bağlı xəbər Urmiyaya gəlib çatdıqdan sonra Novruz bayramının ilk günü şəhərin müsəlman əhalisinin qırğını və şəhərdəki evlər ilə mağazaların qarət edilməsi davam edir. Maraqlıdır ki, assurilərin əli kürdlərə çatmadığı üçün onlar Marşimonun qisasını bu şəhərin müsəlmanlarından (yəni azərbaycanlılardan - A.M.) alırdılar. Baxmayaraq ki, Urmiyanın şərif əhalisi bu çağırılmamış qonaqlara əlindən gələn hər cür yardım etmiş, öz qonaqpərvərliyi ilə onlara qarşı mehriban münasibət bəsləmiş və ən çətin günlərdə onlara öz qoynunda yer vermişdi. Çox dəhşətli nəticələrlə bitən bu faciənin qurbanlarının sayının minlərlə olduğu qeyd edilmişdir. Həmin dövrdə 7 yaşda olan mərhum Əli Dehqan səksən neçə ildən sonra "Müasir İran tarixi" üçaylıq jurnalının müxbirinin ona verdiyi "Zəhmət olmasa, bizə uşaqlığınızdan danışın, necə bir ailədə böyüdünüz və evinizdəki atmosferin sizin gələcək həyatınızdakı təsiri nədən ibarət oldu?" -sualının cavabında deyir: "Uşaqlıq dövrü deyəndə nəzərə almaq lazımdır bu elə bir dövrdür ki, insanın sonrakı həyatına çox böyük təsir buraxır. Elə buna görə də uşaq çox sakit və mehriban bir mühitdə böyüməli və təlim almalıdır. Təəssüflər olsun ki, mənim uşaqlığım ən pis şəraitdə və ən ağır bir dövrdə pərişanlıqlar və çaxnaşmalar içində keçdi".

Əli Dehqan I Dünya müharibəsinə, işğalçı rusların Güney Azərbaycanı tərk etməsinə və burada müttəfiqlər tərəfindən xristian ordusunun yaradılmasına, həmçinin erməni-assuri xristianlarının Urmiyanı ələ keçirərək müsəlman azərbaycanlılara təhmil etdikləri üç günlük müharibəyə toxunaraq,

deyir: "Kürd Şəkkak tayfasının başçısı İsmayıl ağa Simitqo hiylə ilə assurilərin dini rəhbəri Marşimonu Çehriqə çəkdi. Söhbət kürd-assur vahid hökumətinin yaranmasından gedəcəkdi. Lakin Simitqo Marşimonu aldadıb, Çehriqə çəkdikdən sonra onu öldürdü. Xristianların əli kürdlərə çatmadığına görə bunun acığını Urmiya müsəlmanlarından almaq qərarına gəlmişdilər. Belə ki, 24 saatlıq müsəlman qırğını ilə bağlı bildiriş yaydılar. Elə buna görə də 1918-ci il mart ayının 19-da son çərşənbə axşamında Urmiya şəhərinə dəhşətli bir qorxu ab-havası çökmüşdü. O gecə heç kimin yuxusu gəlmədi. Çünki sabahısı gün sübh tezdən qətliam başlanacaqdı. Çünki cilov quldurları o gecə sabah baş verəcək müsəlman qırğınına görə şəhərdə nərə çəkir, şənlik edirdilər.

Sübh tezdən anam məni (yeddi yaşım var idi), məndən böyük iki qardaşımı və məndən kiçik qardaşımı götürüb, evin damına apardı. Assurilərin evlərə girməsindən qorxaraq, bütün əhali (arvad-uşaq) damlara çıxmışdı. Biz axşama qədər ac və susuz halda damda qalmalı olduq. Axşama yaxın dedilər ki, şəhərdə qətliamlara son verilib. Biz aşağı düşüb, evə qayıtdıq. Lakin evdə heç nə qalmamışdı. Hər şeyi aparmışdılar. Çıraqları belə sındırmışdılar. Evin görünüşü adamda dəhşətli hislər oyadırdı. Hələ özümüzə gəlməmişdik ki, birdən-birə evimizin qapısını çox möhkəm döyməyə başladılar. Anam bizi (dörd uşağı) çörək yapmaq (bişirmək) üçün istifadə olunan təndirin içinə qoyub, özü də təndirə girdi. Evin qulluqçusuna tapşırdı ki, təndirin ağzını (qapağını) qoysun. Anam deyirdi ki, əgər cilovlar gəlsə qoy birinci məni öldürsünlər, sonra uşaqlarımı. Bu hadisələr və onunla bağlı xatirələr o qədər dəhşətlidir ki, hələ də o olaylardan səksən il keçməsinə baxmayaraq, onu unuda bilmirəm.[1]

Həmin fəlakətli günlərin şahidi olan urmiyalı Rəhmətulla Tofiq isə yazır: 1918-ci ilin son çərşənbə axşamı günü, bayrama üç gün qalmış bütün İran əyalətləri çal-çağır və

[1] "Müasir İran tarixi" üçaylıq jurnalı (farsca), N: 11, 1378-ci il.




Məhəmməd Həsən Mirzə -
Qacar sülaləsinin son vəliəhdi

şənlik içində olduğu halda, Urmiya əhalisi artıq otuz üç gün idi ki, çörək qıtlığı olmağına baxmayaraq və Marşimonun ölümü ilə bağlı olaylardan xəbərsiz olaraq erməni-cilov cinayətkar birləşmələrinin qorxusundan evlərdə həbs edilmiş, iztirab və həyəcan içindəydilər.

Cilovlar özlərinin dini rəhbəri Marşimonun Köhnəşəhərdə öldürülməsi xəbərini eşitdikdən sonra onun intiqamını almaq üçün hər tərəfdən şəhərin müsəlman məntəqələrinə hücuma keçib qan-qan deyə bağırırdılar. Bu qəzəbli cilovların qarşısını kimsə ala bilmirdi. Nəticədə isə xristian başçıları şəhərdə 12 saat müddətinə müsəlman (azərbaycanlıların - A.M.) qırğınının başlanmasına əmr verdilər.

Beləliklə də, ilin son çərşənbə axşamı sübh tezdən sanki noxtası qırılmış on iki min qəzəbli xristian şəhərin müsəlman məhəllələrinə üz tutdular. Belə olan halda, şəhərin erməni-assurilərindən ibarət yerli xristianları da Qafqazdan qaçıb gəlmiş cinayətkar qaçaq ermənilərlə birlikdə cilovlara qoşularaq qətl və qarətə başladılar. Minlərlə tüfəngin birdən-birə açdığı dəhşətli atəşin səsindən şəhər silkələnib lərzəyə gəldi.

Ermənilərlə cilovlar qapıları daş və balta ilə sındırıb, evlərə girirdilər. İnsan ürəyini yaxıb-yandıran günahsız arvad-uşağın qorxu və həyəcandan qopardığı şivən və nalə səsi açılan tüfənglərin səsinə qarışıb, böyük vahimə və iztiraba səbəb olmuşdu. Analar öz uşaqlarını quyularda və daş peçlərinin içində gizlədirdilər. Həmin gün erməni-assuri birləşmələri qarşılarına çıxan hər bir müsəlmanı atəşə tutub, var-yoxunu talayıb özləri ilə aparırdılar.

Erməni-assuri quldurları heç bir müqavimətə rast gəlmədən evlərə girdikdən sonra hər yerə atəş açır, evin damına pənah aparmış qadınlarla uşaqları yerindəcə öldürüb, sonra da ev əşyalarını oğurlayıb, özləri ilə aparırdılar.

Qadın və uşaqların fəryadı cinayətkar dəstələrin güllə səsinə qarışaraq, bütün şəhəri və müsəlman məhəllələrini bürümüşdü. Soyğunçu qrupların vəhşiliyi və yırtıcı əməlləri

elə bir həddə çatmışdı ki, xristianlar komitəsi müsəlman qırğını üçün təyin olunmuş vaxtın başa çatmasından əvvəl iclas quraraq, Petros adlı bir şəxsin qardaşı Mirzəyə tapşırıq verdi ki, bir qrup atlı ilə müsəlman məhəllələrinə gedib, soyğunçulara qətliamın başa çatmasını bildirib, onları bu məhəllələrdən çıxarsın.

Mirzə günortadan iki saat sonra işə qarışdı. Lakin qarət və müsəlman qırğını günbatana bir saat qalmışa qədər davam etdi. Xristianlar yalnız gün batıb qaranlıq düşəndən sonra müsəlmanların yaşadığı məhəllələrdən çəkilib getdilər.

Müsəlmanların yaşadıqları məhəllələr sanki qəbiristanlığa çevrilmişdi. Evlərdə və küçələrdə çox dəhşətli mənzərələr gözə çarpırdı. Bütün evlər qarət edilmiş, yer cəsədlərlə dolu idi. Bugünkü müsəlman qırğınında erməni-cilov cinayətkar dəstələri müsəlmanlar (azərbaycanlılar - A.M.) tərəfindən müqavimətə rast gəlmədikləri üçün evlərdən talanmış əşyaları daşıyıb aparmaq üçün arvadlarını da yardımçı kimi öz yanlarına salıb gətirmişdilər.

Bugünkü müsəlman qırğınında yırtıcı erməni-assuri quldurları Marşimonun qisasını almaq üçün qarşılarına çıxan ruhaniləri yerindəcə öldürmüşdülər. Bir çox məşhur seyid və din xadimləri həmin gün qətlə yetirilmişdir.

Quldurlar məşhur ruhanilərdən Axund Molla Əliqulunu və onun 27-35 yaşlarında olan iki oğlunu - Mirzə Abdullanı və Mirzə Mahmud ağanı öldürdükdən sonra Mirzə Mahmud ağanın arvadını da ərinin meyiti üzərində qətlə yetirmişdilər. Molla Əliqulunun üçüncü oğlu Mirzə Əli özünü quyuya atdığı üçün ölümdən qurtara bilmişdi. Onun dördüncü oğlu Möhsün Axundzadə isə həmin vaxtlarda Məşhəddə təhsil alırdı.

Qətlə yetirilən digər tanınmış ruhanilərin adları belədir: Ağa Mirzə Sadıq, müctəhid Mirzə İbrahim və Səqətülislam (Qara Ağac məhəlləsindən), Sədrülüləma, Hacı Mirzəli Əsgər, Hacı Mirböyük (Əli Şəhid məhəlləsindən), Ağa Mircalal (Cəlaliyyə mədrəsəsinin müdiri), Qoca nökər adı ilə



Müsyö Suntak - Papanın Urmiyadakı nümayəndəsi

xalq içində məşhur olan tanınmış mərsiyəxan molla Əli (Qəbiristan məhəlləsindən), Carçıbaşı, Bazarbaşı və məşhur mərsiyəxan Mirzə Əhməd (Yurt məhəlləsindən), Hacı molla İsmayıl Əyalu (başını kəsib atmışdılar) və Ağa Mir Nurulla (Ağdaş məhəlləsindən).

Bunlardan başqa digər ruhanilər də məşhur tacirlərlə birlikdə həmin gün qətlə yetirilir.

Saman satanlar meydanında yaşayan molla Seyfulla adlı bir ruhani həmişə xristianların müsəlmanlara qarşı zorakılığından söhbət düşəndə deyərdi ki, əgər bir gün bu quldurlar mənim evimə girsələr onlardan bir-ikisini öldürməyincə ölümü qarşılamaram. Belə də olur. Basğınçılar molla Seyfullanın evinə girəndə onunla üz-üzə gəlirlər. Molla Seyfulla dərhal tapançası ilə xristian erməni-assurilərdən iki nəfəri öldürür, özü isə quldurlar tərəfindən öldürülür. Xristianların şəhərə hücumu zamanı molla Seyfulla birinci şəxs idi ki, öz ailəsini qorumaq üçün müqavimət göstərmiş və bu yolda həlak olmuşdur. Qırğınların sabahısı günü əhaliyə azca əmin-amanlıq verildi ki, hər kəs öz ölüsünü evinə götürüb, basdıra bilsin”.[1]

Həmin acınacaqlı olayların şahidi olmuş Rəhmətullaxan Mötəmidülvizarə isə yazır: “...Urmiyada o gün olmur ki, bir nəfərdən on nəfərə qədər adam ölüdürülməsin. Habelə şəhərdə qarət olunmamış ev tapmaq belə qeyri mümkündür. Bundan əlavə qıtlıq nəticəsində insanlar son dərəcə acınacaqlı və ağır şəraitdə yaşayırlar.

- Şəban ayının 8-də yenə hər yerdə car çəkib dedilər ki, heç kəs öz evindən çölə çıxmasın. Həqiqətən bu bədbəxt insanların başına gələn müsibətləri təsvir etmək çox çətindir. Öz yaxın adamlarını itirmiş və əli-ayağı hər yerdən üzülmüş yazıq əhali ac-susuz və xəstə halda yenə evlərdə məhbus oldular. Bu qanlı olayların başlandığı gündən bəzi qarşıdurmalarda və yaxud evlərə edilən hücumlarda ölənlərdən başqa əhalinin böyük bir qismi də yoluxucu xəstəliklərdən və aclıqdan həlak olurdu.

---

[1] “Urmiyanın tarixçəsi”, səh. 36.

Şəhər içindəki əhalinin qıtlıqla üzləşdiyini nəzərə alaraq demək olar ki, hər gün yalnız yüz nəfərdən artıq insan da məhz aclıqdan ölürdü. Tam əminliklə demək olar ki, qanlı olaylar başlanandan bu günə qədər bu əyalətdə 50 min nəfərdən artıq günahsız müsəlman (azərbaycanlı - A.M.) həlak olmuşdur. Sözsüz ki, sağ qalanların çoxu ya aclıqdan, ya da ki, aldıqları yaralardan dava-dərman olmadığı üçün həlak olacaqlar.

Əhalinin sağ qalması üçün yeganə çıxış yolu yolların açılması və bu xaraba şəhərdən baş götürüb getməkdir. Bu isə çətin məsələdir. Allah necə istəsə, elə də olacaq. Urmiya ilə müqayisədə salmaslılar demək olar ki, daha şanslıydılar. Çünki onlar bir dəfə qırğın və qarətə məruz qaldıqdan, minbir faciə və əzab-əziyyətə dözdükdən sonra heç olmasa qaçmağa bir yol tapıb, özlərini Təbrizə çatdıra bilib və başlarına gələnləri başqalarına danışdılar.

Lakin Urmiyanın yazıq və bədbəxt əhalisi dörd aydır ki, hər gün qətl və qarətə məruz qalır, hər gün ölümü qarşılayırlar. Aclıq da bir tərəfdən əhalini sinsidir, günü-gündən artan ölüm hallarına gətirib çıxarır. Bu bədbəxt insanların aqibəti necə olacaq bilinmir”.[1]

1918-ci ildə Urmiyadakı ikinci qırğından sonra cilov silahlı qüvvələrinə başçılıq edən Petros İsmayıl ağa Simitqodan intiqam almaq üçün Çehriqə yola düşdü.

“I Dünya müharibəsinə qədər Urmiyada osmanlıların konsulu kimi işləyən Petros müharibədən sonra öz iç üzünü göstərərək, rusların tərəfinə keçib, Rusiyanın bu şəhərdəki kosulluğunun hərbi attaşesi vəzifəsinə təyin edildi.

O, I Dünya müharibəsindən sonra general Petros kimi tanınaraq, Lord Korzenin tapşırığı ilə Güney Azərbaycanın qərbində rəsmən bir assuri dövlətinin yaranmasını öhdəlik kimi boynuna götürdü. Ancaq onun və həmkarlarının bu niyyəti baş tutmadı”.[2]

---

[1] “Dünyanı yaxıb yandıran müharibədə Urmiya” (farsca), səh. 49, 99, 119.
[2] Tohid Məlikzadə Dilməqani, yenə orada.



22 fevral 1918-ci il tarixli döyüşdən sonra Urmiya şəhərinin təhlükəsizliyini təmin etmək üçün doktor Şeddin iqamətgahına gedən yolda toplaşmış Urmiya şəxsiyyətləri



Rəhmətulla Tofiq yazır: "İndi Simitqonu tənbeh etməyin vaxtı gəlib çatmışdır. Şəhərdə qırğınların ikinci günündə əsasən cilovlardan ibarət olan silahlı xristian qüvvələri, ağır hərbi sursatla bərabər İsmayıl ağa, Simitqonun yaşadığı Çehriqə doğru yola düşdülər. Simitqo elə fikirləşirdi ki, onun iqamətgahı dağlıq bölgədə olduğu və hər tərəfi qar ilə örtüldüyü üçün xristianlar onunla qarşılaşan kimi dərhal darmadağın edilib, geri çəkiləcəklər.

Elə buna görə də o Çehriq ətrafında səngər qazdırmağa başladı. Xristian hərbi hissələri Çehriqə yaxınlaşanda, arxadan da peşəkar rus topçularından (bunlar rus ordusu çıxıb getdikdən sonra pul müqabilində əməkdaşlığa cəlb edilmiş ruslar idi) ibarət topxana hazır vəziyyətdə onu müşayiət edirdi. Xristian qüvvələri şəhərə çatan kimi müharibə başladı. Simitqo da şəhər əhalisi kimi düşmənin bu qədər güclü olduğunu gözləmirdi.

O, 5-6 saatlıq müqavimətdən sonra düşmənin ardıcıl zərbələrinə dözməyib, məğlubiyyəti öz gözü ilə gördükdən sonra qaçmaq məcburiyyətində qaldı. O, ailə üzvlərinin neçəsini, o cümlədən anasını da buraxıb, çoxlu itkilər verdikdən sonra bir dəstə döyüşçü ilə birlikdə Çehriqdən çıxıb Xoya doğru qaçmağa başladı. Xristianlar Çehriqdəki evləri və ətraf kəndləri qarət etdilər və Urmiyaya qayıtdılar. Onlar Urmiya ilə Çehriq arasındakı bütün müsəlman kəndlərini də tamamilə məhv edib, qarşılarına çıxan hər kəsi öldürüb, ev-eşiyini yağmaladılar.

Cilovlar Urmiyaya qayıtdıqdan sonra xristianlar tərəfindən böyük bir şənlik mərasimi düzənlənib, Marşimonun qardaşı oğlunu onun yerinə oturtdular. Amma bütün bunlara baxmayaraq, Marşimonun qətlə yetirilməsi xristian təşkilatlarına endirilmiş böyük zərbə idi. Belə ki, bu qətl hadisəsi onların bütün planlarını alt-üst etdi. Simitqonun sonrakı illərdəki özbaşınalıqlarına baxmayaraq, onun belə ağır dövrdə ölkəyə göstərdiyi yeganə xidməti Marşimonu öldürməsi idi". [1]

---

[1] "Urmiyanın tarixçəsi" (farsca), səh. 39.

# SALMASIN ACINACAQLI HEKAYƏTİ

Urmiya qırğınlarından və İsmayıl ağa Simitqonun öz ev-eşiyindən didərgin salınmasından sonra xristianların diqqəti Salmasa yönəldi. Əhali hücumçulara qarşı əvvəlcə yaxşı döyüşür, möhkəm müqavimət göstərirdi. Lakin bir müddətdən sonra heç yerdən yardım gəlmədiyi üçün onların düşmən qarşısında müqaviməti zəifləməyə başladı. Bu arada Petros ordusu da Salmasa qayıtdı.

Belə olduqda isə Xoy və Salmasın hakimi Vüsuqülməmalik Xoya doğru geri çəkilməyə başladı. Əhalinin bir qismi də onunla bərabər Xoya qaçdı. Ermənilər ilə cilovlar 1918-ci il aprelin 13-də şəhərə daxil oldular. Ancaq Urmiyada olduğu kimi onlar burada qırğın salmayıb, yalnız küçə və meydanlarda yerli əhalini soymağa başladılar. Onlar küçələrdə dinc əhalinin qarşısına çıxır, hədə-qorxu gəlməklə onların qiymətli ziynət əşyalarını, hətta əyinlərindəki paltarları belə tələb edirdilər.

Beləliklə də, xristianlar Salması asanlıqla ələ keçirib, öz nəzarətləri altında olan əraziləri bir az da genişləndirdilər. Ə.Kəsrəvi bu barədə yazır: "Lakin cilovlar azar-əziyyətdən və öz kobud davranışlarından əl çəkən insanlar deyildilər. Şəhər xristianların əlinə keçdikdən sonra salmaslılar birinci günü evdə oturub çölə çıxmadılar, lakin ikinci gündən məişətlə bağlı tələbatı təmin etmək üçün evdən çölə çıxmaq məcburiyyətində qaldılar.

Cilovlar öz evindən çölə çıxan hər kəsin qabağını kəsir, pulunu, saatını və digər dəyərli əşyalarını əlindən alırdılar. Beləliklə də, insanların var-yoxunu talayıb, özlərini isə təhqir edirdilər.

Şəhərdən baş götürüb qaçanların çoxu isə arvad-uşaq olduğundan, bir az yol getdikdən sonra qaranlıq düşən kimi dağınıq və didərgin halda qar içində hərəkətdən qalıb, şaxtadan qırılırdılar. Qalanlar peşiman olaraq, yenidən şəhərə qayıdır, bir qismi isə hər cür təhlükə və əziyyəti göz önünə alıb, Xoya üz tuturdular.

Xoy əhalisi yenicə yoldan çatmış qaçqınları tam mehribanlıqla qarşılayıb, onları şəhərdə yerbəyer edərək, paltar və çörək ilə təmin etmişlər.

Aclığın hər yeri bürüdüyü bu acınacaqlı durumda bir tərəfdən də xəstəlik geniş yayılaraq, Təbriz, Urmiya və Salmas şəhərlərində bir çox insanın ölümünə gətirib çıxardı.

...Bütün bunlar ümumi əzginliyə və əhalinin ruh düşgünlüyünə səbəb olmuşdu. Lakin bütün bunlara baxmayaraq, demokratlar ümidlərini itirməyib, sakit oturmadılar. Həriri, Növbəri və Sərtipzadə özləri döyüş meydanına getdilər. Dövlətin əmri ilə Əmir Ərşəd (Samxan) dörd yüz Qaradağ atlısı ilə Almasaraya gəlib, buranı özlərinə səngər etdilər. Digər tərəfdən də Xoy ordusundakı döyüşçülərin sayı artdı".[1]

Salmasın ələ keçirilməsindən sonra Petros erməni-assurilərdən ibarət xristian ordusunun bir hissəsini şəhərdə qoyub, qalan hissəsini isə özü ilə Salmasın ətraf kəndlərindən olan Pekaçik və Qalasərə apardı və sonrakı müharibələr üçün hazır vəziyyətdə saxladı. Çünki Osmanlı qüvvələrinin bu bölgədə yerbəyer olması xəbərləri gəlib çatmışdı.

Elə buna görə də müsəlmanlar fürsətdən yararlanaraq, 1918-ci il aprelin 19-da gecə hücuma keçib, heç bir ciddi qarşıdurma olmadan Salmasa daxil olub, şəhərdəki cilovları tutub, qətlə yetirdilər. Beləliklə də, Salmas yenidən müsəlmanların əlinə keçdi.

Tohid Məlikzadə Dilməqani yazır: "Salmasın ələ keçirilməsi belə oldu ki, qabaqca 500 atlı və piyadadan ibarət bir qüvvə gecə vaxtı qəflətən şəhərə girib, cilovları öldürdükdən

[1] Ə. Kəsrəvinin göstərilən əsəri, səh. 733.

sonra şəhəri onlardan təmizlədi. Sonra da silahlı qüvvələrlə yerli dinc əhali şəhər bürclərində əmniyyət və təhlükəsizliyi qorumaq üçün keşik durmağa başladılar.

On gün ərzində Xoy və Təbrizdən də iki minə yaxın döyüşçü kömək məqsədilə Salmasa gəlib çatdı. Cilovlar öz qüvvələrini toplayıb, hər gün şəhərə hücum edirdilər. Şəhərin darvazaları bağlanmış, küçələr ətraf kəndlərin əhalisi ilə dolmuş, yazıq, kimsəsiz xəstələr evlərdə yerləşdirilmişdi. Top və tüfəng səsindən qulaq batırdı.

Əsəd Hümayun öz silahlı dəstələri ilə Ləkistanda, Salar Hümayun ilə Hacı Musaxan şəhərdə, Xoy qoşunu isə Muğancuqda idi. Belə bir şəraitdə Petros ordusunun Urmiyadan Salmasa daxil olması ilə cilov qüvvələrinin sayı artmağa başladı. Beləliklə də, tərəflər arasında baş vermiş qanlı toqquşmalar iki gün davam etdi.

Nəhayət, Əsəd Hümayunun ordusu məğlub oldu, böyük toplarından biri cilovların əlinə keçdi. Cilovlar hər tərəfdən yardım yollarını bağlayıb, şəhərə üz tutdular. Onlar qənimət kimi əldə etdikləri böyük topla şəhərə atəş açır, binaları yıxırdılar. Salmasın Sədiyyə mədrəsəsi də həmin hücumlar nəticəsində məhv edildi.

1918-ci il aprel ayının iyirmi üçü idi. Cilov qüvvələri quduzlaşdıqca, şəhər əhalisini vahimə və qorxu bürüyürdü. Belə ağır vəziyyətdə dinc əhali şəhərdən qaçmaq qərarına gəldi. Lakin şəhər ətrafı və kəndlər cilov ordusunun əlində olduğu üçün bütün yollar bağlı idi. Bununla belə şəhər əhalisi basqınçılara qarşı döyüşür, şəhəri müdafiə edirdilər.

Axşama doğru qarşıdurmalar daha kəskinləşir. Şəhər əhalisi Sədəqyan darvazasının arxasında toplaşaraq qaranlığın düşməsini gözləyirlər. Şəhərə bir-birinin ardınca top mərmiləri yağdırıldığı bir vaxtda minlərlə günahsız qadın və uşaq ağlar halda bu darvazanın arxasına toplaşmışdı. Yaranmış qalabalıqda yüzə yaxın qadın öz balasını itirmişdi. Hər tərəfə hakim olan qeyri-adi qorxu və həyəcan içində hər kəs qaçıb öz canını qurtarmaq üçün yol axtarırdı.

Qürubdan yarım saat keçmişdi. Cilovlar birdən-birə Əhrəncan darvazasından şəhərə daxil olub, evləri yandırır və heç kimə rəhm etmədən əhalini dəstə-dəstə qırıb tökürdülər. Salması müdafiə edən qoşun döyüşə-döyüşə Piyəçuk darvazasından geri çəkilir, bəziləri isə bürclərdən yerə ataraq qaçırdılar. Cilovlar qaçanlara hər tərəfdən atəş açırdılar. Şəhərin dörd bir tərəfi cəsədlərlə dolmuşdu. Xəndəklərdə də saysız-hesabsız meyitlər düşüb qalmışdı. Qadınların bir çoxu öz südəmər körpələrini arxa ataraq, qətliam səhnəsindən qaçırdılar.

O qaranlıq gecədə Salmas şəhərinin hər yerindən ucalan uşaq və qadınların nalə dolu fəryad səsi hər tərəfi bürümüşdü. Soyqırımdan öz canını götürüb qaçanlardan başqa, şəhərdə qalanlar, əli hər yerdən üzülmüş qocalar və xəstələr idi. Onlar isə bütün qapıları bağlayaraq, evdə oturub bir addımlıqdakı amansız ölümü gözləyirdilər. Cilovlarla ermənilər bağlı qapıları sındırıb, bir-birinə ürək-dirək vermək üçün bir yerə toplaşmış neçə-neçə ailəni elə bir yerdə qırırdılar.

Onlar övladı anasının, qardaşı isə bacısının gözləri qarşısında öldürür, bəzən də öldürdükdən sonra onların bədən üzvlərini kəsir, tonqal qalayaraq od içində yandırırdılar. Cilovlarla ermənilərin müsəlmanlara qarşı soyqırımı bir gecə-gündüz davam etmişdi.

Əhalinin bir qismi özlərini qorumaq üçün məscidə sığınmışdılar. Onlar belə güman edirdilər ki, cilovlar yəqin məscidin hörmətini saxlayar, ona toxunmazlar. Lakin cilovlar Dilməqanı (Salması) işğal etdikdən sonra həmin məscidə pənah aparmış günahsız dinc əhalini avtomata bağlayıb, qan içində həlak etdilər.

Soyqırımın üçüncü günündə - 1918-ci il aprelin 25-də cilovlar qırx min müsəlman əsiri bir yerə toplayaraq, bazardan keçirib Həftvan və Qalasər kəndlərinə apardılar. Onlar həmin əsirləri lüt-üryan bir həftə burada saxlayıb, sonra isə onları uzaq bölgələrə yola saldılar. Beləliklə də, əsirlərin əksəriyyəti yollarda

aclıqdan qırıldı, Xoy və Güney mahalına çatanların çoxu isə düçar olduqları müxtəlif xəstəliklər üzündən həlak oldular.

Salmas yolları meyitlərlə dolmuşdu. Salmasa gedən Təbriz və Xoy yollarına isə hər addımbaşı saysız-hesabsız ölülər səpələnmişdi. Bütün bunlarla yanaşı Xoya gedən yolda pusqu qurmuş Simitqo qüvvələri yoldan keçən hər kəsi tutub soyur, bəzən də öldürürdülər.

Bununla da erməni və assurilərdən ibarət xristianlar bütün Urmiya və Salması ələ keçirib öz arzularına çatmış kimi görünürdülər".

Tohid Məlikzadə Dilməqani daha sonra osmanlıların Salmasa daxil olması və bu şəhəri xristianlardan azad etməsi barədə yazır:"1918-ci il may ayının birinci yarısında Qotur tərəfindən xəbər gəldi ki, Osmanlı qoşunu işğal olunmuş əraziləri düşmən tapdağından azad etmək üçün Salmas və Urmiyaya yaxınlaşır.

Çox çəkmədən Osmanlı ordu hissələri Xoya daxil olub yerli əhalinin yardımı ilə ilk növbədə salmaslı qaçqınların acınacaqlı durumunun yaxşılaşdırılması işi ilə məşğul oldular. Qeyd etmək lazımdır ki, Xoya pənah gətirmiş qırx min salmaslı qaçqından yalnız on min nəfəri sağ qalmışdı.

Osmanlı qüvvələrinin gəlməsindən xəbər tutan cilovlar açıq-aşkar əl-ayağa düşüb, təşviş içində öz əməllərindən peşiman olmuşdular. Elə buna görə də onlar etdikləri iyrənc cinayətlərin aqibətindən qorxaraq, qaçmağa hazırlaşırdılar. Lakin bu qədər cinayət törətməklə Salması tərk etmək o qədər də asan iş deyildi. Bundan başqa xristianlar burada ev-eşik və bağ evlərinə sahib olmuşdular.

Bunlardan da vaz keçmək onlar üçün çox çətin idi. Bundan başqa arvad-uşaqlarını və ev əşyalarını özləri ilə necə apara bilərdilər və ümumiyyətlə, hara çıxıb gedə bilərdilər?

Üzdə dost, batində isə düşmən olan xristian missionerlərinin boş vədlərinə aldanan, öz məmləkətlərinə və həmyerlilərinə xəyanət edən bu bədbəxt müflisləri (yerli assuri və



Xristian qaçqınlar Urmiyanı tərk edir. 1918-ci il



Xristianların silahlı qüvvələri. 1918-ci il

ermənilər nəzərdə tutulur - A.M.) çox qaranlıq və mübhəm bir gələcək gözləyirdi.

Osmanlı əsgərlərinin yardıma gəlməsi xəbərini eşidən salmaslılar öz xilaskar havadarlarının gəlişi üçün sevindiklərindən ağlayırdılar. Onlar bir tərəfdən yuxuda belə görmədikləri bir arzunun gerçəkləşməsindən, yəni xristianların təşviş içində qaçmağa can atmasından sevinir, digər tərəfdən isə qaçmaqda olan ermənilərlə cilovların son qırğına əl atmasından qorxurdular.

Beləliklə də, altıncı diviziyadan olan Osmanlı əsgərləri Türkiyədəki istiqlal müharibələri və daxili problemlərə baxmayaraq, Salmas ilə Urmiyanı xristianların əlindən azad etmək qərarına gəlmişdilər. Belə ki, iyun ayının ortalarında osmanlılar Salmasa yaxınlaşıb, iki günlük döyüşdən sonra Salmasa daxil oldular. Şəhərdə xristianlardan heç kəs qalmamışdı. Osmanlı qoşunu şəhəri azad etdikdən sonra Salmasın Çəmənxan təxtisində dayanmağa başladı.

Salmaslılar Osmanlı əsgərlərini qarşılamağa gəlir, onların qabağında mal və qoyun kəsirdilər. Onlar öz başlarına gələn neçə aylıq müsibətlərdən danışır, onlara öz təşəkkürlərini bildirirdilər...

Osmanlıların şəhərə daxil olması və xristianların buradan qaçmasından sonra demək olar ki, şəhər tamamilə yerli əhalidən boşalmışdı. Şəhərdə və ətraf kəndlərdə hələ də qalıb yaşayan müsəlman əhalisinin sayı həddən artıq azalmışdı. Elə buna görə də osmanlılar əkin sahələrindəki buğda, arpa, meyvə və tərəvəz kimi məhsulları yığıb şəhərə gətirtmək üçün əhalinin bir qrupunu zorla kəndlərə göndərmək məcburiyyətində qalmışdılar".[1]

---

[1] Tohid Məlikzadə Dilməqani. Göstərilən əsəri, səh. 196.

# ANDRANİKİN XOYA HÜCUMU

1918-ci ilin yanvar ayında İrəvanın müsəlman əhalisinin daşnaklar tərəfindən soyqırıma məruz qalmasından və həmin ilin 28 may günündə İrəvan şəhidlərinin qanı üzərində Ermənistan Respublikasının təşkil edilməsindən sonra daşnaklar "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək üçün Van, İrəvan və Naxçıvan məhvərini ələ keçirib öz qüvvələrini bir-biri ilə əlaqələndirərək, səfərbər etmək həvəsinə düşürlər.

Elə buna görə də onlar nəyin bahasına olursa olsun Xoyu ələ keçirmək qərarına gəlirlər. Mehdi Ağasi özünün "Xoy tarixi" kitabında yazır: "1918-ci il may ayının birinci yarısına qədər ermənilərlə assurilər Urmiyanı və Quşçu döngəsinin şimal ətəklərindən başlayaraq, Salmasa qədər uzanan əraziləri öz əllərinə keçirmişdilər. Lakin Osmanlı ordusunun Salmas hüdudlarına qədər gəlişindən sonra onlar bu şəhəri və cənubundakı kəndləri, habelə Dilməqan ilə Köhnəşəhəri boşaltmaq məcburiyyətində qaldılar. Amma Qafqaz cəbhəsində ermənilər müsəlmanlara qalib gəldikdən sonra artıq oradakı qüvvələrini İran savaş cəbhəsinə sövq elətdirmək iqtidarındaydılar. Vanda isə kiçik dəstələrdə fəaliyyət göstərən erməni partizanları vaxtaşırı Osmanlı ordusunun işində əngəl törədirdilər.

Osmanlı qoşunları İran torpağına daxil olduqdan sonra Salmas və ətrafdakı kəndlərin nəzarətini də ələ keçirdilər. Xoy şəhər əhalisinin öz əlində idi. Şəhər tanınmış şəxsiyyətlərdən ibarət bir Məşvərət Əncüməni tərəfindən idarə olunurdu. Bu zaman Xoy komandanlığı Həsənəlixan Mirpəncə Ağasının əlində idi. Osmanlılar isə Xoyda əhaliyə böhranlı və zəruri vaxtlarda yardım göstərmək üçün Əbdülrəhman bəy və Zohdi bəyin birgə komandanlığı ilə 700 nəfərdən ibarət əsgər

saxlamışdılar.

Osmanlı qüvvələrinin əsas hissəsi Əli Ehsan Paşanın başçılığı ilə Salmasda yerləşdirilmişdi. Xoyun silahlı döyüşçülərindən bir qrupu bəzi müəlliflərin yazdığına görə Osmanlı ordusuna qoşularaq, ona yardım göstərirdilər.

Urmiya tərəfindən Osmanlı qüvvələrinə qarşı hücuma keçmək çətin olduğu üçün xristianlar Osmanlı əsgərlərinə arxadan zərbə endirmək məqsədilə, habelə Van, İrəvan və Naxçıvan məhvərini bir-birinə bağlayaraq, öz qüvvələri arasında əlaqə tellərini təmin etmək üçün nəyin bahasına olursa-olsun Salmas ilə Xoyu ələ keçirməyi qərara aldılar. Xoy şəhəri möhkəm, basılmaz qala və bürclərə malik idi.

Elə buna görə də əgər ermənilər şəhəri ələ keçirə bilsəydilər bir tərəfdən Osmanlı qüvvələrinin arxasındakı cəbhəyə yiyələnmiş olardılar (belə ki, türk əsgərləri həm cənub, həm də şimal istiqamətindən, yəni Urmiya və Xoy şəhərləri istiqamətindən ermənilərlə assurilərin atəşinə məruz qala bilərdilər), digər tərəfdən də Xoya edilən hər hansı hücumun qarşısında dayanmaq ermənilər üçün daha asan olardı. Nəticədə isə Osmanlı ordusu öz üstünlüyünü itirmiş olardı. Məhz həmin səbəblərə görə də Xoyu ələ keçirmək xristianlar üçün hər baxımdan əhəmiyyət kəsb edirdi.

Ermənilər öz hərbi planlarını belə bir taktika üzərində qurmuşdular ki, erməni-assuri döyüşçüləri müxtəsər partizan sayağı qarşıdurmalardan sonra Urmiyaya doğru geri çəkilməklə Əli Ehsan Paşanın başçılığında olan Osmanlı ordusunu öz arxalarınca çəkərək, Xoy şəhərindən uzaqlaşdırsınlar. Ermənilər habelə belə bir plan da qurmuşdular ki, erməni döyüşçülərindən bir qrupu gəmidə oturub lazım olan vaxtda Şərəfxana limanındakı azuqə və hərbi sursatı ələ keçirsinlər, həm də Təbriz qüvvələrinin diqqətini Şərəfxanaya yönəldərək, onların Xoya göstərəcəkləri yardıma mane ola bilsinlər.

Xoyu ələ keçirmək üçün də Qafqaz erməniləri təyin edilmişdi. Təpədən dırnağa qədər yaraqlı olan Qafqaz erməniləri Andranikin başçılığı ilə müəyyən zamanda Xoya qoşun çəkib,



Mərhum Höccətülislam Şeyx Fəzlullah

şəhəri işğal etməli idi.

Xoy əhalisi belə güman edirdi ki, onların düşməni yalnız Urmiya ilə Salmas erməniləri və assuriləridir. Onlar heç də təsəvvür edə bilməzdilər ki, Qafqaz erməniləri tərəfindən də hədələnə bilərlər. Amma bununla belə Urmiya erməniləri ilə Xoy arasında Osmanlı qoşunları mövqe tutduğuna görə özlərini əmin-amanlıq içində hiss edirdilər. Lakin Andranik Qafqazdan hücumunu başlayan kimi xoylular əvvəldə qafil olsalar da vaxtı itirmədən ayağa qalxıb, şəhəri düşmən basqınından müdafiə etməyə hazırlaşdılar".[1]

Andranik Qafqaz ermənilərindən idi. O, I Dünya müharibəsində erməni könüllülərindən bir dəstə yaradaraq ruslarla birgə osmanlılara qarşı vuruşmuşdu. O, indi də "Böyük Ermənistan"ın yaranması uğrunda çalışırdı. Andranik həmin xülyanı gerçəkləşdirmək üçün təcrübəli və təpədən dırnağa qədər yaraqlı bir qrup erməni ilə bərabər osmanlılara qarşı vuruşub, Xoyu ələ keçirmək məqsədilə Arazın şimalından keçib cənuba gəlmişdi. Burada qeyd edək ki, Andranik qüvvələrinin sayını Rəhmətulla Tofiq 12 min nəfər, Mehdi Ağasi 8 min nəfər, Dr. Məhəmməd Əmin Riyahi 5 min nəfər, Əhməd Kəsrəvi isə özünün "Azərbaycanın 18 illik tarixi" kitabında 3 min nəfər qeyd etmişdir. 1918-ci ilin iyun ayında Andranikin öz qüvvələri ilə bərabər Arazı keçməsi barədə osmanlıların Xoydakı komandanlığına bir teleqram vurulur.

Andranikin Xoya qoşun çəkməsinə şəhər əhalisi əvvəlcə inanmadı. Lakin hücumların şəhərə yaxınlaşmasından sonra ölüm vahiməsi hər yeri bürüdü. Ətraf kəndlərin sakinləri qorxudan şəhərə pənah gətirmişdilər. Evlər, məscidlər və bütün küçələr qaçqınlarla dolmuşdu. İmkanı olan bəzi adamlar da şəhərin qərb hissəsindəki bölgələrə, həm də Zorabada qaçıb sığınmışdılar.

Osmanlı əsgərləri ilə iranlı atlılarından ibarət 500 nəfərlik bir qüvvə həmin gecə müdafiə məqsədilə Evoğluya yola düşdülər. Şəhərdə həngamə qopmuşdu. Osmanlı əsgərlər

---

[1] Mehdi Ağasi "Xoy tarixi" (farsca), səh. 407.

gecə qaranlığında qapı-qapı gəzib, ermənilər axtarırdılar. Onlar hücumçu erməniləri tapan kimi evlərdən çölə çəkir, şəhərdən kənara aparıb öldürürdülər.

Osmanlı əsgərləri ilə Xoy atlıları Ərsi döngəsində Andranik qüvvələri ilə qarşı-qarşıya gəldilər. Dəhşətli bir döyüş səhnəsi yarandı. Hücumçular istər say baxımından, istərsə də hərbi sursat və silah baxımından üstünlük təşkil edirdilər. Ermənilər dörd tərəfdən Osmanlı əsgərlərini dövrəyə aldılar. Onlar son qüvvəyə qədər vuruşub, çoxlu qurbanlar verdilər. Bəziləri isə üç top geridə buraxaraq, döyüş meydanından qaçaraq, yaralılardan bəzilərini şəhərə çatdırdılar.

Hücumçular gecəni Səidabad hüdudlarında qaldılar. Osmanlıların Xoydakı qərargahının komandiri həmin gecə bir neçə nəfərlə bərabər Vana qaçdı. O gecə şəhərdə heç kimin gözünə yuxu gəlmədi. Bütün ürəklər təşviş içində idi. Ölüm bir addımlıqdaydı.

Şəhərdəki kişilər məşvərət edib, çıxış yolu tapmaq məqsədilə Qari məscidində bir araya gəldilər. Onların arasında qızğın mübahisələr baş verdi. Bəzilərinin fikrincə bu yerli bir müharibə deyildi, dünya müharibəsi idi. İngiltərə ilə Osmanlı dövləti arasında olan bir müharibə. Bu düşüncənin sahibləri deyirdilər ki, İran dövləti müharibədə tərəfsiz olduğunu bildirmişdir, elə buna görə də bunların (ermənilərin - A.M.) bizimlə işləri olmayacaq!

Onlar güclüdürlər və biz onların qarşısında müqavimət göstərə bilmərik. Onların qabağında dayansaq qətliam olarıq. Özümüzü də arvad-uşaqlarımızla birlikdə ölümə verərik. Yaxşısı budur ki, onlarla saziş edək, gedib onları qarşılayaq və mehribanlıqla şəhərə gətirək!

Bəziləri də deyirdilər ki, bizim dünya müharibəsi ilə nə işimiz var? Yaraqlı bir quldur dəstəsi zorla evimizə basqın etmək istəyir. Bunların Urmiyada silahsız sülhsevər xalqla necə davrandıqlarının şahidi olmuşuq. İndi min cür mehribanlıqla onları qarşılayıb, ayaqlarının altında qurbanlıq kəssək

də yenə arvad-uşağımıza rəhm etməyəcəklər.

Sülh, saziş və təslim olmaq düşüncəsinin tərəfdarı yox idi. Urmiya və Salmasdakı qanlı olaylar hər cür nikbinliyə son qoymuşdu. Ürəklər nifrət və qəzəbdən coşub daşırdı. Bunlardan başqa şəhərdə çoxdan belə bir şayiə də gəzirdi ki, ermənilər Ərzincan və Trabzonda müsəlmanların ətindən qovurma bişirib digər müsəlmanlara yedizdiriblər...

1918-ci il iyun ayının son günlərinin birində səhər tezdən erməni yaraqlı dəstələri şəhər həndəvərində görünməyə başladılar. Onlar şəhər ətrafındakı buğda zəmilərinin arasında yerlə sürünə-sürünə özlərini şəhər divarlarının arxasına çatdırırdılar. Günortaya qədər ermənilər şəhərin yarısını mühasirəyə almışdılar.

Şəhər kişiləri hansı təbəqədən olmasından asılı olmayaraq, əli silahlı bürclərdə və səngərlərdə müdafiə üçün hazır vəziyyətdə idilər. Bütün təbəqələrdən olan əhali - mülkədardan tutmuş əkinçisinə qədər, habelə digər peşə sahibləri, tacirlər, ruhanilər, zəhmətkeşlər və b. çiyin-çiyinə müharibə etmək üçün hazırlaşmışdılar.

İlk güllələrin açılıb bir neçə nəfəri yerə sərməsindən sonra əhalidə olan əvvəlki qorxu və vahimə tamamilə aradan getdi. Qadınlar ilə uşaqlar da bürclərdə və səngərlərdə şəhəri düşməndən müdafiə edən döyüşçülərə su və şərbət daşıyırdılar.

O gün şəhəri ermənilərdən müdafiə edənlərin içində adları hələ də xatirələrdə qalanlar bunlardır: Höccətülislam Şeyx Fəzlullah, Ağa İbrahim, Həsənəlixan Mirpəncə, Hacı Məhəmməd Rza Parsa, Hacı Xəlil Makui (Fəthi), Mirzə Mahmudxan Əmin Divan, Cahangir Mirzə və... Hamısının ruhu şad olsun.

Xoy əhalisinin general Andranik qoşunları qarşısında qəhrəmancasına müqaviməti müasir Azərbaycan tarixinin ən parlaq və iftixarlı səhifələrindən biri sayılır. Bu qeyrətli müqavimət nəinki minlərlə Xoy əhalisini Andranik qoşununun qətliamından qurtardı, hətta bu diyarın tarixi istiqamətini

də dəyişdirdi. Əgər o taleyüklü günlərdə qeyrətli Xoy əhalisi özündən zəiflik göstərsəydi, məlum deyil bu diyarın sonrakı taleyi necə olacaqdı.

Özü həmin dövrdə Urmiyada tarixi olayların yaxından şahidi olmuş mərhum Əli Dehqan bu barədə yazır: "İyun ayının 23-cü və ya 24-cü günü Urmiyanın dörd ağaclığına qədər gəlib çatmış Osmanlı ordusu, Andranikin Xoyu mühasirədə saxladığı xəbərini eşitdikdən sonra dərhal gəldiyi yoldan xoylulara yardım etmək üçün geri qayıtdı. Həmin günlərdə qaçmaqdan başqa çarəsi qalmayan Urmiya xristianları, Osmanlı ordusunun şəhərdən uzaqlaşması xəbərini eşidən kimi şənlənməyə, müsəlmanlar isə qəmlənməyə başladılar.

Andranik Xoya çatdıqdan sonra şəhəri mühasirəyə almışdı. Lakin Xoy əhalisi urmiyalıların xilafına olaraq düşmən qarşısında möhkəm dayanmış ermənilərin hər bir hücumuna müqavimət göstərmiş. Xoylular osmanlıların gəlməsinə qədər neçə gün erməniləri şəhərin çölündə süründürdülər. Nəhayət, Osmanlı əsgərləri Salmas istiqamətindən gəlib erməni quldurlarını topa bağladı. Nəticədə isə düşmən qüvvələrinin çoxu həlak oldu, qalanları isə qaçıb aradan çıxdı. Beləliklə də, Xoy şəhəri ermənilərin əlindən xilas oldu.

Qeyrətli Xoy əhalisinin o çətin günlərdə göstərdiyi qəhrəmanlıq təqdirəlayiqdir. Belə ki, şəhər düşmən əlinə düşməsin deyə, hamı döyüş meydanında qalıb vuruşmaq və bu yolda ölmək qərarına gəldi"[1].

Qəhrəman Xoy əhalisinin o ağır günlərdə vəhşi düşmən qarşısında özündən göstərdiyi misilsiz müqavimət səhnələri insanda böyük qürur hissi oyadır. İlk növbədə o dövrdə Xoyda hücumçu ermənilər qarşısında öz əməlləri ilə xalqa, xüsusilə də gənclərə ruh yüksəkliyi verən iki mübariz ruhaninin adını çəkmək lazımdır: "O dövrdə Xoydan olan Höccatülislam və Ağa İbrahim Müctəhid adlı iki mübariz ruhaninin göstərdiyi misilsiz fədakarlıq Xoy cavanlarının qeyrət damarını, onlardakı

---

[1] Əli Dehqan "Zərdüşt diyarı" (farsca), səh. 503.

comərdlik və igidlik ruhunu oyatmışdır. Belə ki, Höccətülislam üzünü camaata tutub demişdir: "Ya Əyyuhəlnas! Bu gün hər kəs öz orucunu saxlasa günaha batmış kimi hesab olunur. Belə bir gündə oruc tutmaq haramdır. Orucunuzu açın və düşmənlərə qarşı vuruşun". Bu sözdən sonra qeyrət timsalı olan həmin şəxslər, topun ipini boyunlarına keçirərək, topxana atları kimi topu səngərə doğru çəkməyə başlayırlar. Onların bu hərəkəti az-çox ümidsizliyə qapılmış gənclərin və səngərdəkilərin əhval-ruhiyyəsini qaldırmış, onlardakı döyüşkənlik qanını cuşa gətirmişdir. Məhz bundan sonra, hamı öz canından keçərək kütləvi şəkildə səngərlərə doğru yola düşmüşlər. Maraqlıdır ki, o gün sözü gedən həmin iki şəxsin ipini boyunlarına keçirərək səngərə tərəf çəkdikləri həmin topla, əhalinin vahiməsinə səbəb olmuş ermənilərin topunu susdurmuş, onu məhv etmişlər [1].

Dr. Məhəmmədəmin Riyahi özünün "Xoy tarixi" adlı əsərində yazır: "Fətəli şah dövründən yadigar qalmış və Ramazan ayında vaxtı bildirmək məqsədilə istifadə edilən köhnə bir topu, şəhərin qalın hasarının üzərindəki qalaya çıxarmışdılar. Atmaq üçün güllələri də yox idi. Məşədi Tağı adlı qədim topçulardan birisi bu topla düşmən üzərinə atəş açırdı. O, Təzəkənd əhalisindən idi. Güllə olmadığından o top lüləsinin içini zəncir qırıntıları ilə doldurub atəş açırdı. Deyilənlərə görə o, həmin topla ermənilərin Təzəkənddən atəş açan və böyük insan itkisinə gətirib çıxaran toplarından birini susdurmuşdur".

Kəsrəvi isə yazır: "Səhərin dan qızaran vaxtında birdən-birə erməni dəstələri peyda oldular. Onlar şəhərin 300 metrliyinə qədər gəlib, top və hərbi avadanlıqlarını işə salaraq, atəş açmağa başladılar. Bu tərəfdən isə tüfəngçilər yaxşı hərbi təlim görmədiklərinə baxmayaraq, qeyrətlə müharibəyə qalxdılar. Ermənilər hər tərəfdən şəhəri mühasirəyə almağa çalışırdılar. Elə buna görə də anbaan öz qüvvələrinin sayını artırırdılar. Nəticədə isə günortaya qədər şəhərin yarısını ələ keçirdilər.

Xoylular isə topdan məhrum ola-ola, həm də köhnə

[1] Rəhmətulla Tofiq "Urmiyanın tarixçisi" (farsca), səh.53.

silahlarla vuruşurdular. Osmanlı yaralıları isə aldıqları bədən xəsarətinə baxmayaraq, hər biri bir səngərə girərək döyüşdə iştirak edirdilər. Bu arada qadınlar da kişilərlə çiyin-çiyinə düşmənə qarşı vuruşur, həm də onlara su, şərbət və yemək çatdırırdılar. Bu isə kişilərin əhval-ruhiyyəsini qaldırır, onları ürəkləndirirdi. Beləliklə də, döyüşlər davam edərkən, Avacıdan yardım üçün gəlmiş bir neçə atlının döyüşlərə qatılması hamıda ruh yüksəkliyinə səbəb oldu.

Döyüşlər davam etdiyi bir vaxtda dinc əhalidən iki nəfər özlərindən böyük bir qəhrəmanlıq nümayiş etdirdilər. Bunlardan biri Məşrutə hərəkatının mücahidlərindən olan Xəlil adlı bir şəxs idi. Bu comərd özündən misilsiz bir fədakarlıq göstərdi. Belə ki, döyüşlərin lap qızğın vaxtında Osmanlı əsgərlərinin formasını geyinib Osmanlı türkcəsində danışan üç erməni Salmas darvazasının qabağında peyda oldular. Onlar özlərini Osmanlı ordusunun elçiləri kimi aparır, qoşunun arxadan gəldiyini iddia edir, darvazanın dərhal açılmasını tələb edirdilər. Osmanlıların gəlməsini gözləyən əhali bu xəbərdən hədsiz dərəcədə sevinib darvazanı açmaq istədi. Lakin bəzi uzaqgörən şəxslər bu işə mane oldular. Nəhayət, belə qərara gəlindi ki, bir nəfər iplə darvazadan aşağı ensin, onları yaxından görüb, həqiqətən Osmanlı əsgərləri olduğuna əmin olduqdan sonra darvaza açılsın. Xəlil könüllü olaraq bu təhlükəli işi öz boynuna götürdü. Aşağı enib onlara yaxınlaşdı və onların düşmən olduğunu anladı. Xəlil onların əlində hazır bombalar görən kimi onların ikisini qucaqlayıb, uca səslə xoylulara müraciət edərək "- Düşməndirlər, bunları vurun, bunları vurun, məni də bunlarla bərabər vurun!" deyə fəryad qopardı. Onun bu fəryad səsi ilə dərhal yuxarıdan atəş açıldı. Hər üç ermənini vurdular, lakin nə qədər heyrətləndirici olsa da Xəlilin özünə güllə dəymədi. O, atəş açılan kimi xəndəyə tullanıb, qəti ölümdən yaxa qurtardı. Bundan sonra onu yenidən iplə yuxarıya çəkdilər.

Bu, adi bir insanın qəhrəmanlığından gözəl bir misaldır.

Belə ki, başçılar özləri döyüş sahəsində düşmənə qarşı sinə gərib. xalqı nümunə olduqları təqdirdə, onlar da özlərindən belə fədakarlıqlar nümayiş etdirə bilərlər.[1]

Burada qeyd olunası digər mühüm mövzulardan biri də qadınların geniş şəkildə bu müqəddəs müqavimətə qatılması idi. Bunlar cəbhə arxasında şəhər müdafiəçilərini himayə edərək, öz qəhrəmanlıqları və fədakarlıqları ilə onlardakı əhval-ruhiyyəni gücləndirirdilər. Həmin şirürəkli qadınlardan biri Zəri xanım idi. Ermənilər Xoy şəhərini ələ keçirmək istədikləri bir vaxtda. bu qadın özünün tarixə düşəcək hərəkəti ilə Xoyu qəti süqutdan qurtarıb, tarixə müqavimətin qızıl səhifələrindən birini yadigar qoydu. Mehdi Ağası həmin barədə yazır: "Ermənilər, şəhərin şərq hissəsindəki güclü müqaviməti gördükdən sonra şəhərə bu istiqamətdən sızmağın qeyri-mümkün olduğunu anladılar. Elə buna görə də mühasirə halqasını daha da daraldaraq, günortaya yaxın şəhərin cənub hissəsindən hücuma keçdilər. Şəhərin bu hissəsindəki mühasirələrin azlığına görə ermənilər qalib gəldilər. İş o yerə çatdı ki, bürclərdəki müdafiəçilər də geri çəkilmək məcburiyyətində qaldılar. Məhz həmin anda bürclərə - azuqə və sursat daşımaqda olan Zəri xanım (Zəri xanım əslən Urmiyadan idi. O, birinci dəfə mərhum Əliağa Dərviş Ağasiyə ərə getmiş, onun ölümündən sonra da Ağa Mirzə Bağır Həsəni ilə ailə qurmuşdu) geri çəkilməkdə olan döyüşçülərin qabağını kəsərək, başındakı yaylığı açıb onların başına atır (qədim zamanlarda bir qadının belə hərəkəti hər hansı bir kişinin qorxaqlığına etirazı demək idi). Sonra isə özünün fəryad və həyəcan dolu səsi ilə onlara ürək-dirək verərək, ermənilərin Urmiya və Salmas şəhərlərində törətdikləri cinayətləri xatırladaraq, onları öz mövqelərində dayanıb müqavimət göstərməyə təşviq etdi. Qadının bu hərəkətindən sonra mühafizlər yenidən bürclərə və səngərlərə doğru yola düşdülər. Ermənilərin bürclərə dırmanmalarına baxmayaraq, şəhər müdafiəçiləri bu dəfə ildırım kimi ermənilərin üstünə

---

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 753.

hücuma keçdilər. Nəticədə, isə ermənilərin bir qismini yerindəcə öldürdülər, qalanlarını isə geri oturmağa məcbur etdilər".[1]

Dr.M.Ə.Riyahi isə özünün "Xoy tarixi" kitabında yazır: "Şəhərdə qalmış yaralı Osmanlı əsgərləri şəhərin müdafiəsini təşkil etmiş məsullara etdikləri müraciətdə deyirdilər: - Biz əminik ki, ermənilər şəhəri ələ keçirsələr bizləri tikə-tikə doğrayacaqlar. Bizə də imkan yaradın qalalarda düşmənə qarşı vuruşaq". Həmin tələbdən sonra onlardan birini Xiyaban darvazasının qalasına aparıb altına bir az saman tökdülər və o, uzanıb düşmən üzərinə atəş açmağa başladı.

Günortadan bir az keçirdi. Döyüşçülərdən biri durbinlə cənub tərəfindəki vəziyyətə nəzarət edirdi. Birdən-birə Qəzənfər dağının arxasından göyə qalxmış qırmızı tüstünü görən kimi türk (Osmanlı) əsgərinə xəbər verdi. Osmanlı əsgəri bu xəbəri eşidən kimi sevinib dedi ki, bu tüstü İslam ordusu toplarının tüstüsüdür. Nəhayət ki, gəlib çatdılar. Allaha şükür, qurtardıq.

Bir az keçmədən topların səsi eşidilməyə başladı. Osmanlı ordusu ilə ermənilər arasında şiddətli bir müharibə başlandı. Andranik Əli Ehsan Paşa qoşununun Salmasdan yardım məqsədi ilə Xoya gələcəyini əvvəlcədən təxmin edərək, öz qüvvələrinin bir qismini Qəzənfər və Qullabi dağlarının yüksəkliklərində yerləşdirmişdi.

Osmanlıların topxanası erməni qüvvələrinin mövqeyini kəskin atəşə tutdu. Ağır və ardıcıl atəş nəticəsində qısa zamanda ermənilər müqaviməti zəiflədib, qaçmaq məcburiyyətində qaldılar. Şəhərin müdafiəçiləri bürclərin başından sevinc və həyəcan hissləri ilə Osmanlı türklərinin irəliləməsinə baxırdılar. Qəzənfər və Qullabi dağları isə tamamilə Osmanlı ordusunun əlinə keçmişdi. Ermənilər geri çəkildilər. Döyüşlər isə şəhər divarlarının arxasında davam edirdi. Günün batmasına bir saat qalmış Osmanlı ordusu Təzəkəndə çatdı. Topların Səidabada doğru atəşi isə hələ davam edirdi. Osmanlı qoşunu o gecəni şəhərin xaricində qalıb, səhər havalar işıqlanana kimi

[1] Mehdi Ağasi "Xoy tarixi" (farsca), səh. 418.

Culfaya qədər ermənilərin izinə düşdülər. Qaçmaqda olan ermənilər Araz çayını keçdikdən sonra arxalarındakı Culfa körpüsünü də yandırdılar"[1].

"Bu məğlubiyyət ermənilərin böyük Ermənistanın təşkili ilə bağlı ümidlərini puça çıxardı. Beləliklə də, erməni qüvvələrinin qalan hissəsi min bir əzab-əziyyətlə özlərini İrəvana çatdırdılar. İranın istiqlal və ərazi bütövlüyünü təhlükəyə alan, lakin Xoy əhalisinin qəhrəmancasına müqaviməti nəticəsində qarşısı alınan bu dəhşətli fırtına da beləcə yatırıldı.

Bunun sabahısı günü Osmanlı dövlətinin nümayəndəsi Zohdi bəy Xoya gəldi. O, tanınmış şəxsiyyətlərlə şəhər əhalisini türk (osmanlı) məmurlarının iqamətgahı olan Şəhbəndəri imarətinə dəvət edib, özü isə həmin görüşdə etdiyi təntənəli çıxışında Xoy əhalisinin düşmən qarşısındakı misilsiz müqavimət və qəhrəmanlığını, habelə xoyluların bu döyüşlərdə ümum müsəlmanlara və bir sözlə, İslam aləminə etdikləri xidməti alqışlayıb, yüksək dəyərləndirdi.

Məşədi Məhəmmədrza mühəririnin yazdığına görə xoyluların bu döyüşlərdə verdikləri itkilərin sayı 15 nəfər idi. Məşhur mücahid Ağa Mir Əsədullanın oğlanlarından biri olan mərhum Ağa Mir Həbib, habelə Hacı Murtuz Əttar da həmin gün şəhid olanların sırasındaydılar.

Osmanlı sərkərdəsi Əli Ehsan Paşa erməniləri tamamilə məğlub etdikdən sonra yenidən öz qüvvələrini Urmiyaya doğru yönəldib, buradakı erməni və assuriləri də qısa müddət içərisində məğlubiyyətə uğradaraq, müsəlman Urmiya əhalisini onların şərindən xilas etdi".[2]

Kavə Bəyat isə özünün "Qafqaz üzərində tufan" əsərində qeyd edir ki, Andranik qayıdarkən, Naxçıvanda iki müsəlman kəndini, arvadlı-uşaqlı bütün əhalini qətliam etdi".[3]

---

[1] Dr.M.Ə.Riyahi "Xoy tarixi", səh. 511.
[2] M.Ağası "Xoy tarixi" (farsca), səh. 422.
[3] K.Bəyat "Qafqaz üzərində tufan" (farsca), səh 93.

# ŞƏRƏFXANA HADİSƏSİ

Xoy əhalisi ilə osmanlılar Andranik qüvvələrinin Xoya hücumunun qarşısını aldıqları bir vaxtda Urmiya xristianları (ermənilərlə assurilər - A.M.) Şərəfxana limanına hücum etmək qərarına gəlirlər. Bunların məqsədi rusların geridə buraxıb getdikləri hərbi sursatı Şərəfxana limanından Urmiyaya gətirib Andranik qüvvələrinə çatdırmaqdan ibarət idi. Lakin onların bu çirkın niyyəti də baş tutmadı və rüsvayçı vəziyyətdə məğlub oldular. Abbas Nəbii yazır: "Qeyd etdiyimiz kimi, Xoya qarşı dörd istiqamətdən hücum planlaşdırılmışdı. Biri Andranik tərəfindən, biri Petros qüvvələrinin vasitəsilə, biri Van erməniləri tərəfindən və nəhayət dördüncüsü də assurilər tərəfindən. Bu assurilərin vəzifəsi Şərəfxana limanına hücum edərək hərbi sursat anbarlarını ələ keçirmək və həmin silahları Təsuc yolu ilə Andranik qüvvələrinə çatdırmaqdan ibarət idi"[1].

Kəsrəvi həmin limanın şəraiti və demokratların burada tədbirləri barədə yazır:"Bu arada Şərəfxana macərası baş verdi. Ruslar çoxlu hərbi sursata malik olduqları üçün onun satışı ilə də məşğul olurdular. Elə buna görə də gömrük idarəsi alıcılardan gömrük haqqı almaq üçün bir komissiyanı oraya göndərdi. Komissiyaya başçılıq edən Ağa Şeyx Əlixan valiyə və gömrük idarəsinə belə yazdı: "Rusların burada çoxlu silah və sursatı var, lakin onları qoyub gedirlər. Onlardan bəziləri də xəbislikdən bir çox yerləri yandırırlar. Digər tərəfdən də Urmiyada qudurğanlığa qalxmış assurilərin buraya gəlib silahları mənimsəməsi təhlükəsi var. Bunun qarşısını almaq üçün çarə qılmaq lazımdır.

Assurilər tərəfindən böyük təhlükə hiss olunurdu. Rus və

[1] Təsuc tarixdə (farsca), səh.354.

fransız ağalarının işarəsi ilə oturub duran və amerikan missionerlərinin göstərişi ilə ayağa qalxmış assurilər öz ürəklərində böyük arzular bəsləyirdilər. Bunların Şərəfxana limanına qarşı hücuma keçib buranı ələ keçirməsi ehtimalı çox güclü idi. Vaxtı itirmədən çarə qılmaq gərək idi. Vali hər şeyə etinasızlıqla yanaşırdı. Elə buna görə də İran əsgərlərindən ibarət kiçik bir dəstəni oraya göndərməkdən başqa bir iş görmədi. Lakin bunların əlindən nə gələ bilərdi ki?!

Burada da demokratlar xeyirxah və zəruri bir işi öz üzərlərinə götürdülər. Belə ki, Şərəfxana limanını qoruyub nəzarət altında saxlamaq üçün neçə nəfərdən ibarət bir nümayəndə heyətini oraya göndərdilər. Bundan əlavə azadixah mücahidlərin bir çoxu da silaha sarılıb könüllü şəkildə oraya getməyə hazırlaşdılar.

Şərəfxanada rusların tutub buraya gətirdiyi Osmanlı əsgərlərindən 150 nəfərlik kiçik bir dəstə də var idi. Demokratların nümayəndələri bunların da arasında tüfəng və paltar payladılar. Beləliklə də, demokratlar Təbriz və digər yerlərdən gələn könüllülərlə üst-üstə 500 nəfərə yaxın silahlı bir dəstə yaradaraq, həm Şərəfxananı öz nəzarəti altında saxladılar, həm də Çöhrəqan kəndinə qədər irəliləyib hər yerdə qaravullar qoydular.

Əgər bu təhlükəsizlik tədbirləri olmasaydı, onlar (ermənilərlə assurilər - A.M.) gəlib Şərəfxananı ələ keçirər, sonra da hər yerdə qırğınlar törədərdilər. Bu isə işləri daha da çətinləşdirərdi. Hələ bu dəstənin Şərəfxananı qorumaqla yanaşı, Salmas və Urmiyaya da yardım göstərəcəyinin şahidi olacağıq. Hər şeyin qarışıq və intizamsızlıq içində olduğu o ağır şəraitdə bu dəstənin qəhrəmanlığı son dərəcə qiymətli və təyinedici idi. Burada həmin dəstədən olan və bizə məlum olan bir neçə şəxsin adını xatırlamaq yerinə düşər: Mirzə Nurullaxan Yekani, Əsədağaxan, Əhmədağa Balazadə, Mayor Mirhüseynxan (sonrakı general), Ağazadə Urmiyalı və Mir Mehdi Makui. Mirzə Nurullaxan özü Təbrizdə polis başçısı

olduğu halda öz işini buraxıb könüllü bir dəstə ilə Şərəfxanaya gəlmişdi. Bunlar hələ də dağınıq halda burada qalmış rus dəstələrini də zərərsizləşdirirdilər. Burada qalmış ruslar Şərəfxanada İran ordusunun bir hissəsinin yerləşdirilməsi xəbərini eşitdikdən sonra kəndləri yağmalamaqdan çəkinir, kimsəyə xəsarət yetirmədən səssiz-səmirsiz gəlib silahlarını təhvil verirdilər.

Demokratlar Şərəfxanadakı hərbi sursatın hamısını Təbrizə göndərdilər. Orada isə gömrük, vali və demokratların nümayəndələrindən ibarət bir komissiyanın əli ilə həmin silahların bir qismini satıb, qalanını isə Ərkə tapşırdılar".[1]

"Andranikin Xoya qoşun yeritməsi xəbəri gəlib çatdıqdan sonra (sözsüz ki, onlar Xoyu ələ keçirdikdən sonra Urmiya xristianlarına dəstək verəcəkdilər) qaçmaq üçün yol axtaran Urmiya xristianları bu işdən vaz keçib onlar da Şərəfxanaya qarşı hücumu planlaşdırdılar. Həmin ərəfədə ruslar içində topu da olan "Çernozubov" adlı bir buxar gəmisini Urmiya gölündə işə salmışdılar. Həmin gəmi xristianların üsyanı zamanı Gülmanxana limanında xristianlar tərəfindən zəbt edilmişdi. 1918-ci il iyun ayının son günlərinin birində erməni və assurilərin 180 nəfərdən ibarət təcrübəli tüfəngçisi həmin gəmiyə, bir qismi isə digər yelkənli bir gəmiyə minib Şərəfxanaya doğru yola düşdülər. Bunlar gecə vaxtı Şərəfxanaya çatıb gəmini isə elə bir yerdə saxladılar ki, kimsənin onların gəlişindən xəbəri olmasın. Onların məqsədi qəflətən Şərəfxananı işğal etmək və ruslardan qalmış hərbi sursatı Urmiyaya göndərməkdən ibarət idi. Lakin xristianlar hələ gəmidən düşməmiş, o yaxınlarda olan demokratlar, könüllülər və osmanlı əsgərlər ildırım kimi onların üstünə şığıyıb hamısını məhv etdilər. Beləliklə də, xristianların Şərəfxananı işğal etmək planı məğlubiyyətə uğradı".[2]

Həmin liman yaxınlığında yaşamış Abbas Nəbii hadisəni

---

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 708.
[2] Ə.Dehqan yenə orada, səh.531.

belə şərh edir: "Assurilərin əlində olan bu gəmi 1918-ci il iyun ayının 22-də erməni və assurilərdən ibarət 450 nəfər peşəkar tüfəngçi ilə Şərəfxananı işğal etmək və buradakı silah anbarlarını zəbt etmək məqsədilə bu şəhərə doğru yola düşdülər. Onlar gecə vaxtı gəmini limanda deyil, gözə görünməsin deyə körpünün qərb səmtində dayandırırlar. Hər iki gəmi zığa batır və onlar gəmidən düşməyə hazırlaşdıqları bir vaxtda limanda olan mücahidlər və osmanlı əsgərlər dərhal məsələdən xəbərdar olub onların üstünə yeriyirlər. Əvvəlcə onları tərkisilah edib, sonra isə onları səfə düzüb böyük bir anbara aparırlar. Anbarda iki nəfər də keşikçi dururmuş. Onları anbara saldıqdan sonra süngü ilə öldürüb məhv edirlər. Sonra isə həmin anbarı onların başına uçururlar. Hücumçuların hamısı bax beləcə məhv edilir. Onlardan yalnız bir-iki nəfər qaçıb dağlarda gizlənərək özlərini birtəhər Xoya çatdırırlar. Mən özüm 1941-ci ildə Şərəfxanada müəllim işlədiyim vaxt həmin sökülmüş anbarı və oradakı bir-birinin üstünə qalanmış sümükləri öz gözümlə görmüşəm. Əhalidən eşitdiyim bəzi rəvayətlərə görə bu qailə sona çatıb əmin-amanlıq bərqərar olduqdan sonra assurilər guya həmin sümükləri ziyarət etmək üçün bəzən Şərəfxanaya gələrmişlər. ...Təkbətək baş vermiş bu döyüşdə Osmanlı əsgərləri özlərindən misilsiz qəhrəmanlıqlar nümayiş etdirirlər.

Şərəfxanadakı yaşlı insanların dediyinə görə türk zabitlərindən biri erməni gəmisinin sütunundan yuxarı qalxmaq istəyəndə, ermənilər onun bir qolunu qılıncla bədənindən ayırırlar, lakin bu müsəlman zabit özünü güc-bəla ilə gəminin içərisinə salıb o biri əli ilə ermənilərlə döyüşü davam etdirir. Bələliklə, osmanlı yaraqlıları və mücahidlərinin cəsurluğu nəticəsində erməni yaraqlıları məğlub olub, əsir düşürlər".[1]

---

[1] "Təsuc tarixdə" (farsca), səh.354.

# XRİSTİANLARIN SON TALEYİ

Xoyun erməni işğalından azad edilməsindən sonra möhtəşəm Osmanlı ordusu yenidən Güney istiqamətinə doğru yola düşdü. Qoşun Salmasdan ötüb Urmiyaya doğru hərəkət etdi. Petros ağa öz qüvvələri ilə osmanlıların qarşısını almağa cəhd göstərsə də münəzzəm Osmanlı ordusunun qəhrəmancasına müdafiəsi ilə qarşılaşıb, geri çəkildi. Elə buna görə də 1918-ci il iyul ayının son günlərindən osmanlı qüvvələrinin şəhərə gəlməsi barədə şayiələr yayılmağa başladı. Bu şayiənin ardınca münaqişə cəbhələrindən hər gün ümidverici xəbərlər gəlir, müsəlmanları sevindirirdi. Bununla da, xristianlar iztirab keçirir, kəskin ruhi sıxıntılara düçar olurdular.

Şəhərdə xristianların yaxın günlərdə öz arvad-uşaqları ilə birlikdə şəhəri tərk edəcəyilə bağlı şayiələr gəzməyə başlamışdı. Lakin bu barədə hələ ki, qəti bir xəbər yox idi.Nəhayət, iyul ayının 27-də xristianlar rəsmən bildirdilər ki,sabah şəhərdən köçəcəklər. Mərhum Mirzə Məxfi yazır ki, xristianlar həmin gün şəhərdəki müsəlman əhaliyə bilirdilər ki heç kəs öz evindən çölə çıxmamalıdır. Onlar hətta pəncərələri küçəyə açılan evlərin yiyələrinə xəbərdarlıq etdilər ki, pəncərəsi bağlı olmayan evləri yağmalayacaqlar. Bunlardan başqa şəhərdə belə bir şayiə də gəzirdi ki, xristianlar şəhəri tərk edərkən, burada qalmış bütün müsəlmanları qıracaqlar.[1] Sabahısı gün sübh tezdən köç başlandı. Xristianlar öz arvad-uşaqları, ev əşyaları, mal-qara və arabaları ilə yola düşdülər. Lakin köçərkən onların bir qrupu da şəhərdə evlərə girir insanları öldürür, ev əşyalarını

[1] Ə.Dehqan "Zərdüşt diyarı Urmiya" (farsca), səh. 533.

yağmalayırdılar. Bu soyğunçuluqla yanaşı cinayətlər, osmanlı atlılarının ilk dəstələrinin şəhərə daxil olmasına qədər davam etdi. Məhz bundan sonra quldur xristian dəstələri öz cinayətlərinə son qoyub, şəhəri tərk etdilər.

Xristianların şəhərdən çıxıb getməsindən sonra yerli əhali altı ay əsarətdən sonra özlərini sərbəst hiss etdilər. Qadınlı-kişili şəhər əhalisi küçələrdə toplaşaraq, osmanlıları qarşılamağa başladılar. Altı ay əsarət və qıtlıq şəraitində yaşamış və çoxu xəstələnərək yarıcan vəziyyətinə düşmüş əhali osmanlıların gəlişindən bilmirdilər ağlasınlar, yoxsa ki, sevinsinlər.

O dövrdə xristianların qaçmağının şahidi olanlardan biri də rəhmətlik Rəhmətulla Tofiqdir. O yazır: "28 iyulda sübh tezdən şəhərdə qəribə həngamə qopmuşdu. Xristianlar tələm-tələsik, şəhər və kəndlərdən çıxıb, dəstə-dəstə Hezaran darvazasından Savucbulağa doğru qaçırdılar. Onlar qaçarkən, həm də qarşılarına çıxan hər bir müsəlmanı da öldürürdülər. 45 min nəfər erməni cilovlarla birlikdə səfər üçün lazım olan azuqə, pul, yüngül ev əşyası, at, fayton, araba və digər zəruri əşyalarını götürüb, özlərini xilas etmək üçün qaçırdılar.

Onlar bu kütləvi köçdən 3-4 gün qabaqdan Mələk Xuşabəni 300 nəfər cilov atlısı ilə bərabər Savucbulaq yolunun təhlükəsizliyini yoxlamaq üçün göndərmiş, bu yolun həqiqətən xətərsiz olduğuna əmin olduqdan sonra Savucbulağa doğru üz tutmuşdular. Hər kəs canını dişinə alıb özünü xilas etmək fikrində idi. Şəhərin xaricində Savucbulaq yolunda qadın, kişi, uşaq, mal-qara, atlı, piyada,fayton və hər şey bir-birinə qarışmışdı. Minik vəziyyətində gedənlərin əlindən yerə bir şey düşəndə də geri qalmamaq üçün minikdən düşmür, tələm-tələsik irəliyə qaçmağa çalışırdılar. Xristianlar bəzən yol yeriyə bilməyən qadın və ya uşağa da fikir verməyib, onları geridə buraxaraq kütləvi şəkildə qaçırdılar".[1]

R.Tofiq xristianların qaçışı ilə bağlı daha sonra yazır: "Qabaqca qeyd etdiyimiz kimi 45 min xristian Sulduz mahalına

[1] "Urmiyanın tarixçəsi", səh.56.

doğru hərəkətə başladılar. Onlar Savucbulaq yaxınlıqlarından ötərək, Qoşaçay kənarı ilə ingilislərin iqamət etdiyi Sayınqalaya doğru istiqamət götürdülər. Qeyd etmək lazımdır ki, xristianlar Urmiyadan yola düşdüyü andan məqsədə çatana qədər, özləri də özlərini yolda qarət edir, bir-birinin canına düşürdülər. Belə ki, qaçaq ermənilərlə cilovlar daha sürətlə aradan çıxıb qaçmaq üçün yerli şəhər xristianlardakı atları, arabaları və faytonları hədə-qorxu ilə əllərindən alırdılar. Bununla belə məlum olduğu kimi Qaşqaçayın yaxınlığındakı Sulutəpəyə çatana qədər müsəlmanlardan, xüsusilə də kürdlərdən heç kəs onlara yolda hücum etməmişdir. Lakin vaxtilə rusların təzyiqi ilə Urmiyadan İstanbula mühacirət etmiş urmiyalı Mərdülsəltənə Əfşar artıq həmin günlərdə bir qrup İran fədaisi ilə birlikdə İstanbuldan Təbrizə qayıtmış, xristianların osmanlılar qarşısında məğlubiyyətini eşitdikdən sonra azadi xanlar Qaşaçay yaxınlığına gəlmiş burada Hüseynabad kəndində oturaraq xristianların gəlişini gözləyirdi. Urmiyanın osmanlılar tərəfindən fəth edilməsindən sonra xristianların hərəkət istiqamətini öyrənən Məcdülsəltənə özünün 60 nəfərdən ibarət qüvvəsi ilə Qoşqaçayın yaxınlığındakı Sulutəpə dağının yüksəkliklərində mövqe tutmuş atəşə hazır bir ədəd topla səbirsizliklə xristianların yolunu gözləyirdi.

Xristianlar izdiham və toplu şəkildə tələm-tələsik Sulutəpə dərəsinə çatan kimi Məcdülsəltənə öz qüvvələri ilə birdən-birə pusqulardan çıxıb onları top və güllə atəşinə tutdular. Açılan atəşdən qadınlarla uşaqların nalə səsindən dərələrdə qiyamət qopmuşdu. At üstündə və digər miniklərdə gələnlərin bir çoxu yağış kimi yağdırılan top və tüfəng atəşindən bir təhər qaçıb özlərini xilas etməyə çalışırdılar. Bir çox ailələr bir-birindən pərən-pərən düşmüşdü. Qadınlarla uşaqlar atəş səhnəsindən qaçaraq didərgin-didərgin çöllərə üz tutur, əksəriyyəti isə yaxınlıqlardakı müsəlman kəndlərinə pənah aparırdılar. Həmin kəndlərin əhalisi, onlara sığınmış qadın və uşaqlara yer verir, xüsusilə də kimsəsiz uşaqlara yiyə duraraq onları öz övladları kimi saxlayır, bir müddətdən

sonra öz ata-analarına təhvil verirdilər. Lakin ata-anaları tapılmayan kimsəsiz uşaqları isə övladlığa götürüb saxlayırdılar. Mən özüm Sulutəpə yaxılığındakı Kəlb Rzaxan kəndində həmin kimsəsiz qız uşaqlarından birini görmüşəm.

Nə isə xristian silahlı atlılarının bir qrupu sağ qalanların aradan çıxıb qaçmasına şərait yaratmaq üçün Məcdülsəltənə qüvvələrinə qarşı müqavimət göstərməyə başladılar. Sağ qalan qadın və kişilər dərədən uzaqlaşaraq geriyə doğru qaçırdılar. Bu həngamədə mamışlar da qaçqınların izinə düşür, əllərinə düşəni öldürür, əşyalarını mənimsəyirdilər. Xristianların özləri ilə Urmiyadan gətirdiyi ev əşyaları dərələrdə səpələnib qalmışdı. Bu əşyalar da mamışlarla Qoşaçay kəndlərinin sakinlərinə qismət oldu. Həmin bölgədə yerləşən kədlərin sakinlərinin işi çöllərdə düşüb qalmış həmin ev əşyalarını, xüsusi ilə də xalçaları toplayıb kəndlərə daşımaqdan ibarət olmuşdu. Bu iş neçə gün davam etdi.Bu arada rusların getməsindən sonra əli boş vəziyyətdə yenidən İraqdan qayıtmış mamışlar erməni və assuriləri yağmalamaqdan böyük var-dövlətə malik oldular.

Məcdülsəltənənin özü ilə gətirdiyi topun lüləsi ardıcıl atəş açdığından çat verib işdən düşdü. Bundan əlavə onun tüfəngçilərinin bir neçəsi urmiyalı Qulambəy Türkmani də daxil olmaqla xrisianların güllәsinə tuş gəlib həlak oldular. Xristianlar minbir əzab-əziyyətlə bir təhər özlərini Sayınqalaya çatdırdılar. Lakin burada da onlar yenidən Çardavul və Əfşar tüfəngçilərinin atəşinə məruz qaldılar. Durumu belə görən xristianlar Sayınqala əhalisini qətliam edib şəhəri yağmaladıqdan sonra Tikantəpəyə doğru hərəkət edib, orada özlərini ingilislərə çatdırdılar. Beləliklə də, xristianların neçə aylıq təşkilatı məhv edildi. Onların bir qismi ingilislərin hərbi təşkilatına daxil olub, bir qismi də ayrı-ayrı şəhərlərə dağılışıb səpələndilər. Qeyd etmək lazımdır ki, xristianlar Tikantəpəyə çatıb ingilis nümayəndələri ilə görüşdükləri həmin gündə mister Şedd elə həmin şəhərdə dünyaya göz yumdu".[1]

---

[1] "Urmiyanın tarixçəsi" (farsca), səh. 56, 62.

# MƏŞRUTƏ HƏRƏKATININ SÜQUTUNUN SƏBƏBKARI VƏ MİLLİ SƏRDAR SƏTTƏRXANIN QATİLİ YEPREM XAN

Əsl adı "David Yantes" olan Yeprem, İranın Məşrutə inqilabında yabancıların əlaltıları olan digər xain qüvvələrlə birlikdə öz əksinqilabçı əməlləri ilə inqilabı öz əsl yolundan yayındıran və onu öz gedişindən sapındıran çəkdirən saxta və qondarma inqilabçılardan biri idi. Məşrutə hərəkatı elə bir inqilab idi ki, mücahidlərin fədakarlığı, müqaviməti və qəhrəmanlığı sayəsində müstəbidlərin cinayətkar qüvvələri qarşısında 11 ay mübarizə edərək müqavimət göstərmiş, məzlum İran xalqlarının ürəyindəki qələbəyə ümid nurunu işıqlandırmışdı.

Təbrizin Əmirxi məhəlləsindən alovlanan bu möhtəşəm inqilabın rəhbərliyi Azərbaycanın qəhrəman oğlu, milli sərdar Səttərxanın üzərinə düşmüşdü. H.M.Zavoş yazır: "Məşrutə inqilabı öz beşiyi olan Təbriz şəhərində İngiltərə diplomatiyasının dəsisəsi və təhriki ilə çar cəlladları tərəfindən qana bələndikdən sonra, "saxta və qondarma inqilabçılıq" xəttinin tanınmış nümayəndələri öz ingilis ərbablarının göstərişi ilə Tehrana hücum etmiş və onu ələ keçirdikdən sonra "Məşrutə rəhbərləri" sifətilə hakimiyyətə yiyələnərək, İran xalqları adından hökmranlığa başladılar.

Bu xəttin aparıcıları dövlət postlarını qurbanlıq ət kimi öz aralarında bölüşdürdülər. Həmin vəzifələrin bölüşdürülməsində Yepremxanın payına Tehranın nəzmiyyə (polis) idarəsinin başçılığı düşdü".[1]

[1] H.M.Zavoş "Tehran, İran tarixinin gəlişməsində" (farsca), səh. 281.

İranda Yeprem və ya Yefrem adı ilə tanınan David Yantes Əsirbegiyan 1868-ci ildə Gəncə şəhərinin ətraf kəndlərindən biri olan Barsil kəndində anadan oldu. O, 16 yaşında ikən, müəyyən hədəflər arzusunda olan bir qrup anarxist baxışlı erməni gəncləri ilə tanış oldu. 1877-ci ildə 20 nəfərdən ibarət yaraqlı dəstə ilə birlikdə Osmanlı ölkəsinə gəlib oradakı anarxist ermənilərə qoşulmaq istərkən, çar məmurları tərəfindən tutulub dəstənin digər üzvləri ilə birlikdə Sibirə sürgün edildi.

Yeprem 3 il sürgündə qaldıqdan sonra özünün üç dostu ilə birgə Sibirdən qaçaraq özlərini Rusiyanın Şərq sərhədindən Yaponiyaya çatdırırlar. Yeprem 1898-ci ildə Təbrizə gəlib, oradan isə Salmasa getdi. Həmin ildə tutulmaq təhlükəsi olduğundan, onunla oxşar taleyi yaşayan Anahid adlı bir erməni qadını ilə Qaradağa qaçıb, oradakı Ağağan kəndində evlənirlər. Yeprem bundan sonra gizli şəkildə Tiflisə gedib, orada irticaçı Daşnaksütyun partiyasına üzv seçilir.

O, daha sonra partiyanın göstərişi ilə yenidən Qaradağa qayıdaraq orada məskunlaşır. Bir müddətdən sonra yenidən gizli surətdə Tiflisə səfər edir. Onun ikinci səfəri neçə ay uzanır və bir daha 1901-ci ildə İrana qayıdaraq, bu dəfə qalmaq üçün Təbrizi seçir.

Həmin illərdə Rostum adı ilə tanınan və Daşnaksütyun partiyasının təsisçi üzvlərindən biri olan Stepan Zoriyan bir qrup erməni gəncləri ilə birlikdə sərhədi keçərək, Təbrizə gəlir və bu şəhərdə Daşnaksütyun partiyasının şöbə təşkilatını yaradır. Yepremə isə göstəriş verilir ki, Gilana gedib, həmin partiyanın bir şöbəsini də orada yaratsın.

H.M.Zavoş Daşnaksütyun partiyası haqqında yazır: "Tarixi sənəd və faktların araşdırılması göstərir ki, bu partiya fəaliyyətə başladığı ilk addımdan özünü radikal və inqilabçı kimi qələmə verməyə çalışsa da, qısa zaman kəsiyində erməni xalqının amal və arzularına tamamilə zidd olan bir istiqamətə yönəlməyə başladı. Belə ki, İngiltərə mason təşkilatının əlaltı müttəfiqi kimi, 180 dərəcəlik bir dönüşlə mürtəce və sağçı bir



Yeprem xan və sərdar Bahadur Bəxtiyari öz əlaltıları ilə birlikdə

partiyaya çevrilərək, habelə həqiqi xalq hərəkatlarının içinə nüfuz edən qulluqçu bir ünsür kimi beynəlxalq kapitalizm mənafeyi uğrunda gizli fəaliyyətə başladı.

Bu partiya İran və Türkiyə xalqlarının milli mənafeyinə zidd olan bir siyasəti yeritdirməyə başladı və qısa zaman içində partiyaya rəhbərliyin ipucu mürtəce erməni kapitalistlərinin əlinə düşdü.

Fəal və işbilən rəhbərlərinin biri də Yeprem xan olan Daşnaksütyun partiyasının İrandakı şöbəsi, tamamilə onun Osmanlı şaxəsinin uğrunda çalışdığı eyni məqsədləri izləyir və bu yolda fəaliyyət göstərirdi. Bu isə masonlarla həmrəy olaraq ittifaq yaratmaq və İngiltərənin siyasi-iqtisadi məqsədlərini irəli sürüb həyata keçirməkdən ibarət idi".

İbrahim Səfai yazır: "Daşnaksütyun partiyası öz məqsədlərinə nail olmaq üçün terror yolunu seçmişdi. Bu yolu seçib əməkdaşlığa cəlb olunanlar ən qəddar və rəhimsiz adamlar olmalarından əlavə, həm də müxtəlif növ silahların, o cümlədən də partlayıcı maddələrin və çeşidli bombaların hazırlanması işində təcrübəli mütəxəssis idilər.

...Bəzi erməni zənginləri qorxudan bu təşkilata cüzi maddi yardım edirdilər. Lakin əsas yardım İngiltərə amilləri tərəfindən onlara çatdırılırdı. Çünki ingilislər Rusiyada və Osmanlı torpaqlarında sabitsizlik və çaxnaşma yaratmağın tərəfdarı idilər...

Partiyanın əsas diqqəti daha çox İran və Osmanlı hərəkatlarının inkişaf xəttinə doğru yönəlmişdi və bu barədə İngiltərə siyasətinin maraqları çərçivəsindəki planların icrasına çevrilmişdi. Bu fəaliyyətlərdən Daşnaksütyun partiyasının əsasən nə üçün meydana çıxdığının səbəbləri barədə nəticə çıxarmaq olar. Habelə bu partiyanın hansı siyasətin xeyrinə görə adam öldürmə, qorxuyaratma və terror üsullarına üstünlük verdiyini də öyrənmək olar!

Yeprem də bu partiyanın üzvü olaraq məmur kimi İrana göndərilmişdi".[1]

---

[1] "Məşrutə rəhbərləri", c. 1, səh. 531.

Yeprem zahirdə Qəzvin-Rəşt yolsaldırma şirkətində işə başladı, lakin əməldə onun əsas vəzifəsi, daşnakların Gilandakı təşkilat şöbəsini yaratmaq idi. Bir müddətdən sonra yolsaldırma əməliyyatı başa çatdı və Yeprem əldə etdiyi pulla Turqum adlı bir erməniyə aid olan kərpicbişirmə sexini alıb zahirdə bu işlə məşğul olmağa başladı. Lakin onun əsas və gizli fəaliyyəti, Daşnaksütyun partiyasının şöbə təşkilatını yaratmaq ətrafında cərəyan edirdi.

1903-1908-ci illərdə Yeprem kərpicbişirmə peşəsi adı altında dünyanın qarımış müstəmləkəçisi İngiltərənin sonrakı məqsədlərinin istiqamətində Daşnaksütyun şöbələrini yaratmaqla məşğul olduğu bir vaxtda Tehranda və İranın digər şəhərlərində bir sıra zəncirvari olaylar baş verməkdəydi. Bu olayların bəzisi qabaqcadan düşünülüb planlaşdırılmış şəkildə baş versə də, bir sıra hadisələrin də kökü tarixi-ictimai zülm və istibdada, habelə şəhər yoxsul təbəqələrinin apardığı siyasi mübarizəyə gedib çıxırdı. Tehranın siyasi həyatında qabaqcadan düşünülərək hazırlanmış ən mühüm hadisələrdən biri İngiltərə səfirliyində oturaq aksiyasının keçirilməsi, digəri isə Məşrutə fərmanının qəbul edilməsi idi.

Yeprem bu zaman Gilanda və onun ətrafında cəmləşən daşnaklar arasında artıq tanınmış bir şəxsiyyətə çevrilərək, azadixahlıq iddialarında bulunurdu. O, kiçik istibdad dövründə müxtəlif kanallar vasitəsi ilə özü kimi yalançı azadıxahlıq maskasını üzlərinə taxıb özlərini inqilabçı kimi aparan Gilanın ən tanınmış qapalı və şübhəli iki şəxsiyyəti ilə tanış oldu. Bunlardan biri Ətabək (Atabəy - A.M) parkında Təbriz mücahidlərinə qarşı həyata keçirilən sui-qəsddə əli olan məşhur mason, Əbdülhüseynxan Sərdar Mohi (müüzzülsultan), digəri isə onun qardaşı, İngiltərə intelicent servisinə bağlı təcrübəli siyasətçi, habelə (Rəşt "Səttar" gizli komitəsinin sədri) Mirzə Kərimxan Rəşti idi.

Məşrutə hərəkatının "qondarma və saxta inqilabçılıq" xəttinə mənsub olan bu iki qardaşla əlaqə yaratmaq və onlarla siyasi terrorlarda iştirak etmək, özü isə ayrı-ayrı kanallarla

əcnəbi amilləri ilə sövdələşməyə girmiş Yepremi, saxta inqilabçılıq fəallarının tanınmış simalarından birinə çevirdi. O, Tehrana hücum zamanı bir qrup daşnaka başçılıq edirdi. həmin vaxtda isə ona qeyri-rəsmi olaraq "Sərdar" adı verilmişdi.[1]

Doktor Əli Firuhinin yazdığına görə, "1907-ci ildə Vyanada keçirilmiş Daşnaksütyun partiyasının dördüncü qurultayında qəbul olunmuş bir qərara əsasən, İranda faliyyət göstərən həmin partiyanın bütün üzvlərinə belə bir tapşırıq verilmişdi ki, "erməni məsələsi" nin həlli üçün Daşnak partiyasının məramnaməsi əsasında fəal şəkildə İran demokratlarının bütün çıxış və hərəkətlərində iştirak etsinlər.[2]

Yeprem partiyanın verdiyi tapşırığı Ənzəli, Rəşt, Qəzvin və Tehran şəhərlərində həyata keçirdi. O, daşnaklarla birlikdə azadlıq və azadixahlıq pərdəsi altında İran Məşrutə hərəkatında iştirak edib, müstəmləkəçilərin planlarının icrası yolunda bir çox cinayətlər törətdi. Həmin cinayətlərin şərhini irəlidə verəcəyik. Məhz həmin Yepremin gülləsi ilə Tehranın Ətabək parkında milli Sərdar Səttərxan yaralanıb, həmin yaradan aldığı xəsarətə görə dörd ildən sonra 48 yaşında ikən həyata göz yumdu. İbrahim Fəxrainin yazdığına görə Yepremin də iştirak etdiyi Gilan mücahidlərinin Qəzvini fəth etməsindən sonra "Müsyo Yeprem Qəzvində rus konsulu Vis ilə görüşdü. Bu görüşün mahiyyəti kimsəyə bəlli olmadı. Lakin bu əməl mücahidləri əsəbiləşdirdi. Görüşün və mücahidlərin bəzi xoşagəlməz əməllərinin nəticəsi bu oldu ki, Valikov və bulğar Panev Mirzə Kiçikxan və bir neçə digər şəxslə birlikdə Qəzvini tərk edib küsülü halda Rəştə qayıtdılar.[3]

H.M.Zavoş yazır: "1909-cu il sentyabr ayının 15-də Hacı Əliquluxan Bəxtiyarinin (Sərdar Əsəd) və Məhəmmədvəlixan Tonekaboninin (Sepəhsalar) başçılıq etdiyi qüvvələr iki istiqamətdən Tehrana daxil olub, Baharistanı Tehran fatehlərinin komandanlığını qərargaha çevirdilər.

---

[1] H.M.Zavoş yenə həmin əsərdə, səh. 284.

[2] İbrahim Fəxrai "Gilan, Məşrutə hərəkatında", səh. 151.

[3] İbrahim Fəxrai "Gilan, Məşrutə hərəkatında" (farsca), səh.151.

Öz dəstəsi ilə Məhəmmədvəlixanın komandanlığı altında olan Yeprem isə Şahabad qaravulxanasının əsgərləri ilə qarşı-qarşıya durur, onun dəstəsindən bir neçə nəfər ölür. Hamısı oyanış lojasının üzvlərindən olan 12 nəfərdən ibarət inqilabın rəhbər heyəti dərhal Yepremi Tehran Polis təşkilatının rəhbəri vəzifəsinə təyin edir. Yepem, öz dəstəsindən olan şəxslərlə birlikdə yenicə təyin olunmuş postda inqilab şura heyətinin silahlı qolu kimi müxalifləri tutmaqla və İran paytaxtında fatehlərin istədiyi təhlükəsizliyi bərqərar etməklə məşğul olur. Tehran fatehlərinin tanınmış şəxslərini məşrutəçilərlə ziddiyyətdə olduqları bəhanəsi ilə tutub edam etmək, əslində öz müxalifləri olan həmin insanları məhv etməkdən başqa bir şey deyildi. Bu dəlilin aydın sübutu, məşrutə və məşrutəçilərin ən böyük düşməni Eynoddövlənin Tehran küçələrində sərbəst gəzməsi idi. Əgər məşrutəçilərin düşmənləri tutulub edam olunmalıydılarsa, o zaman hamıdan əvvəl Eynoddövlənin özü tutulub edam olunmalı idi. Çünki o, istibdad dövrünün son diktator sədrüləzəmi (baş naziri) kimi Tehranın Cümə məscidinə toplanmış dinc əhalinin üzərinə atəşin açılmasına əmr vermiş, 13 ay müddətinə Təbrizi mühasirədə saxlayan 40 min nəfərdən ibarət dövlət qüvvələrinə başçılıq etmiş, azadlıqsevər məşrutəçilərin bir çoxunun öldürülməsində birbaşa iştirak etmişdi”.[1]

Yeprem Tehranın polis idarəsi başçılığına və silahlı qüvvələrin komandanlığına təyin edildikdən qısa müddət sonra öz gerçək içüzünü nümayiş etdirib sübut etdi ki, o, demokratiyaya, qanun hakimiyyətinə və İran xalqlarının xoşbəxtliyinə zərrə qədər belə inanmayan özbaşına bir diktatordur. O, həm də sübut etdi ki, onun yeganə məqsədi müstəmləkəçilərin maraqlarını təmin edən planlarını İranda həyata keçirmək və bununla da məşrutə inqilabını öz həqiqi yolundan yayındırmaqdan başqa bir şey deyil. İbrahim Səfai yazır: “Yeprem Tehranın polis idarəsinə başçılıq etdiyi dövrdə nə dövlətdən söz eşidirdi,

[1] H.M.Zavoş həmin əsər, səh. 287.

nə də ki, dövlətdən yuxarıda oturandan. Bu üzdəniraq demokrat elə qəddarcasına davranırdı ki, diktatorluqda Müşirüssəltənə və Əmir Bahadur kimiləri də ona çatmırdılar”.[1]

Daxili işlər naziri Sadıq Müstəşarüddövlə Yepremin özbaşınalığından bezərək, dövlət kabinetinin iclasında üzünü baş nazirə tutub deyir: “Mən daxili işlər naziri olaraq anarxist bir erməninin özbaşınalığı ilə razılaşa bilmərəm. Onun hansı niyyətlə və hansı tapşırıqla Tehranda böyük bir inqilabı həyata keçirməyə cəhd göstərməsi bəlli deyil. O, dövlətə tabe olmalıdır. Onun müstəqil olaraq öz Daşnaksütyun partiyasının arzu və tələblərini yerinə yetirməyə ixtiyarı olmamalıdır”.[2]

Yeprem ölkənin cari qanunlarına zidd hərəkət edərək, göndərilən bütün məktubları, o cümlədən də Milli Şura Məclisinin sədrinin də məktubunu yoxlatdırır, senzuradan keçirirdi. Buna “Məşrutə sənədləri” adlı kitabda belə işarə olunmuşdur: “Bu məktubun məzmunu o baxımdan önəmlidir ki, Yeprem xan dövrünün nəzmiyyəsi (Polisi) poçt içindəki senzuranı hətta məclis rəisinin məktublarına da şamil edirdi:

***“Polis idarəsi, Dekabr 1906,***
***Milli Şura Məclisinin sədri hörmətli***
***Müstəşarüddövlə cənablarının hüzuruna!***

***Zati-alilərinin adına olan məktub və əmanətin poçt idarəsində polis məmurları tərəfindən saxlanılıb yoxlanılması faktının təfərrüatı belədir ki, müsyo Yeprəm Zəncandan teleqraf vuraraq təftiş aparılmasına göstəriş vermişdir. Polis idarəsi də öz vəzifəsini yerinə yetirmək üçün məktub və əmanətin kimin adına olduğunun fərqinə varmadan poçt nazirliyinə yazmışdır ki, məktub və əmanəti polis müfəttişlərinin hüzurunda açıb yoxlasınlar. Eşitdiyimizə görə polis məmurları da konverti açmaq istəyiblər. Bu isə hazırkı narazılığın ortaya çıxmasına gətirib çıxarmışdır.”***

---

[1] İ.Səfai həmin əsər, səh. 547.
[2] Tarixi qeydlər, səh. 79.

Məktubun altındakı ad oxunaqlı deyil. Həmin sənəd və məktubları tərtib edən İrəc Əfşar yazır: "Həmin ərəfədə Yeprem polis rəisi idi. Məlum olduğu kimi bu məktuba onun köməkçisi qol çəkmişdir".[1]

Yeprem öz məşrutəsinə çatıb yeni vəzifədəki yerini bərkitdikdən sonra arvadı Anahidə yazdığı bir məktubda Daşnak partiyasının hegemonluğuna işarə edirdi: "Mən sağ və salamatam. Şəhərdə sakitlik və əmin-amanlıq hökm sürür. Şəhərin dörd tərəfi müdafiəçilərin əlindədir. Daşnak partiyası şəhərdəki duruma nəzarət edir. Bizim səylərimiz nəticəsiz qalmadı. Demək olar ki, mən öz istəyimə çatmışam".[2]

Tehranın fəthindən və qondarma məşrutənin yeni dövlət başçılarının istədiyi əmin-amanlığın bərqərar olunmasından neçə ay sonra müstəmləkəçilərin hazırladığı xəyanət dolu ssenarinin ikinci hissəsinin öz muzdurlarının əli ilə həyata keçirilməsinin vaxtı artıq gəlib çatmışdı. Lakin Azərbaycanın əsl inqilabçıları və qəhraman mücahidləri sağ ikən, həqiqi məşrutəni öz müqəddəs yolundan yayndırmaq və onu mavigöz yabancıların istədiyi istiqamətə yönəltmək qeyri-mümkün görünürdü. Elə buna görə də ilk növbədə məşrutənin gerçək mübariz rəhbərlərini hansı yolla olursa-olsun öz doğma diyarından uzaqlaşdırmaq, onları tərkisilah etdikdən sonra məhv etmək zərurəti meydana çıxırdı. Məhz həmin məqsədlə də Yeprem xan ilə Cəfər Quluxan sərdar Bahadura göstəriş verilir ki, zahirdə yerli quldurları əzmək bəhanəsi ilə Azərbaycana getsinlər. Lakin onların zahiri vəzifəsi bundan ibarət olsa da, əsil niyyətləri Milli Sərdar ilə Milli Saları və onların silahdaşlarını Tehrana sürgün etməkdən ibarət idi.

Rus və ingilis siyasi nümayəndələrinin bu mövzu ilə bağlı mövcud raportlarının nəzərdən keçirilməsi bu acı inkarolunmaz tarixi həqiqəti sübut edir ki, onların bu iyrənc oyunu qabaqcadan düşünülmüş şəkildə planlaşdırılmış Yeprem kimi xainlərin əli ilə həyata keçirilmişdir.

[1] Sadıq Müstəşarüddövlə "Məşrutə sənədləri" (farsca), səh. 263.
[2] İsmayıl Rain "Yepremxan-i sərdar" (farsca), səh. 452.

Rusiyanın Təbrizdəki baş konsulu Millerin birinci müşavirinin 15 isfəndi 1288-də (1909-cu ildə) Rusiya paytaxtına göndərdiyi teleqramında deyilir: "...Azərbaycanda nizam-intizamın bərqərar olması Səttərxan ilə Bağırxan silahlı dəstələrinin Yeprem və sərdar Bahadurun başçılıq etdiyi dövlət qüvvələri tərəfindən tərkisilah edilərək, Təbrizdən xaric edilmələrindən asılıdır. İran dövlət qüvvələri tərəfindən həyata keçirilən bu xeyirxah iş İran üçün çox faydalıdır".[1]

Həmin şəxs 25 bəhmən 1288-ci ildə çar Rusiyasının Tehrandakı səfirliyinə göndərdiyi əvvəlki teleqramında xəbər verir: "Sabah dövlət qoşunu Təbrizə daxil olduqdan sonra qubernator müxbürüssəltənə Səttərxan ilə Bağırxana öz silahlarını təhvil verməyi təklif edəcəkdir. Onun təklifi qəbul olunmadığı təqdirdə, qubernator zor tətbiq etməyi qərara almışdır".[2]

Müxbürüssəltənə Hidayət bu barədə yazır: "Ordu şəhərdə ikən onları (Sərdar ilə Saları) Tehrana yola salmalıydıq. Milli Şura Məclisi, əncümən və ordu həm nəsihətlə, həm də hədələməklə nəhayət ki, onları Tehrana getməyə razı saldı. Görünür ki, Səttərxanın Tehrana çağırılması üçün Tehranda səfirlik tərəfindən də dövlətə təzyiqlər olunurdu. Sərdar Bahadıra dedim ki, Sərdar Əsədə yaz ki, bu cənabları qarşılamaqda bir az həddi saxlasınlar".[3]

Ürəkləri həmişə doğma yurdlarının əzəmət və baş ucalığı üçün çırpınan bu sadiq və qeyrətli ərənlərin məcburi şəkildə Tehrana yola düşməsi Novruz bayramından bir gün əvvələ təsadüf etdiyi üçün qəmli bir drama çevrildi. Onlar 1289-cu il Novruz bayramından bir gün qabaq bu gedər-gəlməz səfərə çıxmalı oldular. Belə ki, yeni il təhvil olunan zaman öz ailələrinin yanında ola bilmədilər. Beləliklə də, başı əcnəbilərin axurunda olan bir ovuc alçaq xəyanətkarın müştərək fitnəsi ilə

---

[1] Narıncı kitab "Çar Rusiyasi xarici işlər Nazirliyinin İranın Məşrutə inqilabı barədəki siyasi sənədləri" (fərsca), tərcümə edəni: Pərvin Monzəvi, cild 4. səh. 33 və 51.

[2] Həmin əsər, P.Monzəvi, cild 4. səh. 33 və 51.

[3] "Xatirələr və xətərlər" (farsca), səh. 200.



Bakı şəhərində erməni daşnakları tərəfindən dağıdılıb yandırılmış İslamiyyə sarayı. 1918-ci il

Babəkin xələf oğulları olan bu ərənlərin hər biri, özünün əlli nəfər sadiq silahdaşının müşayiəti ilə Tehrana doğru yola düşdülər. Öz ölməz qəhrəmanlarını ürəkdən sevən və onlarla çiyin-çiyinə istibdada qarşı döyüşən və hər cür əzab-əziyyətə dözən Təbrizin qəhrəman əhalisi, məşrutə rəhbərlərinin hərəkətindən xəbərdar olan kimi iş yerlərini bağlayıb, öz rəhbərlərini yola salmaq üçün küçələrdə toplaşmağa başladılar. Onlar bu igidlərin o qədər vurğunu olduğu diyardan məcburi şəkildə ayrılmalarını bildikləri üçün ağlayır, hicranın ağır dərdini çəkməyə hazırlaşırdılar.

- Çar Rusiyasının baş konsulu Millerin birinci müşaviri 4 fərvərdin 1289 (mart 1909-da) tarixində öz raportunda yazır: "Zati-alinizin hüzuruna bundan əvvəl də göndərdiyim teleqramada qeyd etdiyim kimi, 19 Mart günü axşam saat beşdə Səttarxan ilə Bağırxan Tehrana doğru yola düşdülər. Beləliklə də, bütün Təbriz sakinləri, kiçik mağaza sahiblərindən tutmuş qubernatora qədər nəhayət ki, rahat nəfəs ala bildilər. İranlı kazaklar, Yepremin və Bəxtiyarilərin atlıları, onların həqiqətən də, şəhər hüdudlarından çıxıb getməsinə əmin olmaq üçün onları müşayiət etdilər...

19 mart səhər tezdən Səttarxan və Bağırxan tərafdarları sonuncu dəfə olaraq öz rəhbərlərinin Təbrizdən getməsinin qarşısını almağa cəhd göstərdilər. Təbrizdə yayılan bir bildirişdə belə bir tələb irəli sürüldü ki, İslam düşmənləri olan müxbirüssəltənə, Yeprem və sərdar Bahadur bu şəhəri tərk etməlidirlər. Bütün xarici konsulluqlara çatdırılan bu bildirişin ruscaya olunmuş tərcüməsinin mətni əlavə olaraq göndərilir".

Azərbaycandakı bütün xarici konsulluqlara göndərilən bu anonim bildirişin mətni belədir: "Bütün Təbriz camaatı qadınından tutmuş kişisinə qədər, xarici dövlətlərin konsullarından tələb edirlər ki, onların xalq və islam düşmənləri olan müxbürüssəltənənin, Yepremin və sərdar Bahadırun Tehrana geri dönmələri ilə bağlı tələbini Məclisin qulağına çatdırsınlar. Bu gündən etibarən heç kəsin, İslamı və xalqın şərəfini qoruyan milli Sərdar Səttarxana və milli Salar Bağırxana

toxunmağa ixtiyarı olmamalıdır. Bunu bilməlisiniz ki, əhali bu iki şəxsin Təbrizdən qovulmasına icazə verməyəcəkdir. Şəhərdən qovulası olanlar, qanun və nizam-intizamı pozanlar və bundan öncə adları çəkilən (Müxbürüssəltənə, Yeprem və sərdar Bahadur) şəxslər olmalıdır. Əgər bu üç şəxs həmin günlərdə Təbrizdən çıxıb getməsələr, böyük qarşıdurmaların səbəbkarı məhz onlar olacaqlar. Biz istəmirik ki, bir erməni gəlib bizə padşah olsun, yoxsa..."[1]

Yeprem xan öz müstəmləkəçi ağalarının niyyətini yerinə yetirmək üçün əlindən gələni əsirgəmirdi. Sərdar və Saların Tehrana sürgün göndərilməsi işində də onların həqiqətən getməsindən əmin olmaq üçün özü şəxsən şəhər darvazasına qədər onları müşayiət etdi. Yeprem Təbrizdə ikən öz postundan sui-istifadə edərək İran xalqının beytülmalından faydalanaraq Daşnaksütyun partiyasının buradakı şöbəsini gücləndirməyə çalışırdı. 28 Ramazan 1328-də Təbrizdə olan Seyid Həsən Tağızadə, özünün Demokrat partiyasında olan əməkdaşlarından birinə göndərdiyi bir məktubda yazır: "Gördüyümüz kimi bütün ermənilər Yepremin işinin inkişafı üçün canfəşanlıq edir, yardım üçün əllərindən gələni əsirgəmirlər. Çünki onlar Yeprem ilə Daşnaksütyun partiyasına bir gözlə baxır, onun nailiyyət və ya məğlubiyyətini Daşnaksütyun partiyasının qələbəsi, yaxud məğlubiyyəti hesab edirlər. O, zahirdə polis rəisi və ordu komandanı olsa da bütün bu qiymətli fürsətlərdən yararlanaraq, gecə-gündüz öz vaxtını daşnak partiyasının inkişafına və onun məqsədlərini həyata keçirməyə sərf edir. Eşitdiyimə görə o, Qaraca dağdan qayıdarkən, orduya məxsus beş ədəd tüfəng ilə onbeş min patronu Daşnaksütyun komitəsinə vermişdir. O, bütün vergiləri və idarələri də öz əlinə keçirmişdir. Məqsədi isə daşnakları dövlət idarələrində işə cəlb etmək və bütün erməniləri məcburi şəkildə Daşnak partiyası ətrafında toplamaqdan ibarətdir. Daşnaklar bütün oqafı, erməni məktəblərini, teatr, kitabxana və sairəni öz

---
[1] Narıncı kitab, səh. 75-77.



İrəvan şəhərində Came məscidinin ümumi görünüşü

əllərinə keçirmişlər. Onlar bütün ali təhsilli erməni gənclərinə məhz Daşnak partiyasına üzv olduqdan sonra iş təklif edirlər. Bu partiyanı qəbul etməyən və ona üzv olmaqdan boyun qaçıranlar işsiz qalırlar. Elə buna görə də Daşnak partiyasına və onun ideyasına heç bir rəğbəti olmayan ermənilərin yazıq ali təhsilli təbəqəsi, özləri müstəqil və yüksək düşüncəyə malik olmalarına baxmayaraq, yalnız işlə təmin olmaq məqsədi ilə Daşnaksütyun partiyasına daxil olmaq məcburiyyətində qalırlar. Yoxsa bizim Təbrizdəki erməni dost və məsləkdaşlarımızdan olan Tiqran*" və başqaları kimi işsiz qalanlar.[1]

Yeprem Azərbaycandan qayıtdıqdan sonra Tehranın polis (nəzmiyyə) təşkilatının sədri kimi öz işini davam etdirdi. O,polis işçilərinə vahid forma hazırlatdırıb, polis gəlir qaynaqlarını artırmaq üçün finans nazirliyinin etirazına əhəmiyyət vermədən alkoqollu içkilərə vergi təyin etdi.

İbrahim Səfainin yazdığına görə: "Mostofiülməmalik kabinetinin yeni işə başlaması ərəfəsində Seyid Abdulla Behbəhaninin qətl hadisəsi baş verdi. Yeprem Behbəhanini qatillərini tutmaqda səhlənkarlıq edir, başısoyuqluq göstərirdi. Çünki onun özü də bu iki terrorun tərəfdarı kimi rühaniyyətlə, hətta xristian rühaniyyəti ilə düşmənçilik edirdi".[2]

Səttarxan ilə Bağırxan Tehranda sakin olduqdan sonra, şücaət və qəhrəmanlıq simvolu olan bu iki igidin hesabına öz məşrutələrinə (vəzifə və var-dövlətə - A.M.) çatmış xain dəsisəçilər, onların xəyanət dolu planları qarşısında dayanan Sərdar və Salarları tərkisilah edərək məhv etmək qərarına gəlirlər. Elə buna görə də bu iyrənc niyyəti həyata keçirmək üçün 1289-cu ilin mardod ayının 14-də (avqust 1910-da) Ətabək parkındakı faciəni törətdilər.

* Tikran Terhakupyan demokrat ermənilərdən birisi idi. Ali təhsilini İsveçrədə bitirmiş, Maliyyə nazirliyində işləyirdi. Tiqran 1330 (h.ş)-cu ildə vəfat etdi.)

[1] "Məşrutiyyət haqqında yenicə tapılmış səhifələr və Tağızadənin rolu" (farsca), səh. 222.

[2] İbrahim Səfai həmin əsərdə, səh. 545.



Bakı şəhərinin o dövrdəki təsviri

Ətabək parkında törədilən faciə Məşrutə inqilabi tarixində qara ləkələrdən biridir. Həmin acınacaqlı hadisə baş verdikdən sonra böyük xalq hərəkatı anti-imperialist bir cərəyan kimi tanınan Məşrutə inqilabını öz həqiqi yolundan yayındırıldı. Müstəmləkəçilərin və onların maskası nökərlərinin (əksinqilabçılar və saray nümayəndələrinin) istədikləri tərəfə istiqamətləndirilmiş oldu. Bu qəmli faciədə məşrutəçi maskasını üzlərinə taxan saxta inqilabçılar, o günə qədər öz fədakarlığı sayəsində min bir əzab-əziyyətə qatlaşaraq və hər cür məhrumiyyət və sıxıntılara dözərək, hərakatı kiçik istebdadın məhv olunması, Milli Şura Məclisinin yenidən bərpa olunması, xalqın tələblərini özündə əks etdirən inqilabçı və mütərəqqi mətbuatın yenidən faliyyətə başlanması, demokratik birliklərin və digər inqilabçı qurumların yaranması mərhələsinə kimi çatdırıb irəli aparan inqilabın həqiqi nümayəndələrini hiylə və riyakarlıqla tərkisilah edib məhvə uğratdılar.

- Əgər başqa-başqa yerlərə bağlı olan çirkin əllər Azərbaycan mücahidlərinə qarşı bu iyrənc və təəssüfləndirici faciəni törətməsəydi, sözsüz ki, qısa zamanda müstəmləkəçilərin səngərləri bir-birinin ardınca inqilabçılar tərəfindən fəth edilərək, həqiqi istiqlal və azadlığa zəmin yaranar, qanunun aliliyinə riayət edilər, bütün ölkədə ədalət bərqərar olunardı. Belə olduqda isə İran bölgədə anti imperialist mərkəzlərindən birinə çevrilə bilərdi. Lakin təəssüflər olsun ki, xalq düşmənləri Məşrutə inqilabının bu müqqəddəs ideyalarının gerçəkləşməsinin qarşısını alaraq, İran xaqlarının zülmətdən qurtarıb parlaq inkişaf yolunda irəliləməsinə də mane oldular.

Əcnəbipərəst irticaçılar ən çətin və dözülməz şəraitdə belə, inqilabın və həqiqi müstəqilliyin keşiyində duran fədakar Azərbaycan mücahidlərinin əlindən silahı almaqla, istibdadın yenidən qayıtmasına və 27 yanvar 1911-ci il əksinqilabçı çevrilişin baş verməsi ilə Milli Şura Məclisinin işinə xitam verilməsinə yardım etdilər. Beləliklə də, müstəmləkəçilərin hegemonluğu yenidən təmin edildikdən sonra əcnəbilərin əli ilə idarə olunan




Həmin günlərdə Bakı şəhərindən bir təsvir

və məşrutə masksı ilə hakimiyyətə gətirilən mürtəce dövlətlər saxta məclislərdə öz ərbablarının maraqlarına cavab verən qanunları qəbul etməyə başladılar. İnqilab oğrusu olan bu yalançı və qondarma inqilabçılar beləliklə də, nəsilbənəsil uzun illər milyonlarla İran vətəndaşının taleyi ilə oynayaraq bir nazir, millət vəkili, səfir və vali olaraq zülm içində yanıb yaxılan bu yazıq millətə ağalıq edib, ölkənin istiqlalı ilə zəngin sərvətini yabancıların ixtiyarına buraxdılar".[1]

Ə.Kəsrəvi bu barədə yazır: "Bu, məşrutə tarixinin ən qəmli və üzüntülü hekayələrindən biridir. Bu cinayəti birbaşa özləri törədən gizli əllər, faciənin necə baş verdiyinin açıqlanmasına imkan verməmiş, əllərindən gəldiyi qədər onun üstünü ört-basdır etməyə çalışmışlar".[2]

Əcnəbilərin göstərişi ilə Tehranın Ətabək parkındakı faciənin törədilməsi vəzifəsi əsasən Yepremin üzərinə qoyulmuşdu. Çünki Yeprem Azərbaycan mücahidlərinə, özəlliklə də milli sərdar Səttarxana qarşı xüsusi kin bəsləyirdi. Kəsrəvi yazır: "...Yeprem Səttarxanla düşmənçilik etməyə başladı. Ətabək parkındakı hadisənin baş verməsində də hamıdan artıq onun rolu var idi".[3]

Yepremin milli sərdar Səttarxana qarşı bəslədiyi kin şəxsi bir hisdən qaynaqlanmırdı. Çünki müstəmləkəçiliyin bir qulluqçusu olaraq onun Məşrutə inqilabının həqiqi qəhramanını görməyə gözü yox idi. Yeprem, Ətabək parkındakı faciənin baş verməsindən üç ay yarım sonra - 21 noyabr 1910-cu il tarixində erməni Hambarsuma yazdığı məktubunda Sərdar ilə Salar barədə təhqiramiz bir şəkildə danışır. Həmin məktubun bir hissəsini nəzərdən keçiririk: "...Tehrana çatdıqdan sonra bütün əhali gözünü mənə dikib, məndən çarə istəyirdilər. Demək olar ki, ay yarım qalmışdım və nə edəcəyimi bilmirdim. Nəhayət

---

[1] Oxucular Ətabək parkındakı faciənin geniş şərhini oxumaq üçün həmin müəllifin "Milli Salar Bağırxan" (farsca) kitabına müraciət edə bilərlər.

[2] Ə.Kəsrəvi həmin əsərdə.

[3] Ə.Kəsrəvi səh. 523.

ruslar, xüsusiilə də səfirlər Səttarın, Bağırın və başqalarının törətdiyi hərc-mərcliyin qarşısında ultimatum verdilər. Rus ordusu Qəzvin-Tehranın iki ağaclığında dayanmış və ruslar on saat möhlət vermişdilər. Vəziyyətin belə olmağı məni yenidən işə qarışmağa vadar etdi. Ruslar öz tələblərinin yerinə yetirilməsi üçün 3 gün daha möhlət verdilər. Sizə də məlum olduğu kimi möhlətin son günündə Ətabək parkındakı hadisə baş verdi və İranın yenə bir müddət ayaq üstündə qalıb yaşamasına səbəb oldu...".

Bəzi tədqiqatçıların yazdıqlarının əksinə olaraq, milli sərdar Səttarxanın yaralanaraq yatağa düşməsi və dörd il sonra aldığı həmin yaradan vəfatı ilə nəticələnən Ətabək parkındakı o qorxunc və dəhşətli hadisədən sonra, Yeprem nəinki öz əməlindən peşiman deyildi, hətta bir qrup Azərbaycan mücahidlərinin bu olayda öldürülməsini və ya yaralanaraq əsir düşməsini sevinclə qarşılayır, bunu, ölkə üzərindən təhlükənin götürüldüyü və İranın varlığının təmin olunması kimi qələmə verirdi. İbrahim Səfai demişkən: "özünün mücahid olmağı ilə öyünən bu şəxs (Yeprem) mücahidlər üzərinə güllə yağdırdı".

1903-cü ilin dekabr ayında Yeprem Tehran polis sədri vəzifəsindən uzaqlaşıb, özü tərəfindən jandarmeriya başçılığına təyin olunmuş Sərdar İntizar Müzəffər Əzəmi onun yerinə, yeni Tehran polis təşkilatının sədri vəzifəsinə keçir. Sepəhdar Tonekaboninin altıncı kabinetdə iştirakından sonra 10 mart 1911-ci ildə Yeprem yenidən Tehran polis təşkilatının sədri vəzifəsinə seçilir. Yeprem isə öz növbəsində Dr.Söhrabxanı özünə müavin təyin edir.

Yepremin polis sədri vəzifəsinə təyin edildiyi, Sepəhdar Tonekaboninin isə baş nazir olduğu bu dövrün önəmli olaylarından biri tanınmış üç demokrat mübarizin, yəni Məhəmməd Əmin Rəsulzadənin, Heydərxan Əmioğlunun və Yarməhəmməd Kirmanşahinin sürgünə göndərilməsi idi. Rəsulzadə ilə Heydərxan ölkədən kənar hüdudlara, Yarməhəmmədxan isə

Kirmanşaha sürgün edildilər. Yeprem daxili işlər naziri Sadıq Müstəşarüddövləyə yazdığı bir məktubda Heydərxan Əmioğlunun sürgünə göndərilməsi haqqında belə yazır:

**"Tehran-Məmalik-i məhrusənin jandarmeriyası və mərkəzi polis idarəsi. Məxfi.**

**Daxili işlər naziri həzrətlərinin hüzuruna.**

Bu gün axşam günbatana saat yarım qalmış Heydərxanı öz şəxsi faytonumla şəhərdən çölə aparıb yola saldım. Heydərxanla bərabər daha yeddi tanınmış şəxs də yola düşdülər. (Yeprem xanın imzası, möhürlər isə farsca və latın hərfləri ilə: Yeprem Davidyants.)[1]

Polis təşkilatına başçılıq etdiyi bu dövrdə Yepremin zorakılığı daha da artmışdı. O, özbaşına olaraq tədqiqat idarəsini və polisə bağlı bir neçə digər idarəni bağlatdırıb, həmin orqanlarda işləyən işçiləri təpik, yumruq və şillə ilə polis təşkilatından qovdu.

Müşarüssəltənə əldə etdiyi səlahiyyətlərdən istifadə edərək, polis idarəsinə əmr etdi ki, ədliyyəni bağlasın. Bu fərmanın ardınca Yeprem bir qrup polisi göndərib zor gücünə ədliyyəni bağlatdırdı. Qazilər onlardan əvvəl dövlət fərmanını göstərmələrini tələb etdikdə Yepremin əmri ilə onları bu cəsarətinə görə tutdular.

"Bu arada "Bəhlul" və "Çəntə" qazetləri Yepremin polis işçilərini işdən çıxarması, habelə qaziləri cəzalandırması ilə bağlı hərəkətini qınamağa başladılar. Lakin həmin qazetlərdə dərc olunan tənqidi yazılar Yepremin əlinə çatdıqdan sonra yenə bir neçə polis məmuru ilə mücahidi göndərib hər iki qazeti bağlatdırmaqla yanaşı, redaksiyalarını talayıb, "Çəntə" qazetinin baş redaktoru Mirzə Mahmudu da tutdular.

Yeni maliyyə təşkilatı işə başladıqdan sonra nazirin hökmü ilə maliyyə müfəttişi Mirzə Əhmədxan polis

---

[1] "Məşrutə sənədləri", səh. 317.

sandığındakı vəsaitin hara və necə xərclənməsini yoxlamaq üçün məmur təyin edildi. Lakin əlindəki fərmanla yoxlamağa başlarkən, Yeprem onun əlindəki fərmanı (hökmü) cırıb, özünü isə əməlli-başlı əzişdirdikdən sonra sınmış əl-qolu ilə polis idarəsindən qovdu. Sepəhdar kabinetinin maliyyə naziri Müavinüddövlə bu təhqirin müqabilində Yepremə etiraz edib onu sorğu-suala tutmağa çalışdı. Lakin dövlət iclaslarının bir çoxunda iştirak edən Yeprem etinasızlıqla ona cavab verdi. Sepəhdar məsələ üstündə dayanmaqdan vaz keçdi. Beləliklə də, polis sandığındakı vəsaitin nəyə xərclənməsi, əvvəldə olduğu kimi yenə də dövlətin nəzarətindən uzaq saxlanıldı.

Tonekabonun narazı mücahidlərindən olan İqtidarüssultan kazakxanada xidmət etdiyi sürədə Hərb Nazirliyinə məxsus müəyyən qədər pulu mənimsədiyi üçün axtarışdaydı. Hərb Nazirliyində onun tutulması üçün şəhər polisinə göstəriş verilmişdi. Yepremin əmri ilə şəhər polisi Hərb Nazirliyinə bildirdi ki, İqtidarüssultan Tehranda deyil, halbuki Yeprem onu öz evində gizlətmişdi.

Əhməd Şahın sandıqdarı Əmcədüssəltənəni şahın sandığından bir miqdar pul və cəvahiratı oğurladığına görə tutub polisə təhvil vermişdilər, lakin Yeprem onu himayə edirdi.

Uzun sözün qısası Yeprem özünün tamamilə azadlığa zidd olan, əsl diktatorluq və özbaşınalığın nümunəsi olan belə bir xüsusiyyət və davranışı ilə Tehran polisinə rəhbərlik edir, üstəlik məşrutəçilik iddiasında da bulunurdu.[1]

Bundan əvvəl də qeyd etdiyimiz kimi, Yeprem Polis idarəsinə sədr təyin edildiyi elə ilk gündən öz diktator simasını nümayiş etdirməyə başladı. "Yeprem iyun günlərinin birində nəzmiyyədə (polisdə) həpsdə saxlanılan bütün müqəssir şəxsləri azad edib, polis məhbəsindəki bütün zəncirləri oradan çıxartdı. Onun göstərişi ilə bütün taxtalarla yorğan-döşəkləri yandırdılar. Yeprem demişdi ki yorğan-döşəklərdə mikrob var və insanları burada zəncirdə və həbsdə saxlamağa ehtiyac

---

[1] İbrahim Səfainin göstərilən əsəri, səh. 546.

yoxdur. O deyirdi ki oğrunun əli kəsilməli, qatil isə öldürülməlidir. Bundan başqa cinayətlər işləmiş şəxslərə də qanuna uyğun cəza verilməlidir. O həm də açıq-aşkar demişdi ki, oğruluğu və ya xəyanəti mənə (Yepremə) sübut olunan şəxsləri mən özüm həmin tapançamla cəzalandıracağam.

Bir cümə axşamı günündə Yepremin polis həbsindən sərbəst buraxdığı məhbuslardan biri həmin axşam yenə oğurluq edir. Onu oğurladığı əşyalarla bərabər tutub polis idarəsinə aparırlar. Onu dindirib, oğurluq faktı ilə bağlı etirafını aldıqdan sonra həmən yerdə dərhal edam edirlər.[2]

Ətabək parkındakı qara faciədə baş vermiş tutuqlamalar və özbaşınalıqlar daha acınacaqlı bir hadisənin baş verməsinə gətirib çıxartdı. Bu hadisədə isə yenə Yeprem önəmli rol oynayırdı. Bu acı və qəmli hadisə 1911-ci il dekabr ayının 23-də Milli Şura Məclisinin bağlanılması və onun ikinci dövrki fəaliyyətinə son qoymaqdan ibarət idi. Bu isə birbaşa Yepremin əli ilə həyata keçirildi. Yepremin bu işi, Milli Şura Məclisinin birinci dövr fəaliyyəti zamanındakı polkovnik Liyaxovun məclisə qarşı həmin əksinqilabçı hərəkətinin təkrarından başqa bir şey deyildi.

Çar Rusiyası öz məşhur ultimatumunu İran dövlətinə təslim edib onun icrası üçün 48 saat vaxt təyin etdikdən sonra xarici işlər naziri Vüsuquddövlə sabahısı gün sübh saat 10:30 radələrində yazılı ultimatumu özü ilə məclisə gətirib, millət vəkillərindən tələb edir ki,onu təstiq etsinlər. Dəhşətli bir sükut məclisə hakim olur. Millət vəkilləri heyrət və təəcüb içində fikrə dalıb susurlar. Lakin bir az sonra düşməni sarsıdan iradə dolu möhkəm bir etiraz səsi Baharistan imarətindəki məclisə hakim olunmuş ölümcül sükutu pozmağa başlayıb atmosferi dəyişir. Bu, Azərbaycan xalqının qəhraman oğlu Şeyx Məhəmməd Xiyabaninin boğazından çıxan İran millətinin etiraz səsi idi. Şeyx Məhəmməd Xiyabani öz etiraz

---

[1] Morteza Fəmi Təfreşi "Nizam-intizam və Polis Qacar dövründə" (farsca), səh.154 və 158.

çıxışında deyirdi: "Elə bir suallar var ki, onların cavabı ən qədim zamanlardan verilmişdir və yenidən ona cavab axtarmağa ehtiyac yoxdur. Belə ki, əgər hər hansı bir millətə: öz azadlığını və müstəqilliyini itirməyə razısanmı? -sualını versəniz, sösüz ki, cavabınızda deyəcək: Heç bir gücün və qüdrətin mənim azadlıq və müstəqilliyimi əlimdən almağa ixtiyarı yoxdur. Ümid edirəm ki, rus dövləti öz haqsız ültimatumunu geri götürüb İran millətini özündən incitməyəcəkdir".

Şeyx Məhəmməd Xiyabaninin bu tarixi çıxışı başqa millət vəkillərini həddindən artıq ruhlandırdı. Xiyabanidən sonra onların da bir çoxu bu ultimatumun ziyanları haqqında çıxış etdilər. Deputatların əksəriyyəti rus ultimatumunu rədd edib "Şimali düşmən"ə elə bir cavab verdilər ki, hüququ tapdalanmış ümidsiz bir kütlənin arzularını özündə əks etdirsin. Bu kütlə verdiyi cavabına görə öz sabahından qorxmayıb, öz abır və azadlığını qoruyub saxlamağı tərcih etdi. Beləliklə də bütün millət vəkilləri rus ültimatumunu geri qaytardılar".[1]

1911-ci il dekabr ayının 22-də Əbülqasım Qaragözlü Həmədanının (Nasirülmülk-o vaxtkı nayibüssəltənə) iştirakı ilə sarayda dövlət kabinetinin iclası təşkil edildi. Xarici işlər naziri Vüsuqüddövlə (Həsən Vüsuq) məclisdə başverənlər haqqında danışdıqdan sonra milli məclisdəki vəkillərin müqavimətini qınadı. O, daha sonra qabaqcadan digər nazirlər tərəfindən imzalanmış bir sənədi Nasirülmülkə təqdim etdi. Bu sənəddə Nayibüssəltənədən istənilmişdi ki, Milli Şura Məclisini bağlatdırsın. Qabaqcadan gizli şəkildə haqqında razılıq əldə edilmiş nazirlər kabinetinin tələbi təsdiq edilib məclisi qapatmaq üçün sərancam verildikdən sonra bunun icrası üçün Tehran polis rəisi Yepremə tapşırıq verildi.

1911-ci ilin dekabr ayında Yepremin tüfəngçilərindən bir qrupu məclisə göndərildi. Onlar millət vəkillərini oradan qovub qapıya da bir neçə qaravul qoydular ki, kimsə məclisə daxil ola bilməsin.

---

[1] Ə.Kəsrəvinin göstərilən əsəri, səh. 478.

Milli Şura Məclisinin qapadılması ilə bağlı verilən fərman və bu əmrin yerinə yetirilməsi çevrilişə bənzər bir hərəkət idi. Belə ki, yarımçıq Məşrutənin əsasını təşkil edən bəzi naliyyətlər neçə il müddətinə İranın ictimai-siyasi həyatından silinməyə başladı. Tanınmış siyasətçi və güclü natiq Şeyx Məhəmməd Xiyabaninin Məclisdəki tarixi çıxışından sonra ölkəmizin məhrum və məzlum kütlələrinin ürəyini qızdıran ümid şöləsi birdən-birə sönməyə başladı. Qəzetlərin işi dayandırılıb, bütün ölkədə inqilabçıların tutulub edam olunmasına başlanıldı. Köhnə imperializmin vəfalı nökərləri və İran millətinin bədbəxtçiliyinin səbəbkarı olan digər muzdurlar azadlığın basdırıldığı sükut qəbiristanlığında şənlənə-şənlənə rüsvayçılıqla hər birisi bir vəzifəyə yiyələnərək, İranın müasir siyasi tarixinin səhifələrində özlərindən qara ləkələr yadigar qoydular.

Bu qanlı hadisələrin baş verməsində sağçı Daşnaksütyun partiyasının Tehran şöbəsinin qurucusu və ölkəmizdə İngiltərənin mənafeyi uğrunda fəaliyyət göstərən ayrı-ayrı masonlarla bərabər şübhəli bir ünsür sayılan Yepremin də böyük rolu olmuşdur."[1]

Kəsrəvi yazır:"Yeprem ultimatum məsələsində dövlətin tərəfinə yönəldi və əlindəki gücdən istifadə edərək, ültimatumun təsdiq olunmasının tərəfdarlarına dəstək verməyə başladı. Məhz onun əli ilə bütün qazetlərin buraxılışına qadağalar qoyulub, azadlıq tələb edən demokratlar isə dəstə-dəstə tutularaq, Tehrandan sürgün edildilər. Bütün bu pisliklər Yeprem xanın bilavasitə əli və iştirakı ilə baş verdi və heç vaxt bu həqiqəti ört-basdır etmək olmaz."[2]

Nəhayət, öz xülyalarının haçansa gerçəkləşəcəyi uğrunda çalışan Yepremin macəralı həyatına Əbdülbaqixan Çardoli adlı bir şəxsin gülləsi son qoydu. Həmin şəxs, 1912-ci il may ayının 18-də Həmədan ilə Qor arasında yerləşən Çardoli vilayətinin Şorca kəndində, kəndin qalasına etdiyi hücumda tüfəngini

---

[1] H.M.Zavoş həmin əsərdə, səh. 294.
[2] Ə.Kəsrəvi "Azərbaycanın 18 illik tarixi", səh. 523.

Yepremə qarşı yönəltdi. Onun atdığı güllə Yepremin sol qulağının arxasına dəyib, sağ yanağını deşib çölə çıxdı. İbrahim Səfainin yazdığına görə; "Yeprem ilə Söhrabxanın meyitlərini rəsmi bir mərasimlə Həmədana gətirdilər. 20 may günü Həmədan məktəbləri tətil edildi. Dövlət məmurları məktəb uşaqlarını Həmədanın bir qrup erməni əhalisi ilə birlikdə tədbirdə iştirak etmək üçün cənazələrin yanına apardılar. Erməni kilsəsində rəsmi dini mərasim yerinə yetirildi. Yepremi xristian kimi tanımayan və onun üçün dini təşrifatın keçirilməsinə etiraz edən keşişi, Yepremin silahdaşları terror etdilər. Dr. Söhrabxanı Həmədanda basdırıb, Yepremi isə avtomobil ilə Tehrana gətirib may ayının 23-də basdırdılar". İ.Səfai daha sonra Yepremin xarakteristikası haqqında yazır: "Yeprem hündürboy, arıq və rəngi solğun bir kişi idi. Qısa saqqalı və qalın qaşları var idi. Yumru, batıq, qəddar və qanı xatırladan qırmızı gözlərə malik idi. Tünd və dik danışırdı. Bir neçə sinif oxuduğu üçün savadsız və avam idi. Erməni dilindən başqa türk və rus dillərini də bilirdi. Fars dilini də yaxşı öyrənmişdi. Tərbiyə görmədiyi üçün tünd hissiyyatı onu macəralı bir həyata doğru sürükləmişdi. Lakin rəhmsiz və qorxmaz olduğu üçün bu yolda nailiyyətlər qazanmışdı. Belə ki, siyasi bir fitnəni həyata keçirmək üçün siyasətin muzduru kimi Gilana göndərilmişdi. Aydın məsələdir ki, o nə müsəlman idi, nə də ki iranlı. Elə buna görə də onda istibdad və Məşrutə ilə əlaqədar heç bir düzgün təsəvvür və hissiyyat ola bilməzdi...

Onun davranışı diktatorluğundan və özbaşınalığından qaynaqlanırdı. Onda fikir və düşüncə azadlığına zərrə qədər inam yox idi. O, yalnız mənsubu olduğu partiyanın (Daşnak partiyasının - A.M.) ideya və məsləkinə uyğun olaraq rəhimsizcəsinə adamöldürmə və terror yolu ilə inkişaf pirinsipinə inanırdı. O, deyirdi ki, Sepəhdar və Semsamüssəltənə kimi bütün adamları öldürmək lazımdır. Bəlkə də fikirləşirdi ki, terrorizmə söykənərək haçansa İran hakimiyyətinə yiyələnə bilər!

Uzun sözün qısası, onun Məşrutənin qismən də olsa bərqarar olunmasında və əmin-amanlığın yaranmasında müəyyən qədər xidmətləri olsa da, həmişə qanunu pozmağa və terrorçuluğa meyilli olduğu üçün özü haqqında çox pis xatirələr geridə buraxmışdır. Şübhə yoxdur ki, əgər öldürülməsəydi bu ölkəni daha böyük təhlükələr gözləyəcək və o, İran millətinin müstəqilliyinin məhvə uğraması bahasına öz iyrənc və təhlükəli planlarını həyata keçirməyə cəhd göstərəcəkdi. Görünür, Çardolidə əhalinin bu təhlükəni yaxşı başa düşməsinə görəydi ki, Əbdülbaqixani milli bir qəhrəman kimi xatırlayır, onun cavanlığına və igidliyinə görə mahnılar qoşurdular. Bu mahnılar hələ də dillər əzbəridir. Əhali hələ də bu qəhrəman igidin şücaətini öyür və onun qısa həyat sürməsinə heyifslənir."[1].

[1] "Məşrutə rəhbərləri", cild 1, səh. 556.

# İçindəkilər

Erməni cinayətlərindən danışan kitab....................................3

Ön söz .....................................................................................7

Müsəlmanların soyqırımı ...................................................13

Güneydə və Qərbi Azərbaycanda ermənilər və assurilər (cilovlar) tərəfindən müsəlmanların kütləvi qırğını ...........16

Xristian ordusu və onu himayə edənlər ................................24

Urmiyada soyqırımın başlanması .........................................34

Simitqonun əli ilə Marşimonun öldürülməsi .......................46

Urmiyada daha bir qırğın ....................................................54

Salmasın acınacaqlı hekayəti ..............................................64

Andranikin Xoya hücumu ....................................................71

Şərəfxana hadisəsi ..............................................................83

Xristianların son taleyi .......................................................87

Məşrutə hərəkatının süqutunun səbəbkarı və milli sərdar Səttərxanın qatili Yeprem xan ....................91

Redaktor:

**Zərif Cəfərova**

Kompüter dizayneri:

**Araz Aşurov**
**Ceyhun Mahmudov**

**Səməd Sərdarniya**

# "Arazın hər iki tayında müsəlmanların soyqırımı"

Bakı - Elm - 2006

Yığıma verilmişdir: 09.01.2006.
Çapa imzalanmışdır: 16.03.2006.
Fiziki çap vərəqi 7,5. Ofset kağızı №1.
Tayms qarnituru. Nəşrin formatı: 60x90 $^1/_{16}$
Sifariş № 476. Tiraj: 1000